RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 102 (9557) 17 may 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri



Azərbaycan Respublikasına dövlət səfərinə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun mayın 16-da rəsmi qarşılanma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan və Belarus prezidentləri "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.

"Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti verilib.

Azərbaycanda dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib. Sonra Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Şəhidlər xiyabanını ziyarət edib.

→ 2-6

## Fransa kanak xalqının azadlıq istəyini qanla boğur

Tarixi soyqırımları üzərində qurulan, əli bir milyondan çox əlcəzairlinin qanına batan Fransanın "demokratiya" adı altında ölkələrə soxularaq onları əsarətdə saxlaması, insanlardan kölə kimi istifadə etməsi, müstəqillik istəklərini boğması, bir sözlə, əsrlər ötsə də, kolonializmini yeni üsullarla davam etdirməsi Bakı tərəfindən ifşa edilir.

Azərbaycan 2019-cu ildə Qoşulmama Hərəkatı (HQ) ölkələrinin yekdil dəstəyi ilə hərəkata sədrliyi qəbul etdiyi dövrdən etibarən Bandunq prinsiplərinə uyğun olaraq aktiv formada neokolonializmə qarşı mübarizə aparır. QH Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması isə bu işə xüsusi təkan verib.

→ 10





## Ağdam şəhərinin 189,7 kilometrlik daxili yolları baş plana uyğun tikilir

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yol layihəsinin icrası nəzərdə tutulur. Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Dünən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Ağdam şəhərinin daxili yollarının tikintisi barədə yeni məlumat yayıb. Qeyd edilir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək.

→ 9

## Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını

### TAP-ın təməlinin qoyulmasından 8 il keçir

TAP-ın təməli Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-nin, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Kəmərin 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

→ 11



◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

## Rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun mayın 16-da rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Belarus Prezidenti Aleksandr Lukaşenkonu qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Belarus Prezidentinə raport verdi.

Belarus Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Belarus Prezidentinə, Belarus nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Belarus Prezidenti Aleksandr Lukaşenkonun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



## Təkbətək görüş



Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə təkbətək görüşü olub.

## Geniş tərkibdə görüş

**Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar.

Sizi bir daha Azərbaycanda salamlayıram. Çox şadam ki, mənim dəvətimi qəbul etmisiniz və ölkəmizə dövlət səfərinə gəlmisiniz.

Bir çox məsələlər - ikitərəfli gündəlik, regional və beynəlxalq məsələlər üzrə ətraflı danışdıq. Münasibətlərimizin strateji xarakterini bir daha təsdiq etdik. Ölkələrimiz arasında etimada, qarşılıqlı hörmətə, dostluğa və əməkdaşlığa əsaslanan kreativ tərəfdaşlığı çox yüksək qiymətləndiririk. Bu münasibətlər zamanın sınağından çıxıb və zənnimcə, Belarus ilə Azərbaycanın etibarlı dost olmaları heç kimdə şübhə doğurmur. Bu, dövlətlərarası münasibətlərimizin əsasıdır, çünki yalnız qarşılıqlı etimad şəraitində həmişə bütün vəziyyətlərdə ikitərəfli dəstəyə arxalanaraq irəliləmək mümkündür.

Nümayəndə heyətlərinin üzvləri dünən görüşüblər və bildiyimə görə, təmaslar çox səmərəli, müsbət olub. Həlli vacib olan çoxlu məsələlər var. Qarşılıqlı fəaliyyətimizin perspektivlərinə baxdıqda böyük potensialı, əmtəə dövriyyəsinin artmasını və sənaye kooperasiyasının, kənd təsərrüfatında əməkdaşlığın genişləndirilməsini görürük. Əlbəttə ki, biz azad edilmiş ərazilərin bərpasında Belarus şirkətlərinin, müəssisələrinin iştirakına şad olardıq. Nümayəndə heyətlərinin üzvləri bu məsələni də müzakirə ediblər. Nümayəndə heyətlərinin tərkibi də çox mətləblərdən xəbər verir. Məhz gündəlikdə olan məsələlərdən danışılıb. Amma, əlbəttə, nümayəndə heyətlərinin üzvlərinin cavabdeh olduqları məsələlərlə kifayətlənmək olmaz. Belə ki, əməkdaşlığımız yetərincə çoxplanlıdır, yaxşı keçmişə və yaxşı gələcəyə malikdir.



Aleksandr Qriqoryeviç, bir daha Sizi salamlayıram. Sizə dost ölkə olan Azərbaycanda yaxşı vaxt keçirməyinizi arzulayıram.

❖ ❖ ❖

**Prezident Aleksandr Lukaşenko** dedi:

- İlham Heydər oğlu, çox sağ olun. Həqiqətən, bizim bağlı mövzumuz yoxdur. Bizdə hər şey açıqdır. Biz müzakirə aparırıq, hətta kimsə hansısa məsələlər barədə eşidirsə, onlar münasibətlərimizin necə olduğu barədə düşünürlər. Münasibətlər çox səmimi, çox yaxındır, biz qardaş kimi ünsiyyət qururuq. Dünyanı eyni şəkildə anlayır, onun haraya doğru getdiyini başa düşürük. Bilirsiniz, Sizə təkbətək görüş zamanı Heydər Əliyev haqqında danışmışdım, kaş ki, o, Azərbaycanın necə inkişaf etdiyini və uğurlarını görəydi. Mən bir daha düşündüm və müharibədən əvvəl, Sizin azadlıq müharibənizdən öncə söhbətimizi xatırladım. Həmin vaxt biz nahar süfrəsi arxasında ikilikdə fəlsəfi fikir yürüdürdük və belə nəticəyə gəldik ki, müharibədə qələbə çalmaq olar. Bu vacibdir, Qələbəni qoruyub saxlamaq daha vacibdir. Üçüncüsü isə, Sizin də bu mövzuya toxunduğunuz kimi, biz ümumi fikrə gəldik ki, müharibədən sonra ən ağır dövr başlayacaq, azad etdiyiniz torpaqları dirçəltməyə, bərpa etməyə başlamaq lazım gələcək. Həmin ağır dövr gəlib çatdı, bu torpaqları dirçəltmək, insanları artıq qaytarmaq lazımdır, onların bəziləri şəhərdə anadan olub, problemlər ola bilər və sair. Qələbə çaldınız və onu qoruyub saxladınız. İndi dirçəliş dövrüdür. Bu, zaman, böyük zəhmət tələb edir, beş və ola bilər ki, on il ərzində həmin işlər yerinə yetirilməlidir.

İlham Heydər oğlu, ona görə də biz kömək göstərə və bu prosesdə iştirak edə bilərik. Sizin kifayət qədər köməkçiləriniz var, amma biz bir dost kimi bu prosesdə texnika, aqroşəhərciklər, iş yerləri ilə iştirak edə bilərik. İnsanları köçürmək, qaytarmaq olar, amma bunun üçün mənzillər, iş yerləri lazımdır. Bizim müəyyən texnologiyalarımız var, Sizin mütəxəssisləriniz, nazirləriniz bu texnologiyalara yaxşı bələddirlər. Əgər işə yarayarsa texnikamız burada olar və işləyər.

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

## Sənədlərin imzalanması





**Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun iştirakı ilə Azərbaycan-Belarus sənədlərinin imzalanması mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov və Belarus Respublikası Dövlət Gömrük Komitəsinin sədri Vladimir Orlovski "Azərbaycan Respublikası Hökuməti ilə Belarus Respublikası Hökuməti arasında malların mənşəyinin sertifikatlaşdırılmasının elektron sisteminin qarşılıqlı tətbiqi haqqında Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov və Belarus Respublikasının kənd təsərrüfatı və ərzaq naziri Sergey Bartoş "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u və "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında 2007-ci il 2 may tarixli Sazişə əlavə və dəyişikliklər edilməsinə dair Protokol"u imzaladılar.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Belarus Respublikasının xarici işlər naziri Sergey Aleynik "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Belarus Respublikasının İdman və Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın inkişafına dair 2024-2025-ci illər üzrə Tədbirlər Planı"nı imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının antiinhisar tənzimləmə və ticarət naziri Aleksey Boqdanov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Belarus Respublikasının Antiinhisar Tənzimləmə və Ticarət Nazirliyi arasında rəqabət siyasəti, dövlət satınalmaları, istehlakçı hüquqlarının müdafiəsi və reklam fəaliyyəti sahələrində qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum"u imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Belarus Respublikasının "Milli İnvestisiya və Özəlləşdirmə Mərkəzi" Dövlət Müəssisəsinin direktoru Dmitri Krasovski "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Belarus Respublikasının İqtisadiyyat Nazirliyinin "İnvestisiya və Özəlləşdirmə Milli Agentliyi" Dövlət Müəssisəsi arasında Anlaşma Memorandumu"nu imzaladılar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Minsk Şəhər İcra Komitəsinin sədri Vladimir Kuxaryov "Bakı şəhəri (Azərbaycan Respublikası) ilə Minsk şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Memorandum"u imzaladılar.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov və Qomel Şəhər İcra Komitəsinin sədri Vladimir Privalov "Gəncə şəhəri (Azərbaycan Respublikası) ilə Qomel şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev və Qrodno şəhər İcra Komitəsinin sədri Andrey Xmel "Qəbələ şəhəri (Azərbaycan Respublikası) ilə Qrodno şəhəri (Belarus Respublikası) arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair Anlaşma Memorandumu"nu imzaladılar.

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mətbuata bəyanatlarla çıxış ediblər.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatla çıxış etdi.



### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli Aleksandr Qriqoryeviç.

Hörmətli qonaqlar.

Əziz dostlar.

Bu gün biz Azərbaycana dövlət səfəri ilə gəlmiş əziz qonağı, böyük dostumuz Aleksandr Qriqoryeviç Lukaşenkonu qəbul edirik. Aparılan danışıqlar - təkbətək və geniş tərkibdə görüşlər ölkələrimizin mehriban dostlar olduğunu bir daha əyani şəkildə nümayiş etdirir. Bu gün münasibətlərimizin son illərdə inkişafını müfəssəl şəkildə təhlil etdik və bu münasibətlərin dinamik inkişafını məmnuniyyətlə qeyd etdik, həmçinin daha da mühüm olanı - gələcəkdə qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirdik. Razılığa gəldik ki, yaxın vaxtlarda Minskdə keçiriləcək Hökumətlərarası Komissiyanın növbəti iclasına qədər müvafiq dövlət strukturlarına verilmiş tapşırıqlar müfəssəl şəkildə təhlil olunacaq və onların icra müddəti üzrə konkret addımlar, həmçinin qarşılıqlı iqtisadi-ticari əməkdaşlıq potensialını daha da artırmaq üçün həmin tapşırıqların verildiyi məsul şəxslər və strukturlar müəyyən ediləcək.

Mən məktub göndərmişəm, lakin bu gün bir daha Aleksandr Qriqoryeviçi noyabrda Bakıda keçiriləcək iqlim sammitində iştirak etməyə şəxsən dəvət etmişəm. Həmin vaxta qədər müvafiq tapşırıqlar verilib, biz onların yerinə yetirilməsi üzrə məruzələri dinləyəcəyik. Bu gün müzakirə etdiyimiz məsələlərin hamısı kifayət qədər konkret xarakter daşıyır. İlk növbədə söhbət sənaye kooperasiyasından, Belarusda, Azərbaycanda birgə istehsalın təşkili və artıq bir çox illər öncə yaradılmış birgə istehsal potensialının artırılmasından gedir. Bu, ilk növbədə maşınqayırmadır. Həmçinin hərbi-sənaye kompleksində, kənd təsərrüfatında, nəqliyyatda əlaqələrin inkişafı məsələləri, başqa sözlə desək, ölkələrimizin iqtisadiyyatının inkişafı üçün praktiki əhəmiyyət daşıyacaq məsələlər geniş şəkildə müzakirə olundu.

Belarus nümayəndə heyətinin üzvləri artıq dünəndən Bakıdadır və azərbaycanlı həmkarları ilə danışıqlar aparıblar. Bu, bir daha göstərir ki, hər iki tərəf Belarus Prezidentinin dövlət səfərinə məsuliyyətlə yanaşaraq, sonradan dövlət başçılarının təsdiqinə təqdim ediləcək bir çox məsələləri əvvəlcədən müzakirə edib və razılaşdırıblar. Zənnimcə, məhz əməkdaşlığın bu səmərəli forması daha düzgündür və konkret nəticəyə yönəlib. Beləliklə, əminəm ki, gələcəkdə, həm də çox uzaq olmayan gələcəkdə münasibətlərimizin yeni hüdudlarını, yeni müəssisələri, yeni iş yerlərini, həmçinin əməkdaşlığın yeni istiqamətlərini görəcəyik. Mən artıq bu barədə danışmışam, bir daha demək istəyirəm ki, Belarus şirkətlərini Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpasında fəal iştirak etməyə dəvət etmişəm. Hazırda gördüyümüz və həyata keçirəcəyimiz işlərin miqyası çox genişdir.

Demək olar ki, ərazini sıfırdan bərpa etmək lazım gəlir, müqayisə üçün deyim ki, Livanın bütün ərazisi, üstəgəl bütün bu ərazinin 50 faizi qədər sahəni. Bütün bunları, sadəcə, daşın daş üstündə qalmadığı ərazidə görüləcək işləri təsəvvür etmək üçün söylədim. İşğal illərində hər şey dağıdılıb. İnfrastrukturu, yaşayış sahələrini, ictimai binaları, tarixi abidələri və digərlərini sıfırdan bərpa etmək lazım gəlir. Ona görə də Belarus şirkətlərini bu prosesə fəal qoşulmağa dəvət edirik.

Bu gün həmçinin konkret tapşırıqlar verilib. Belarusun çox yaxşı şəhərsalma təcrübəsi, müasir texnologiyaları, - bu barədə də danışdıq, - aqroşəhərciklərin tikintisi təcrübəsi var. Əlbəttə, bizim birinci dərəcəli vəzifəmiz keçmiş məcburi köçkünləri tikiləcək doğma evlərinə mümkün qədər tez qaytarmaqdır. Həmçinin onları müvafiq işlə təmin etmək lazımdır ki, azad olunmuş ərazilərə qayıdanlar da yüksək əməkhaqqı olan işlərdə çalışsınlar.

Biz bu gün həmçinin regionumuzda MDB məkanında təhlükəsizliklə bağlı məsələləri müzakirə etdik. Mən Aleksandr Qriqoryeviçə Cənubi Qafqaz regionunda postmünaqişə şəraiti haqqında məlumat verdim. Təbii ki, dünya siyasətinin aktual məsələləri üzrə də fikir mübadiləsi apardıq. Dünyada vəziyyət sürətlə və bir qayda olaraq mənfi istiqamətdə dəyişir. Yeni münaqişələr, yeni qeyri-sabitlik ocaqları yaranır. Təəssüf ki, bir qayda olaraq mövcud münaqişələr öz həllini tapmır. Cənubi Qafqazda Azərbaycanın beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə, BMT-nin Nizamnaməsinə və bütün dünya ictimaiyyətinin bu gün tanıdığı beynəlxalq humanitar hüquqa tam uyğun olaraq hərbi-siyasi yolla həll etdiyi münaqişə istisna olmaqla.

Əlbəttə ki, diskussiyalar üçün mövzu olduqca çoxdur. Biz Aleksandr Qriqoryeviçlə artıq son 20 ildə fəal işləyirik. Bu illər ərzində müxtəlif şəraitlərdə həmişə dəyərlərimizə - xeyirxahlığa, ləyaqətə, münasibətlərdə dürüstlüyə və nəticəyə hədəflənməyə sadiqliyimizi qoruyub saxlamışıq. Düşünürəm ki, ölkələrimizin rəhbərləri arasında etimada əsaslanan münasibətlər təbii olaraq bütün digər dövlət qulluqçularına impuls verir ki, onlar həmçinin öz aralarında ünsiyyət saxlasınlar, çalışsınlar, dostluq etsinlər, öz ölkələrinin rifahı və ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi naminə fəaliyyət göstərsinlər. Zənnimcə, bu gün bu münasibətlərin dostluq xarakteri daşıması əyani şəkildə nümayiş etdirilir.

Aleksandr Qriqoryeviç, bir daha minnətdarlıq hissi ilə demək istəyirəm ki, Sizin səfərinizi dostluq və hörmət əlaməti kimi qəbul edirəm. Ötən illərdə biz bir neçə qarşılıqlı - rəsmi və işgüzar səfərlər etmişik. Amma dövlət səfəri həm forma, həm də məzmun etibarilə həmişə fərqlidir. Sizi salamlamağıma şadam. Sizə və dost, qardaş Belarus xalqına yeni uğurlar və qələbələr arzulayıram. Sağ olun.

❖ ❖ ❖

Sonra Belarus Prezidenti Aleksandr Lukaşenko bəyanatla çıxış etdi.

### Prezident Aleksandr Lukaşenkonun bəyanatı

- İlham Heydər oğlu, Belarus xalqının və mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə çox sağ olun. Biz bunu qiymətləndiririk.

Geniş tərkibdə danışıqlarımızın əvvəlində söylədim ki, Azərbaycan son illər böyük nailiyyətlər əldə edib. Hər şeydən əvvəl özünün əsas problemini - uzun müddət səhraya çevrilmiş torpaqların qaytarılmasını həll edib. İlham Heydər oğlu deyir ki, bu torpaqları dirçəltmək, hansısa yeniliklər etmək lazımdır. Amma orada vəziyyət hələ pisdir, dirçəlişdən əvvəl bir çox şeyləri təmizləmək lazımdır. Bu, az iş deyil. Çünki bu, keçmişin ağır fəsadlarıdır, amma torpaqlar qaytarılıb və onları dirçəltmək lazımdır. Bu, Azərbaycanın həll edəcəyi daha uzunmüddətli ağır problem və vəzifədir.

*Ardı 4-cü səh.*

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

## Prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər





*Əvvəli 3-cü səh.*

Mən hələ müharibədən əvvəl İlham Heydər oğlu ilə bu problemi müzakirə etdiyimiz vaxtları xatırlatdım. Həmin vaxt o mənə deyirdi ki, qarşıda insanları qaytarmağın lazım olacağı çox ağır dövr durur. Siz çox düzgün kurs götürmüsünüz. İnsanları qaytarmaq azdır, onları yaxşı, rahat evlərdə yerləşdirmək lazımdır, çünki bir çoxları artıq şəhərlərdə anadan olublar. Amma bu da azdır. Yeni iş yerləri yaratmaq lazımdır. Mən ilk dəfə belə bir həcm barədə eşitdim ki, bu, Livanın bütün ərazisi, üstəgəl, bütün bu ərazinin 50 faizi qədər sahədir. İlham Heydər oğlu, bu torpaqları dirçəltmək üçün hələ uşaqlar da çox iş görməli olacaqlar.

Mən bunu ona görə söylədim ki, biz sizə qardaş və çox dost ölkəyik, təkcə İlham Heydər oğlu ilə köhnə dostlar deyilik, bizim Heydər Əliyev ilə də yaxşı münasibətlərimiz var idi. Uzun müddət olmasa da, onunla çox səmimi şəkildə çalışırdıq. Mən hələ sovet dövründə bu insana böyük hörmət bəsləyirdim. İlham Heydər oğluna tez-tez deyirəm ki, təbiət nadir hallarda övlada atanın istedadını bəxş edir. Siz çox işlər görmüsünüz. Bu gün ona birbaşa dedim ki, siz cənnətdə yaşayırsınız. Sizin təbiətiniz cənnətdir. Torpaqlarınızı qaytarmağınız və onu dirçəltməyiniz əsrlərboyu, uzun illər yaddaşlarda qalacaq. Bütün bunları ona görə deyirəm ki, əgər həmin torpaqların dirçəldilməsi üzrə bu böyük prosesdə bizə yer tapılarsa, onda bu yükün altına girməyə hazırıq və bu, sizin üçün sərfəli olacaq. Məsuliyyətlə bildirirəm ki, biz bunu böyük məmnuniyyətlə və dünyada heç kimin edə bilməyəcəyi səviyyədə edəcəyik. Çünki Belarusun və Azərbaycanın qardaş xalqları arasında dərin hörmət və münasibətlər var. Azərbaycan Prezidentinin əvvəldə söylədiyi sözlərə diqqət yetirmənizi xahiş edirəm. Bizim irəlilədiyimiz və təxminən 400 milyon dollar əmtəə dövriyyəsinə çatdırdığımız bir yol xəritəmiz var. Razılığa gəlmişik ki, bu yol xəritəsi Hökumətlərarası Komissiyanın Minskdə keçiriləcək növbəti iclasında bugünkü razılaşmalar və nazirlərimizin burada iki gün ərzində çalışdıqları, hələ üzərində işləyəcəkləri məsələlər nəzərə alınmaqla aktuallaşdırılacaq. Bəzi məsələlər artıq köhnəlib, yeni problemlər meydana çıxır. Bütün bunlar həmin planda öz əksini tapacaq. Burada iqlim üzrə beynəlxalq konfrans keçirildikdə, çox güman ki, mən orada iştirak edəcəyəm, bunu planlaşdırıram. Biz İlham Heydər oğlu ilə daha məhdud tərkibdə və yenidən görüşəcəyik. Görüşdə Hökumətlərarası Komissiyamızın həmsədrləri bu xəritənin nədən ibarət olması, hansı işlərin görüldüyü barədə məruzə edəcəklər. Biz nazirlərin xəritəni tərtib etmələrini gözləməyəcəyik, bu işə yeni ildən başlayacağıq. Hansısa məsələlər üzrə belə də olacaq. Amma bir sıra məsələlər var ki, onları işləyib hazırlamaq deyil, sabahdan başlamaq lazımdır. Biz kompleks mineral gübrələrin birgə istehsalı üzrə razılaşdıq. Burada gecikməyin mənası yoxdur. Kompleks qarışıq gübrələr istehsal etmək və Azərbaycanın hər hansı gübrə ilə bağlı xahiş etməməsi üçün daxili bazardan başlamaq, onu burada istehsal etmək lazımdır. Bizim texnologiyalarımız var, bunu həyata keçirməyə və bütün regionu təmin etməyə hazırıq. Region isə çox böyükdür - İran, Pakistan, Hindistan. Onlar böyük miqdarda mineral gübrələr tələb edir. Biz onlara kompleks şəkildə gübrə təklif edəcəyik. Ona görə də məsələ bu cürdür - artıq həll etməyə başlamaq və noyabra qədər irəli getmək lazımdır. Qarşıya bu cür vəzifələr qoyulub.

Biz bütün məsələləri müzakirə etdik. Bağlı mövzular olmadı. Bu, təkcə texnika və MT3 deyil, MAZ texnikasının birgə istehsalı, yanğınsöndürən texnikasının birgə istehsalı, lift avadanlığının, xüsusən sovet binalarında dəyişdirilməli olan köhnə liftlərin hissələrinin birgə istehsalıdır. Biz azərbaycanlı dostlarımızla bu texnikanı birgə istehsal etməyə hazırıq. Prezident xahiş etdi ki, biz dəmir yolu hərəkət texnikasının - həm platformaların, həm də çənlərin istehsalına diqqət yetirək. Bizim yaxşı təcrübəmiz var. Bunları istehsal edən şirkətlərimiz, zavodlarımız mövcuddur. Bu texnikanın burada birgə istehsalını təşkil etməyə hazırıq. Kənd təsərrüfatında buraya cins mal-qara, hər şeydən əvvəl, süd məhsullarına, iribuynuzlu mal-qara ətinə tələbatı tam təmin etmək üçün tədarüklə bağlı böyük proqramlarımız var. Biz bu mal-qaranı sizə tədarük edəcəyik. Bundan başqa, Sizin azad etdiyiniz ərazilərdə xüsusən aqrar torpaqlarda Belarus təcrübəsi üzrə aqroşəhərciklər və bütün infrastrukturu yaratmağa, iş yerləri açmağa, yəni komplekslər tikməyə, həmçinin fermer təsərrüfatları yaratmağa hazırıq. Venesueladan başlayaraq, bizim belə bir təcrübəmiz var. Amma bura Venesuela deyil, yaxındır, eyni dildə danışırıq, bir-birimizi başa düşürük. Ona görə də həmin torpaqlarda sizin üçün, ilk növbədə iş yerləri olan aqroşəhərcik tikəcəyik. Baxarsınız, sizə uyğun olarsa, biz onların sayını artırarıq. Belə ki, bu gün Prezidentə bizim böyük sərvətimizin - meşələrimizin olduğunu söylədim. Bizdə o qədər taxta-şalban var ki... Bu, Azərbaycanda qıtdır. Bu məsələdə təbiət bizi mükafatlandırıb. Biz orada sizin üçün evlər yaratmağa hazırıq. Belarusda taxta evlər təcrübəsi geniş yayılıb. Evi hissələrlə vaqonlarda gətiririk, bir həftə ərzində bünövrəsi üzərində tikib qurtarırıq. Biz Belarusda bu cür edirik. Əgər sizə uyğun gələrsə, biz tədarük edə və sizin dirçəldilən



ərazilərdə belə evlər tikə bilərik. Bir sözlə, çox böyük planımız var. Biz işləməyə davam edəcəyik.

Əczaçılığa, dərmanlara gəldikdə isə biz lap elə sabahdan sizin çox ehtiyac duyduğunuz dərmanları tədarük etməyə və burada Belarus texnologiyası əsasında dərman və preparatlar üçün birgə istehsalat qurmağa hazırıq. Bu da çox böyük proqramdır və Azərbaycanda heç kimə işləməyə mane olmur. Biz burada heç kimlə ziddiyyət yaratmırıq, hətta heç kimlə rəqabət də aparmırıq. Halbuki rəqabət olmalıdır.

Bir sözlə, çox iş görə bilərik. Həm humanitar sahədə, həm də idmanda. Siz ölkədə MDB Oyunlarını qəbul edəcəksiniz. Biz də qoşulacağıq, həm də axı bu Oyunları biz Sizinlə birgə xilas etmişik. Əgər Belarus və Azərbaycan olmasaydı, yəqin ki, bu Oyunlar artıq süquta uğrayardı. Biz onu xilas etdik. Ötən Oyunlar bizim ölkədə keçirildi, bu dəfə isə estafeti siz bizdən qəbul etdiniz. Bir vaxtlar Avropa Oyunlarının estafetini də biz sizdən qəbul etmişdik. Ona görə də təcrübəmiz böyükdür. Sizinlə idman, səhiyyə, təhsil, o cümlədən əvvəllər TPM adlandırdığımız texniki peşə məktəblərimizin təcrübəsi sahəsində əməkdaşlıq edəcəyik. Biz burada texniki peşə təhsili verən obyektlərin təşəkkül tapmasına və yeni əsaslarla yaradılmasına kömək etməyə hazırıq. Bizim bu sahədə təcrübəmiz böyükdür. Həm də biz onları sovet vaxtından bəri qoruyub saxlamışıq. Bu gün isə peşə ixtisaslarına həm bizim ölkədə, həm Rusiyada, həm digər MBD ölkələrində, həm də Azərbaycanda böyük tələbat var. İlham Heydər oğlu bu işlə məşğul olmağımızı bizdən xahiş edib. Biz də sizin mütəxəssislərlə birlikdə bu işi mütləq birlikdə həyata keçirəcəyik.

Bəli, biz regionlarımızda təhlükəsizlik məsələlərini müzakirə etmişik. İlham Heydər oğlu burada baş verənlərlə bağlı mənə ətraflı məlumat verdi, qeyri-sabit regiondur, Tanrıya şükür olsun ki, burada Azərbaycanın timsalında olduqca güclü, normal lider ölkə mövcuddur. Siz Qafqaz regionunu nəzarətdə saxlamağa qadirsiniz. Bu, artıq təkcə Azərbaycana görə məsuliyyət daşımaq demək deyil, Siz artıq bütün Qafqazdakı vəziyyətə cavabdehsiniz, biz - Qafqazda yaşamayan xalqlar buna çox böyük ümid bəsləyirik. Ona görə də bu, sizin üçün əlavə yük deməkdir, halbuki öz problemləriniz də var, lakin yenə də nə etmək olar. Zaman Sizi seçib, bizdə belə deyirlər və Siz lider olaraq Qafqaz regionuna görə məsuliyyət daşıyırsınız.

Mən bizim regionda Ukraynadakı münaqişə ilə bağlı nə baş verdiyi barədə məlumat verdim. Həm də ətraflı şəkildə. Bununla bağlı qiymətləndirmələrimiz, baxış bucaqlarımız həm yaxındır, həm də üst-üstə düşür. Bizim mövqeyimizi Siz bilirsiniz. Bizə indi orada heç də asan deyil, ancaq biz orada sülh olması üçün əlimizdən gələni edəcəyik. Biz bu istiqamətdə hərəkət edəcəyik. Bu məsələdə Azərbaycanın müharibədən sonrakı quruculuqla, sülh quruculuğu ilə bağlı təcrübəsi bizim region üçün də çox vacibdir. Biz bir-birimizlə etimad əsasında söhbət edirik. Bizim nə şəxsi, nə də dövlətlərarası planda gizli sirrimiz yoxdur. Bu isə ölkələrimizin nazirlərinin də artıq bu notlar üzərində danışmağa başlamasına və danışmasına xidmət edir. Buna görə də mən şəxsən burada səfərdə olan hökumət nümayəndələrimizdən bu ölkədən azərbaycanlı tərəfdaşları ilə quracaqları əməkdaşlıq proqramı ilə ayrılacaqlarını gözləyirəm. Xoşagələn hal odur ki, ticarət dövriyyəmiz 400 milyona yaxındır və bu gün artıq azərbaycanlı nazirlərin təşəbbüsü ilə bu rəqəmi 1 milyarda çatdırmaq niyyətindəyik. Bu, çox böyük addım olacaq. Ola bilsin ki, biz bunu iki mərhələdə həyata keçirəcəyik. Əvvəlcə ticarət dövriyyəmizin 500 milyona çatdırılmasına, il ərzində isə digər yarısını əldə etməyə müvəffəq olarıq. Müəyyən vaxtdan sonra biz bu rəqəmi 1 milyarda çatdıracağıq. Bunun üçün əlimizdən gələni edəcəyik. Əgər məsələn, Azərbaycanda da istehsal edilən məhsulu dost olmayan ölkələrdən satın alırıqsa biz heç nəyə baxmayaraq, dərhal ondan imtina etməli və buradan almalıyıq. Eynilə, Azərbaycan da bizə qarşı bu cür addım atacaq. İlham Heydər oğlu, mən Sizi Belarusa dəvət edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Prezident Aleksandr Lukaşenko:** Noyabrda Sizin ölkəyə gələcəyəm, müzakirə edərik, Siz də Belarusa səfər edəcəksiniz. Bir-birimizin ölkəsinə tez-tez səfər etməyimizə baxmayaraq, danışdığımız kimi, Sizin bizim ölkəyə səfərinizi hazırlayacaq Baş nazirinizi respublikamızda görməyə şad olacağıq. Ən başlıcası isə, dost kimi və mənim şəxsən dostum kimi Sizə və qardaş Azərbaycan xalqına bu ağır dirçəliş dövrünü itkilərsiz başa vurmağı və qarşınıza qoyduğunuz planları yerinə yetirməyi arzu edirəm. Əminəm ki, Siz bunu edəcəksiniz, həm də istərdim ki, tez edəsiniz, Siz bunu bacarırsınız. Siz bütün dünyaya göstərdiniz ki, Sizdən əvvəlki nəsillərin dövründə həll olunmayan ən mürəkkəb məsələləri həll etməyi bacarırsınız. Sizə xoşbəxtlik və uğur arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ olun.

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

## Azərbaycan və Belarus prezidentləri "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar

**Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Bakı Ekspo Mərkəzində XVII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" və XXIX Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" sərgiləri ilə tanış olublar.**





AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri Məcnun Məmmədov dövlət başçılarına sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, Bakı Ekspo Mərkəzinin bütün dörd zalını və açıq sahəsini əhatə edən sərgilərə ümumilikdə 38 ölkədən 500-ə yaxın şirkət qatılıb. Regionun ən böyük kənd təsərrüfatı sərgisi olan "Caspian Agro" kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemləri, qablaşdırma, bu sahədə innovasiya texnologiyaları, heyvandarlıq, quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, gübrə, həmçinin meyvə və tərəvəzlərin yetişdirilməsi sahələrini əhatə edir. "InterFood Azerbaijan" sərgisində isə dondurulmuş qidalar və yarımfabrikatlar, qənnadı və un məhsulları, konservləşdirilmiş qidalar, ət və süd məmulatları, meyvə-tərəvəzlər, yağ məhsulları, şirələr, çay, sağlam qidalar, eləcə də meyvə-tərəvəz emalı üçün avadanlıqlar, paketlər və bir sıra digər məhsullar təqdim olunur.

Azərbaycan və Belarus prezidentləri sərgilərlə tanış oldular.

Belarus Respublikasının Milli Qrupunun qida məhsulları stendləri ilə tanış olan dövlət başçılarının diqqətinə çatdırıldı ki, stendlərdə 40-a yaxın şirkət, o cümlədən "Gomselmash", "Brestmiasomolprom" zavodları, Slutsk pendir fabriki, Minsk süd kombinatı, Qrodno ət-qablaşdırma, Volkovysk və Mogilev ət emalı zavodları, "Belvetfarma", "Belqospişçeprom", "Belinterexpo", "Bresteysky pekar", "Bremor", "Brestmeat", "Brestmiasomolprom", "Slodych", "Spartak", "Algon", "Grodno azot" və digər şirkətlər öz məhsullarını təqdim edir.

Kənd təsərrüfatı naziri **Məcnun Məmmədov:** Bu il burada Belarusun ən böyük milli pavilyonu təmsil olunur.

Belarus Ticarət və Sənaye Palatasının sədri **Mixail Myatlikov:** Hər vaxtınız xeyir. İcazə verin, sərgidəki Belarus ekspozisiyasını təqdim edim. Bu il sərgidə kənd təsərrüfatı texnikasından tutmuş ət, süd, neft-kimya, qənnadı sənayesinə qədər olmaqla 40 müəssisə iştirak edir. İcazənizlə, sərgidəki pavilyonumuzla tanışlığa məhz bu ekspozisiyadan başlayaq.

Belarusun "Slodıç" qənnadı fabrikinin baş direktoru **Aleksandr Neçay:** Hər vaxtınız xeyir. Bu gün biz Belarus Dövlət Qida Sənayesi Konsernini təmsil edirik. Sərgidə bizim sahəyə aid 10 müəssisə, o cümlədən qənnadı sahəsinə aid 4 müəssisə iştirak edir. Buraya maraq doğuran bir sıra yeni məhsullarımızı gətirmişik. Aleksandr Qriqoryeviç, Sizin göstərişinizə əsasən tərkibində quru süd olan məmulatlar istehsal edilib və bazara çıxarılıb. Bu məhsullar peçenyelərdir. Həmçinin qənnadı fabriki yeni növ məhsullar - karamel, jeleli konfetlər təqdim edir. Bu məhsullar uşaqlar tərəfindən çox sevilir.

Həmçinin sərgidə bizim qənnadı sənayemizin ən iri istehsalçılarından biri olan "Kommunarka" da iştirak edir. O, şokolad istehsalı ilə məşğul olur. Biz bu sərgiyə şokoladlı batonların yeni seriyasını gətirmişik, həmçinin ənənəvi məhsullarımızı da təqdim etmişik. Bundan başqa, bizim "Spartak" qənnadı fabrikimiz də var. O, qənnadı sənayemizdə böyüklüyünə görə ikincidir və sərgidə yenə də tərkibində şəkər olmayan məhsullarla çıxış edir. Biz, prinsip etibarilə, əsasən şəkərsiz məhsullara üstünlük veririk.

**Prezident Aleksandr Lukaşenko:** Bizim iki qənnadı şirkətimiz var. "Spartak" və "Kommunarka" əsas şirkətlərdir, digərləri də var.

**Aleksandr Neçay:** Biz həm də tərkibində şəkər olmayan məhsul istehsal etmişik. Bu məmulat peçenyedir. Bu məhsul zülalı yaxşı həzm etməyən insanlar üçün nəzərdə tutulub. "Spartak" şirkəti də əsasən tərkibində şəkər olmayan məhsullar seriyası hazırlamağa başlayıb. Bu məhsullar müxtəlifdir, onların arasında həm vafli, həm konfetlər, həm şokoladlar, həm də digər məhsullar var.

**Məcnun Məmmədov:** Cənab Prezident, Sizə şərabçılıq və bal istehsalı üzrə ixtisaslaşmış iki ailə biznesini təqdim etmək istərdim. Onlar balı Yaponiyaya ixrac ediblər.

**Prezident İlham Əliyev:** Yaponiyaya? Afərin. Hansı rayondan?

**Sərginin iştirakçısı:** Saatlı rayonu, bizim kiçik ailə təsərrüfatımız var.

**Prezident İlham Əliyev:** Afərin.

**Prezident Aleksandr Lukaşenko:** Bunlar kiçik təsərrüfatlardır, xüsusilə bal istehsal edirlər. Afərin.

**Mixail Myatlikov:** Bazara çıxarıblar, artıq bərk pendir növünü dequstasiya üçün özləri ilə gətiriblər.

**Prezident İlham Əliyev:** Məhsullar artıq burada satılır?

**Mixail Myatlikov:** Bəli. Məhsulların yeni seriyası da məhz bərk pendir növlərindən ibarətdir. "Belneftexim" konserni, gübrələr, yağlar, qablaşdırma materialları təqdim olunur. Bu, plastik şüşələr üçün preformaların xammalıdır.

**Prezident Aleksandr Lukaşenko:** Daha doğrusu, biz neft emalı işini genişləndiririk. Neft emalı indi çox böyük perspektivə malikdir.

**Prezident İlham Əliyev:** Sizin iki zavodunuz var.

**Prezident Aleksandr Lukaşenko:** Bəli.



**Mixail Myatlikov:** "Turovski" süd kombinatı bazarda təmsil olunur. Lakin yeniləri də artıq fəaliyyətə başlayıb.

**Prezident Aleksandr Lukaşenko:** Bunlar bizim ən nəhəng müəssisələrimizdir. Ən böyük şirkət sayılır. "MTZ", "Qomselmaş" - traktorlar və avtomobillər istehsal edir. Prezident dəfələrlə "MAZ" barədə danışıb.

Minsk avtomobil zavodunun baş direktoru **Valeri İvankoviç:** Bizdə xeyli istehsal xətti mövcuddur. Kompleks tullantıların yığılması üçün maşınlarımız var. Hesab edirəm ki, onlara böyük tələbat var. Gəncə avtomobil zavodunda biz avtomobillərin müştərək yığılması müəssisəsini yarada bilərik. Biz şassi tədarük edərik, iş yerini siz təmin edərsiniz. Sizin mütəxəssislər qurğuların yığılmasını təmin edərlər, təcrübə və biliklərdən isə birgə istifadə olunar.

**Prezident Aleksandr Lukaşenko:** Prezident bu təklifi dəstəkləyir.

**Valeri İvankoviç:** Buna görə təşəkkür edirəm. Çox sağ olun.

**Mixail Myatlikov:** Milli musiqi alətində musiqili dəstək.

**Prezident Aleksandr Lukaşenko:** Simbal. Çox gözəldir.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Mixail Myatlikov:** Bizim müəssisəmiz məşhurdur - "Santa Bremor" adlanır. Yelena, buyurun, söz sizindir.

**Prezident Aleksandr Lukaşenko:** Yaxşı şirkətdir.

"Savuşkin produkt" müəssisənin baş direktorunun müavini **Yelena Babkina:** Xoş gördük, "Bremor" şirkəti bu sərgidə 2007-ci ildən təmsil olunur. Çoxprofilli şirkət olmasına baxmayaraq, burada balıq və dəniz məhsullarını təqdim edir. Başa düşürəm ki, Azərbaycanı dəniz məhsulları ilə təəccübləndirmək çətindir. Lakin biz çalışırıq ki, tələbatın daha çox olduğu dəniz məhsullarının istehsalı ilə məşğul olaq.

**Prezident Aleksandr Lukaşenko:** Sadəcə, burada bu texnologiyalar üzrə işə başlamaq lazımdır. Sizin texnologiyalarınız yaxşıdır.

**Yelena Babkina:** Bəli, əlbəttə. Ticarət distribütorumuz da var. Şirkətimiz 2007-ci ildən bəri eyni distribütorla işləyir. Biz ticarət şəbəkələrində təmsil olunuruq, inkişaf edirik. Ötən il biz hətta 1 milyon dollar dəyərində balıq məhsulları satmağa nail olmuşuq. İki-üç ildən sonra ticarət dövriyyəmizin həcmini iki dəfə artırmağı planlaşdırırıq.

Ötən il "Savuşkin produkt" şirkəti 4 milyon 600 min dollar həcmində süd məhsulları tədarük edib. Bu il isə ilk rübün nəticələrinə əsasən, inkişaf sürətimiz əhəmiyyətli dərəcədə artıb. Biz sarı pendirlərin istehsal həcmini genişləndirməyi, təzə pendirin istehsalını planlaşdırırıq. Bu Mozzarella pendiridir. Bizdə geniş çeşiddə pendir növləri var. Azərbaycanda istehsal edilən təzə pendirdən, daha doğrusu, süzmə pendirdən tutmuş, sarı pendirə, o cümlədən uzun müddət ərzində hazır vəziyyətə gələn pendirə qədər hazırlayırıq.

**Prezident İlham Əliyev:** Biz sizin məhsulları yaxşı tanıyırıq.

**Yelena Babkina:** Bəli, "Savuşkin" və "Brest-Litovsk" ticarət markalarımız var. Bu ilin ilk rübünün nəticələrinə əsasən, biz istehsalı əhəmiyyətli dərəcədə artırmışıq. Ötən illə müqayisədə bu ilin birinci rübündə ticarət dövriyyəmiz 70 faiz artıb. Buna görə də hesab edirəm ki, heç də pis işləmirik. Həm də xoşagələn haldır ki, insanlar sərgiyə gələrək bizim məhsulların dadına baxırlar və belə deyirlər: "Biz sizin məhsulu alırıq". Bu, möhtəşəmdir.

**Mixail Myatlikov:** Qrodnensk vilayəti "Qrodnensk" ət kombinatı ilə təmsil olunur.

**Kombinatın təmsilçisi Veronika Romanoviç:** Biz 2016-cı ildən Azərbaycan Respublikasına hazır kolbasa məhsullarının tədarükünü həyata keçiririk. Bu il isə halal dana əti üzrə satış bazarımızı açmışıq.

**Prezident Aleksandr Lukaşenko:** Sovet İttifaqında ən yaxşı vilayət hesab olunurdu. Onlar indi də öz fəaliyyətlərini davam etdirirlər.

**Prezident İlham Əliyev:** Bunlar isə steyk məmulatlarıdır, elədirmi?

**Veronika Romanoviç:** Ev üsulu ilə hazırlanır. Bu, bizim yeni məhsulumuzdur. Ümid edirəm ki, bu məhsulları tezliklə Sizin bazara da tədarük edəcəyik. Sağ olun.

**Prezident İlham Əliyev:** Uğurlar arzu edirəm.

❖ ❖ ❖

Yerli istehsal və ixracat, ailə təsərrüfatı stendi ilə tanışlıq zamanı bildirildi ki, bu stenddə "FA Valley" və "Bal10" şirkətlərinin məhsulları təqdim edilir. "FA Valley" şirkətinin istehsal etdiyi şərablar 100 faiz "Sangiovese" şərablarıdır. Şərabların hazırlanması prosesində yalnız yerli mayalardan istifadə olunur. Məhsullar başqa xarici ölkələrdə də təqdim edilir. "Bal10" şirkəti isə Azərbaycanda yerli sahibkar tərəfindən Aran zonasında yetişən biyan bitkisindən hazırlanan bal məhsulları istehsal edir. Şirkətin məhsulları Qətərdə və Malayziyada təqdim olunur.

Sərgidə yer alan şirkətlərdən biri də Azərbaycanda fəaliyyət göstərən "MAN-AGRO" MMC-dir. Şirkət kənd təsərrüfatı sahəsində bir neçə istiqamətdə yerli və xarici bazarlara çıxmağı bacarıb. Ümumilikdə 360 hektara yaxın müxtəlif çeşidli tumlu və çəyirdəkli meyvə bağlarına sahib olan şirkət həmin meyvələrin saxlanmasını və satışını, eləcə də meyvə tinglərinin yetişdirilməsini, inkişafını və yeni sortların alınmasını, ağaclar üçün gübrə və digər dərmanların satışını həyata keçirir. Fəaliyyəti ölkəmizin bütün ərazisini əhatə edən şirkətin ümumilikdə 10 min ton tutuma malik soyuducu anbarları var. Şirkətin ixrac istiqamətləri Rusiya, Belarus, BƏƏ, Qətər və Maldiv adalarıdır.

"Absheron Olive Garden" MMC 700 hektarlıq zeytun bağları ilə yanaşı, həm də ölkəmizdə, eləcə də bütövlükdə regionda ən böyük və müasir zeytun yağı emalı və süfrəlik zeytun məhsulları istehsalı zavodlarından ibarətdir. İllik 35 min ton xam zeytun qəbul etmək gücündə olan zavodda soyuq sıxım üsulu ilə "Extra Virgin" zeytun yağları istehsal edilir. Süfrəlik zeytun istehsalı zavodunda isə yaşıl, qara, çəyirdəkli, çəyirdəksiz, dilimlənmiş, içlikli və s. növ süfrəlik zeytun məhsullarının istehsalı üçün şərait mövcuddur. İstehsal olunan məhsullar daxili bazara çıxarılmaqla yanaşı, Rusiya, İsrail, Kanada, Türkiyə və İspaniyaya ixrac edilir.

Dövlət başçılarına Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin stendləri haqqında da ətraflı məlumat verildi. Bildirildi ki, ölkəmizdə həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının inkişafını gücləndirir. Bu məqsədlə dövlət tərəfindən əhəmiyyətli dəstək tədbirləri həyata keçirilir. Bu il ölkəmizin COP29-a evsahibliyi etməsi, Prezident İlham Əliyev tərəfindən 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması ilə əlaqədar sərgilərdə ətraf mühitin qorunması, "yaşıl enerji", resurslardan səmərəli istifadə və orqanik istehsal prinsiplərinə əsaslanan müasir kənd təsərrüfatı istehsal vasitələrinin nümayişinə daha çox yer ayrılıb. Kənd Təsərrüfatı Nazirliyi iqlim dəyişikliyinin təsirlərini minimuma endirmək və iqlim risklərinin qiymətləndirilməsi istiqamətində fəal təşəbbüslər irəli sürür.

2014-cü ildə fəaliyyətə başlayan "Agro Dairy" MMC Azərbaycanda kənd təsərrüfatı sahəsində qabaqcıl şirkətlərdəndir. Şirkətin məqsədi müasir texnologiyaların, innovativ həllərin tətbiqi ilə Azərbaycanın kənd təsərrüfatı sektorunda köklü dəyişikliklər etməkdir. Şirkət əsasən buğda, arpa və qarğıdalı kimi dənli bitkilərin becərilməsini, həmçinin yonca və şəkər çuğundurunun yetişdirilməsini həyata keçirir.

Sonra Azərbaycan və Belarus prezidentləri Bakı Ekspo Mərkəzinin açıq sahəsindəki stendlərlə tanış oldular.

Məlumat verildi ki, "Gəncə avtomobil zavodu" İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KamAZ markalı yük avtomobilləri, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar, digər texnika və avadanlıqlar istehsal edir.

Belarus milli stendinin açıq sahədəki pavilyonunda iki şirkət - "Gomselmash" və Minsk avtomobil zavodu (MAZ) təmsil olunur. MAZ Şərqi Avropada sərnişin, xüsusi, kommunal və qoşqu avtomobillərinin istehsalı üzrə aparıcı müəssisədir. Ən böyük kənd təsərrüfatı texnikası istehsalçılarından olan "Gomselmash"ın kombaynları bir sıra ölkələrə ixrac olunur.

Azərbaycanın sərgidə təmsil olunan "Agrosystems" şirkəti aqrobiznes nümayəndələri üçün innovativ həll yolları təqdim edir. Ölkəmizdə istehsal edilən "AGROMAX 10 000 TUN" hidrosoyutma aparatı keyfiyyəti, yüksək soyutma gücü, münasib qiyməti və aşağı enerji sərfiyyatına görə dünya bazarında digər nümunələrdən fərqlənir. Soyutma gücü saatda 10 ton təşkil edən bu texnologiya sayəsində məhsulların ömrü üç dəfə artır. Meyvə və tərəvəzlərin yığılması üçün nəzərdə tutulmuş hidravlik "AGROLAF-4000" platforması 3,5 metr hündürlüyə qədər qalxır. Bu platforma 8 nəfərin iş prosesində səmərəliliyini və rahatlığını təmin etməyə imkan verir. Zədələnmədən fındıq məhsulunu toplamaq üçün yaradılmış innovativ qurğu isə fındıq yığımı prosesini daha səmərəli və sürətlə həyata keçirmək imkanı yaradır.

Qeyd edək ki, mayın 17-dək davam edəcək sərgilərin təqdimat zonasında Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Beynəlxalq Aqrar İnnovasiyalar Forumu təşkil olunacaq. Həmçinin bu il ilk dəfə olaraq, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "GreenAgroHack" hakaton yarışması da keçiriləcək.

◆ Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri

# Etimada, qarşılıqlı hörmətə, dostluğa əsaslanan KREATİV TƏRƏFDAŞLIQ

## Ali qonağın şərəfinə dövlət ziyafəti verilib





Mayın 16-da Bakıda, "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun şərəfinə dövlət ziyafəti verilib. AZƏRTAC xəbər verir ki, ziyafətdə Azərbaycan və Belarus musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

## Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



Azərbaycanda dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

AZƏRTAC xəbər verir ki, Belarus Prezidenti Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Şəhidlərin xatirəsinə ehtiram

**Azərbaycan Respublikasında dövlət səfərində olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko mayın 16-da Şəhidlər xiyabanını ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, Prezident Aleksandr Lukaşenko Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

## Belaruslu nazirlərlə standartlaşdırma sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Belarusun antiinhisar tənzimlənməsi və ticarət naziri Aleksey Boqdanov və sənaye naziri Aleksandr Roqojniklə görüşüb.**



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycanla Belarus arasında iqtisadi əlaqələrin möhkəmlənməsindən məmnunluq ifadə edilib və iqtisadi gündəlikdəki məsələlərin reallaşdırılması üçün geniş perspektivlərin olduğu qeyd edilib, Azərbaycanda həyata keçirilən antiinhisaryönümlü islahatlar barədə məlumat verilib.

Tərəflər həmçinin iki ölkə arasında ticarətin genişləndirilməsi, sənaye, istehsalın lokallaşdırılması, standartlaşdırma sahəsində əməkdaşlıq imkanlarını nəzərdən keçiriblər.

## Heydər Əliyev Fondu əməkdaşlarının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Heydər Əliyev Fondunun 20 illiyi münasibətilə **qərara alıram:**

Azərbaycanın ictimai və mədəni həyatında səmərəli fəaliyyətlərinə görə Heydər Əliyev Fondunun aşağıdakı əməkdaşları təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**
Əliyeva Afət Əlixan qızı
Əliyeva Gülşən Şəfa qızı

**"Tərəqqi" medalı ilə**
Abdullayev Məhəmməd İzzət oğlu
Aslanov Ceyhun Xeyrulla oğlu
Ələkbərov Rüfət Nazim oğlu
Əliyeva Ülviyyə Kamal qızı
Həsənova Ayan Hümmət qızı
Kərimov Rəşad Əziz oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 258** QƏRAR **Bakı şəhəri, 16 may 2024-cü il**

### Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına və Gəncə Dövlət Dram Teatrına “milli” statusunun verilməsi haqqında

"Teatr və teatr fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 529 nömrəli Fərmanının 2.1-ci bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrına və Gəncə Dövlət Dram Teatrına "milli" statusu verilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti mayın 15-də İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cenevrə Beynəlxalq Hava Limanında nümayəndə heyətini Azərbaycanın İsveçrədəki səfiri Fuad İsgəndərov, BMT-nin Cenevrə bölməsində və digər beynəlxalq təşkilatlar yanında Azərbaycanın daimi nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər qarşılayıblar. Səfər çərçivəsində Milli Məclisin spikeri Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında iştirak edəcək, Qadın Parlament Sədrlərinin Sammitinə hazırlıq məqsədilə qadın parlament sədrləri ilə görüşəcək.

Nümayəndə heyətinə deputatlar Elnur Allahverdiyev, Soltan Məmmədov və digər rəsmi şəxslər daxildirlər.

*"Azərbaycan"*



# Milli Məclisin Sədri Cenevrədə Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclasında iştirak edib




**Mayın 16-da Parlamentlərarası İttifaqın İsveçrə Konfederasiyasının Cenevrə şəhərində yerləşən mənzil-qərargahında Parlament Sədrlərinin 6-cı Dünya Konfransının Təşkilat Komitəsinin 1-ci iclası öz işinə başlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak və çıxış edib.

İclası Parlamentlərarası İttifaqın prezidenti Tulia Akson açaraq parlament sədrlərini təqdim edib.

Sonra İttifaqın Baş katibi Martin Çunqonq iclasın gündəliyi və müzakirə olunacaq məsələlər barədə məlumat verib.

Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova çıxış edərək, Parlament Sədrlərinin 6-cı Dünya Konfransının təşkili ilə bağlı öz fikirlərini bildirib. O deyib ki, bundan əvvəl keçirilmiş 5 konfransda beynəlxalq əməkdaşlığın parlament ölçüsünün gücləndirilməsi əsas müzakirə mövzularından biri olub. Bu gün parlament diplomatiyası və əməkdaşlığı əvvəlki illərlə müqayisədə öz miqyasını genişləndirib. Parlamentlərimizin həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında əməkdaşlıq etdiyini və yeni mexanizmlər yaratdığını bildirən spiker Sahibə Qafarova bu mənada Parlamentlərarası İttifaqın parlamentlərimiz üçün olduqca mühüm və birləşdirici platforma olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, bizim ümumi baxışlarımız, məqsədlərimiz, hədəflərimiz bu təşkilatda əks olunub.

Parlamentlərarası İttifaqın xüsusilə BMT ilə əməkdaşlığının hazırda parlament əməkdaşlığının nə qədər əhəmiyyətli səviyyəyə gəlib çatdığının bariz göstəricisi olduğunu deyən Milli Məclisin Sədri inamını ifadə edib ki, növbəti konfransda BMT ilə Parlamentlərarası İttifaq arasında praktiki əməkdaşlığın necə gücləndiriləcəyi ilə bağlı məsələlər nəzərdən keçiriləcək. O vurğulayıb ki, bu çərçivədə biz əməkdaşlığın daha sistemli, institusional və praktiki olmasını diqqətə almalıyıq. Bu, təbii ki, ümumi çağırışlarla mübarizədə parlamentlərin iştirak səviyyəsini artıracaq.

Çıxışında Birləşmiş Millətlər Təşkilatında islahatların aparılmasının vacibliyini ifadə edən spiker Sahibə Qafarova deyib ki, dünyamızın üzləşdiyi çağırışları nəzərə alsaq, çoxtərəfli mexanizmlər birgə səylərin, həllərin irəli sürülməsində mühüm rol oynayır. Lakin biz hamımız etiraf edirik ki, bu mexanizmlər, həmçinin çoxtərəfli sistem daha güclü, daha effektiv və inklüziv olmalıdır. O, təəssüflə qeyd edib ki, bugünkü vəziyyət tələblərimizə tam cavab vermir. Spikerin sözlərinə görə, ümumi konsensus var ki, çoxtərəfli sistemin əsasında dayanan BMT-nin, o cümlədən onun Təhlükəsizlik Şurasının effektivliyinin artırılması üçün islahatlar aparılmalıdır. Təbii ki, bu islahatların necə olması haqqında çoxlu müzakirələr var, amma biz hələ də icra oluna biləcək real həlləri görmürük. Milli Məclisin Sədri bu mənada Parlamentlərarası İttifaqın BMT-də islahatların aparılmasına dair yeni fikirlər, yeni təkliflər hazırlamasını və bu təkliflərin gələcək iş prosesində nəzərə alınmasını təklif edib. O deyib ki, bu təkliflər həmin prosesdə parlamentlərin töhfəsini təmin edəcəkdir.

Təşkilat Komitəsinin iclası tədbirdə iştirak edən digər parlament sədrlərinin çıxışları ilə davam edib.

*"Azərbaycan"*

# Moskvada "Qelikon-opera"nın səhnəsində "Azərbaycan və Rusiya: dostluğun tərənnümü" adlı konsert olub





**Moskvadakı "Qelikon-opera"nın səhnəsində "Azərbaycan və Rusiya: dostluğun tərənnümü" adlı konsert olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Rusiyadakı səfirliyinin dəstəyi ilə Heydər Əliyev Fondunun təşkil etdiyi konsertdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Rusiya ictimaiyyətinin nümayəndələri, tanınmış mədəniyyət xadimləri, Azərbaycan diasporunun görkəmli təmsilçiləri iştirak ediblər.

Tədbiri açan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya, "Qelikon-opera"nın rəhbərliyinə konsertin təşkilinə görə təşəkkürünü bildirib.

Səfir deyib: "Bu yaxınlarda Bakıda 110 ölkənin iştirakı ilə ümumdünya forumu keçirilib. Rusiya Federasiyası ən böyük və yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunurdu. Bizim çoxlu planlarımız, çox yaxşı ideyalarımız var və əminəm ki, onlar həyata keçiriləcək".

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy bu yaxınlarda Moskvada Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin görüşünü xatırladaraq deyib: "Bu görüş daha çox Baykal-Amur Magistralı layihəsinin uğurunu təmin edən insanlardan biri olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuşdu. Azərbaycan torpağı bizə Mstislav Rostropoviç, Polad Bülbüloğlu, Qara Qarayev və Tahir Salahovu bəxş edib. Böyük şəxsiyyətlərimiz Azərbaycanda rus mədəniyyətini təmsil edirdilər. Bizim ortaq tariximiz var və ümid edirəm ki, ümumi gözəl gələcəyimiz olacaq".

"Azərbaycan və Rusiya: dostluğun tərənnümü" axşamı konsert proqramı ilə davam etdirilib. Tamaşaçılar "Qelikon-opera"nın səhnəsində "dostluq" məfhumunun musiqi təcəssümünü gördülər. Azərbaycan və Rusiyanın ifaçılıq sənətinin istedadlı və məşhur ustaları bəstəkarların dünyaşöhrətli əsərlərini təqdim etdilər.

Moskva səhnəsində Azərbaycanın Xalq artistləri Elçin Əzizov, Yusif Eyvazov, Dinara Əliyeva, Əvəz Abdulla, Murad Adıgözəlzadə, respublikanın Əməkdar artistləri Elnarə Məmmədova, Emil Əfrasiyab, Ramil Qasımov, İlham Nəzərov və başqaları çıxış ediblər. Onları Xalq artisti Yalçın Adıgözəlov və gənc dirijor Murtuza Bülbülün rəhbərlik etdikləri "Qelikon-opera" orkestri müşayiət edib.

Konsertdə Azərbaycan bəstəkarlarının, həmçinin Rusiya və Avropa bəstəkarlarının da əsərləri səsləndirilib. Tədbir Elçin Əzizovun və konsertin bütün iştirakçılarının ifasında Müslüm Maqomayevin "Baharlı yurdum - Azərbaycan" mahnısı ilə başa çatıb.





# "Anadolu Ankası - 2024" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib

**Türkiyənin Konya şəhərində "Anadolu Ankası - 2024" ("Anatolian Phoenix - 2024") beynəlxalq axtarış-xilasetmə təlimində "Yüksək Səviyyəli Müşahidəçi Günü" keçirilib.**

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.



"Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Azərbaycan Hərbi Hava Qüvvələrinin, Hərbi Dəniz Qüvvələrinin və Azərbaycanın Türkiyədəki hərbi attaşelik aparatının nümayəndələri iştirak ediblər. Əvvəlcə iştirakçılara təlimin gedişatı, qarşıda duran tapşırıqların məqsədi və yerinə yetirilməsi barədə statistik məlumatlar, eləcə də beynəlxalq təlimə həsr edilmiş qısametrajlı videogörüntü təqdim olunub.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra təlim poliqonunda "Anadolu Ankası - 2024" beynəlxalq axtarış-xilasetmə təliminə cəlb edilən iştirakçılar tərəfindən müxtəlif epizodların praktiki icrası media nümayəndələri və qonaqlar tərəfindən maraqla izlənilib.

# Tuvalunun general-qubernatoru, Tonqa Krallığının Baş naziri və Baham Adaları Birliyinin xarici işlər naziri Bakı Kommünikesini qəbul ediblər

Xəbər verildiyi kimi, mayın 13-də Tuvalunun general-qubernatoru Falani Tofinqa, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolau və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audley qlobal iqlim məsələlərini, o cümlədən hər üç ölkənin COP29-la bağlı prioritetlərini müzakirə etmək məqsədilə Azərbaycanda səfərdə olublar. Prezident İlham Əliyev tərəfindən qəbul edilən nümayəndə heyəti Azərbaycanı COP29-a sədrliyi münasibətilə təbrik edərək, bu şərəfli və məsuliyyətli vəzifədə ölkəmizin səylərini dəstəklədiklərini bildiriblər.

AZƏRTAC xəbər verir ki, coğrafi yerləşməsinə görə iqlim dəyişikliyinin təsirinə ən çox məruz qalan ölkələr sırasında olan üç dövlətin rəsmiləri görüşdən sonra Bakı Kommünikesini qəbul ediblər.


BAKU COMMUNIQUE

*Upon the invitation of H.E. Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan, Tuvalu, represented by the Governor General, H.E. Rev Sir Tofinga Vaevalu Falani, GCMG, MBE, the Kingdom of Tonga represented by the Prime Minister, H.E. Siaosi Ofa Ki Vahafolau Sovaleni, the Commonwealth of The Bahamas represented by the Minister of Foreign Affairs, the Hon. Frederick A. Mitchell, convened in Baku, Azerbaijan to deliberate on various issues of global climate agenda, including the priorities of the Bahamas, Tuvalu and Tonga for COP 29 and issued the following communique.*

**We,**

**Welcome** Azerbaijan's particular attention, as the COP29 Presidency, to the unique challenges faced by the Small Island Developing States (SIDS), and in this regard express deep appreciation to H.E. Mr. Ilham Aliyev, President of the Republic of Azerbaijan for the invitation extended,

**Express** concern over the adverse impacts of the climate change, which affect livelihoods, security, and well-being of people and the ecosystem, and impede the progress towards achieving the Sustainable Development Goals and objectives of Convention and the Paris Agreement,

**Recognize** that SIDS are particularly vulnerable to the adverse impacts of climate change, notably to rising sea levels and coastal extremes, which threaten their cultural heritage and existence,

**Acknowledge** the unprecedented temperature increases as reported by the latest assessment report of the Intergovernmental Panel on Climate Change (IPCC), which demand urgent action,

**Stand** united in our determination to see COP29 as a milestone platform to enable effective climate actions for all Parties to the UNFCCC and Paris Agreement and commend Azerbaijan's continued engagement with the SIDS in the run-up to COP29,

**Emphasize** the importance of strengthening peace, relief and recovery aiming at increased climate resilience, and welcome an inclusive approach by the COP29 Presidency on these matters,

**Call for** an urgent global action and solidarity to strengthen the global response to the climate change in the context of sustainable development,

**Underline** the need for increased climate finance and other means of implementation for enabling actions to keep 1.5C within reach, and in this context, encourage the Parties to the UNFCCC and Paris Agreement to engage in meaningful and effective deliberations at COP29,

**Welcome** that climate finance will be an important part of the negotiations this year, and in this regard, emphasize the need to work together constructively to agree on the New Collective Quantified Goal at COP29,

**Recognize** the progress made on the Fund responding to loss and damage and stress the urgent need to get it up and running,

**Determined** to take mitigation actions and the importance of a just and equitable transitions to keep 1.5C within reach, recognizing the critical role of other means of implementation,

**Express** support to Azerbaijan in its endeavor to make COP29 an inclusive, transparent, and neutral platform of unity and ensure successful outcomes for all in this critical decade of global climate action,

**Decide** to continue the dialogue with COP29 Presidency on various issues of global climate agenda.

Kommünikedə COP29-a sədrliyi çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin üzləşdiyi problemlərə göstərilən diqqətə görə Prezident İlham Əliyevə təşəkkür bildirilir, COP29-un inklüziv, şəffaf və neytral platforma olacağına əminlik ifadə edilir.

İqlim dəyişikliyinin qaçılmaz təsirlərinin insanların yaşayışı, təhlükəsizliyi və rifahı üçün Dayanıqlı İnkişaf Məqsədlərinin, BMT-nin İqlim dəyişmələri haqqında Çərçivə Konvensiyasının və Paris sazişinin məqsədlərinin həyata keçirilməsinə birbaşa təhdid olduğu bildirilir.

İqlim davamlılığının artırılması məqsədilə sülhün, yardımın və bərpanın gücləndirilməsinin vacibliyi vurğulanaraq, bu məsələlərə Azərbaycanın inklüziv yanaşması alqışlanır.

Kommünikedə həmçinin qlobal istiləşmə fonunda ekzistensial təhlükəsi getdikcə artan kiçik ada dövlətləri ilə COP29 çərçivəsində aparılan əməkdaşlıq və dialoq təqdir olunaraq iqlim dəyişikliyinə qarşı dayanıqlılığın artırılması, təcili qlobal tədbirlərin görülməsi və həmrəyliyin gücləndirilməsinə çağırış edilir.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## XİN: "Fransadan Azərbaycana qarşı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik"

**"Fransa tərəfinin Azərbaycana qarşı təhqiramiz ifadələrini bir daha qətiyyətlə pisləyir və ermənilərin kütləvi şəkildə qətlə yetirilməsi kimi qəbuledilməz ittihamlarla ölkəmiz əleyhinə apardığı qarayaxma kampaniyasını dayandırmağı tələb edirik".**

AZƏRTAC xəbər verir ki, bu sözlər Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Fransanın daxili işlər naziri Jerald Darmanenin mayın 16-da "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi iddialara dair şərhində yer alıb.

Ayxan Hacızadə bildirib ki, Jerald Darmanenin ölkəmizə qarşı və Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının liderləri arasında iddia olunan münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirləri tamamilə rədd edirik.

"Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı.

Bununla yanaşı, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarının etirazlarını dəstəkləməkdə ittiham etmək əvəzinə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir.

Biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq", - deyə A.Hacızadə vurğulayıb.

## Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyalarında müstəqillik mübarizəsi aparan 14 hərəkat Yeni Kaledoniyaya dəstək bəyanatı yayıb

**Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb.**

APA xəbər verir ki, bəyanatda Fransa hökumətinin Kanaki-Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub.

Sənəddə Kanakinin bu gün alov içində olması, o cümlədən son günlər ərzində 150-yə yaxın insanın həbs edilməsi və 3 nəfərin qətlə yetirilməsinin məsuliyyətinin Fransa hökumətində olduğu qeyd olunur: "Kanak xalqının öz müqəddəratını təyinetmə hüququnu tapdalayan "insan hüquqları ölkəsi" adlanan Fransa dövlətinin kanak xalqını öz torpağında azlıqda qoymaq üçün seçki elektoratını genişləndirmək məsələsindəki məqsədli istəyi mövcud vəziyyətin pisləşməsinə səbəb olur".

Bəyanatda Fransaya müstəmləkə siyasətini dayandırmağa və kanak xalqına öz taleyini sərbəst həll etməyə, beynəlxalq ictimaiyyətə isə kanak xalqının azlığa çevrilməsinə aparan bu iyrənc müstəmləkəçilik təcrübəsinə göz yummamağa çağırış edilir.

Bəyanata qoşulanlar həyəcan təbili çalaraq, BMT Təhlükəsizlik Şurasını toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasının pislənilməsini tələb ediblər.

Bəyanatın tam mətnini təqdim edirik:

"Biz, Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı təşkilatlarının nümayəndələri, senatorların və millət vəkillərinin qatıldığı Fransa hökumətinin Kanaki - Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə dəyişikliyin zorla tətbiq edilməsini pisləyirik.

Administrativ gücünə, himayəsində olan xalqların öz müqəddəratını təyinetmə hüququnu inkar edən Fransa müstəmləkəçi doktrinasına uyğun olaraq, amansızlığın nəticəsi kanakilərin bu gün alov içində olmasıdır. Son günlər ərzində 150-yə yaxın insanın həbs edildiyi və 3 nəfərin qətlə yetirildiyi Kanakidə vətəndaş müharibəsi yenidən başlayıb. Bir çox mağaza yandırılıb, küçələr boşdur və bəzi yollar yandırılmış avtomobillərlə doludur.

Kanak xalqının öz müqəddəratını təyinetmə hüququnu tapdalayan "insan hüquqları ölkəsi" adlanan Fransa dövlətinin kanak xalqını öz torpağında azlıqda qoymaq üçün seçki elektoratını genişləndirmək məsələsindəki məqsədli istəyi mövcud vəziyyətin pisləşməsinə səbəb olur.

Kanak xalqı ilə tam həmrəyliyimizi ifadə edirik və seçki korpusunun genişlənməsinə qarşı və hökumətin təqdim etdiyi qanun layihəsinin geri götürülməsi üçün kanakların hazırkı mübarizəsini dəstəkləyirik.

Kanaki - Yeni Kaledoniyanın müstəqilliyə qovuşması beynəlxalq sənədlərə, xüsusən BMT-nin xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı 1514 saylı qətnaməsinə uyğun bir öhdəlikdir. Buna görə kanak xalqının və onun tərəfdarlarının bütün mövcud etirazları legitimdir.

Fransanı müstəmləkə siyasətini dayandırmağa və kanak xalqına öz taleyini sərbəst həll etmək hüququ verməyə çağırırıq!

Biz həmçinin beynəlxalq ictimaiyyəti kanak xalqının azlığa çevrilməsinə aparan bu iyrənc müstəmləkəçilik təcrübəsinə göz yummamağa çağırırıq!

Biz BMT üzv dövlətlərini BMT Təhlükəsizlik Şurası vasitəsilə həyəcan təbili çalmağa, habelə bu ali qurumun toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasını pisləməsinə çağırış edirik!"

**Bəyanat müəllifləri:**
Groupe d'Initiative de Bakou
Kanaky-Nouvelle Calédonie
FLNKS : Front de Libération Nationale Kanak et Socialiste
MJKF : Mouvement Des Jeunes Kanak en France
Maohi Nui-Polynésie Française
Tāvini Huira'atira
Guyane
MDES : Mouvement de Décolonisation et d'Emancipation Sociale
Martinique
PALIMA : Parti pour la Libération de la Martinique
Guadeloupe
ANG : Alyans Nasyonal Gwadloup
CIPPA : Comité d'initiative pour un projet alternatif
FKNG : Fòs pou konstwi nasyon Gwadloup
KSG : Kolèktif pou sové Gwadloup
MIR : Mouvement International pour les Réparations
UPLG : Union Populaire pour la Libération de la Guadeloupe
CIPN : Comité International des Peuples Noirs
Corse
Nazione

## Bəzi beynəlxalq təşkilatlar qərəz yuvasına çevriliblər

### İkili standartlar dünya ölkələri üçün ciddi problemlər yaradır

**"İkili standartlar, böhtan, şantaj kampaniyası bu gün bir çox beynəlxalq təşkilatı, parlamentləri, siyasətçiləri çıxılmaz vəziyyətə salıb. Avropa İttifaqı və Şurası bu baxımdan xüsusilə fərqlənir. Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel İspaniyanın "El Mundo" qəzetinə verdiyi müsahibədə bu təşkilatların iç üzünü açıq-aydın göstərib və bildirib: "Brüsseldə bəzən üzv dövlətlərin arasında qərarların qəbulunda ikili standartlar tətbiq olunur. Mən həmişə hamını bərabərləşdirməyə çalışmışam və buna görə tənqidlərə də məruz qalmışam""**.



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, Ş.Mişel Avropa Komissiyasının siyasiləşmiş qurum kimi fəaliyyət göstərməsinin qəbuledilməzliyini, neytrallığa və obyektivliyə hörmət etməli olduğunu dilə gətirərkən bu ikili standartların dünya ölkələri üçün ciddi problemlər yaratdığı qənaətindədir. Çünki Qərbin Avropanın ikili standartlara əsaslanan siyasəti bəşəriyyətin gələcəyi üçün təhlükəlidir. Azərbaycan bu siyasətin ən çox əziyyət çəkən dövlətlərindəndir. Torpaqlarımız işğal altında olduğu 30 ildə, müharibə dövründə, suverenliyimizi bərpa etməyə, erməni faşistlərini ərazilərimizdən çıxarmağa cəhd göstərdiyimiz illərdə, eləcə də bu gün bu mənfur siyasəti hiss edirik. Bu gün də bəzi Qərb ölkələri, Avropa İttifaqı, AŞPA və bəzi beynəlxalq təşkilatlar öz haqqını, ədalətini bərpa edən, düşməni torpaqlarından çıxaran, sülhə, əmin-amanlığa, Cənubi Qafqazda təhlükəsizliyi təmin etməyə çalışan Azərbaycana qarşı düşmən mövqeyindədir.

Deputat qeyd edib ki, Azərbaycana qarşı aparılan çirkin böhtan kampaniyası genişlənir, ölkəmizə qarşı sanksiyalar tədbiq etmək barədə ABŞ-dən, Fransadan çağırışlar eşidilir. "AŞPA-da bəzi deputatlar ölkəmizə qarşı çirkin oyunlar oynayırlar. Almaniyanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Frank Şvabenin Azərbaycanın geri - AŞPA-ya yolu olmadığı fikri siyasi tərbiyəsizlikdir. Hörmətli həmkarımız Səməd Seyidov bu ləyaqətsiz deputatın layiqli cavabını verərək onu haqlı olaraq siyasi terrorçu adlandırıb. Həqiqətən, bu gün Şvabe kimi bədxah, əqidəsiz deputatlar azərbaycanofob, türkofob və islamofob əməlləri, fikirləri ilə AŞPA-da xalqımıza, türk dünyasına qarşı əsl siyasi və mənəvi terror həyata keçirirlər. Sözdə demokratiyadan, insan haqlarından, sülhdən, dövlətlərin suverenliyinə hörmətdən bəhs edən bəzi ölkələr və beynəlxalq təşkilatlar əməldə dediklərinin əksinə gedir, haqqı-ədaləti ayaqlar altına atır, insanların taleyini pula satır, xalqların faciəsinə rəvac verirlər. Bu təşkilatlar indi qərəz, şəxsi mənafe yuvasına çevriliblər", - deyə o əlavə edib.

Komitə sədri vurğulayıb ki, Avropa İttifaqı ikili standartlar tətbiq edir. ABŞ Dövlət Departamenti öz hesabatında saxta faktlara əsaslanır. AŞPA böhtan xarakterli qətnamələr qəbul edir.

İnsan haqlarından dəm vuran Fransada müsəlman uşaqlarının məktəblərə buraxılmamasını, açıq aksiya keçirənlərə qarşı zor tətbiq edilməsini, Amerikada tələbələrin aksiyasının zorla dağıdılmasını, küçədə insanların güllələnməsini, Ermənistandakı acınacaqlı vəziyyəti nədən beynəlxalq təşkilatlar görməzdən gəlirlər? Nə üçün Avropa və beynəlxalq təşkilatlar bu hadisələrə öz münasibətlərini bildirib, lazımi qiymət vermirlər? Əksinə, onlar təcavüzkarları, terrorçuları dəstəkləyir, Ermənistana maliyyə vəsaiti ayırır, revanşistləri silahlandırırlar. Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borel nəyə görə susur, Azərbaycanı öz torpaqlarını azad etməkdə günahlandıran, Ermənistana böyük hörmət və rəğbətini ifadə edən bu ikiüzlü siyasətçi nəyə görə həqiqətlərdən, reallıqlardan danışmır?

Tahir Rzayev bildirib ki, ikili standartlara arxalanan hesabatları, qətnamələri, indeks göstəricilərini bəzi ölkələr qəbul etmir və buna əhəmiyyət vermirlər: "Çünki bu sənədlər sifarişlə, pulla hazırlanır, beynəlxalq normalara, haqqa, ədalətə əsaslanmır. Avropa İttifaqının, Avropa Şurasının və Parlamentinin, Dövlət Departamentinin, Avropa İnsan Haqları Məhkəməsinin, eləcə də bəzi beynəlxalq təşkilatların mövqeyi dünyada sülhün, əmin-amanlığın, demokratiyanın bərpasına deyil, müharibələrə, münaqişələrə, siyasi və mənəvi terrora xidmət etdiyi üçün qəbuledilməzdir". Deputat sonda vurğulayıb ki, Azərbaycan həqiqətlərini, reallıqlarını Qərb, Avropa, eləcə də bir çox ölkənin parlamentləri, siyasətçilər əvvəl-axır başa düşüb etiraf etməlidirlər. Eynilə Şarl Mişelin etiraf etdiyi kimi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa kanak xalqına qarşı zor tətbiq etməklə beynəlxalq öhdəliklərini kobud şəkildə pozur

**Fransa hakimiyyəti müstəqilliyi uğrunda mübarizə aparan Yeni Kaledoniyada fövqəladə vəziyyət elan edib. Artıq onilliklərdir ki, bu diyarda yerli kanak əhalisi ilə onun müstəqillik arzusunu boğmağa çalışanlar arasında gərginlik yaşanır. Son günlərdə isə bu gərginlik açıq qarşıdurmalarla nəticələnib. Kanak xalqı Fransanın işğalından qurtulmağa, müstəqil olmağa çalışır. Paris isə müxtəlif vasitələrlə bu haqlı istəyin qarşısına keçilməz sədd çəkir.**

Sakit okeandakı Yeni Kaledoniya 1946-cı ilə qədər Fransanın koloniyası olub. 2003-cü ildə konstitusiya dəyişikliyi nəticəsində ada Fransaya bağlı muxtar bölgəyə çevrilib. Adanın yerli əhalisinin bəziləri tam müstəqillik istəyirlər, lakin Fransa Prezidenti Emmanuel Makron qəti olaraq bu fikrə qarşı çıxır. Makron Fransa konsensusu əsasında Yeni Kaledoniya üçün dəyişikliklər edəcəyinə söz verib. Verilən vədə görə, 2024-cü ilin əvvəlində bu, yerinə yetiriləcəkdi. Amma göründüyü kimi, vaxt keçsə də, heç bir yenilik olmadı, dəyişikliklər təxirə salındı.

Fransa DİN arxipelaqda ikigünlük komendant saatı və toplantılara qadağa qoyulduğunu bildirib. Daxili İşlər Nazirliyi uzun müddət həbsxana koloniyası kimi fəaliyyət göstərən və hazırda Fransa hərbi bazasının yerləşdiyi adaya əlavə polis qüvvələrinin göndərildiyini də açıqlayıb. Məlumata görə, 82 nəfər həbs edilib, 54 polis və jandarm yaralanıb. Hava limanı bağlanıb, bir çox reys təxirə salınıb.

Xatırladaq ki, iki ay əvvəl, mart ayının ikinci ongünlüyündə də Yeni Kaledoniyanın paytaxtı Numea şəhərindəki Cocotiers meydanında Fransanın işğalı əleyhinə müxtəlif şüarlarla etiraz aksiyası keçirilmişdi. Aksiya iştirakçıları Fransa hökumətinin Yeni Kaledoniyanın daxilində destabillik yaratmaq siyasətinə və yerli əhalinin hüquqlarının kobud şəkildə pozulmasına etirazlarını bildirmişdilər. İki gün müxtəlif şüarlarla davam edən aksiyalarda Azərbaycan Prezidenti İlham Əliyevin və "dəmir yumruğ"un fotolarının əks olunduğu plakatlar qaldırılmışdı. Azərbaycan və Yeni Kaledoniya bayraqları yanaşı dalğalandırılmışdı.

Bu etiraz aksiyasında çıxış edən Yeni Kaledoniya parlamentinin Ailə və Qadınların hüquqları komissiyasının sədr müavini Marie-Line Sakilia beynəlxalq ictimaiyyəti kanaklara dəstək olmağa çağıraraq demişdir: "Azərbaycana kanak əhalisinin müstəqillik və suverenliyi uğrunda apardığı mübarizəyə dəstək verdiyinə görə təşəkkürümüzü ifadə edirik. Biz Bakı Təşəbbüs Qrupuna da beynəlxalq ictimaiyyətin diqqətini bizim problemimizə cəlb etməyə yardım göstərdiyi üçün minnətdarlığımızı ifadə edirik".

Bakı Təşəbbüs Qrupu Fransa hakimiyyətinin Yeni Kaledoniyada son günlər keçirilən aksiyalarda kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bəyanat yayıb. Bəyanatda bildirilir ki, Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada baş verən hadisələrlə bağlı Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqi ilə əlaqədar ciddi narahatlığını bildirir. Fransa təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlar bizdə dərin narahatlıq doğurur. İctimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin davamlı həlli hesab edilə bilməz. Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmalıdır. Təklif olunan dəyişikliklər məqsədyönlü şəkildə seçki elektoratını qeyri-kanaklar hesabına artırmaq məqsədini daşıyır. Bu da öz növbəsində haqlı olaraq insanların narazılığına, habelə etiraz və nümayişlərinə səbəb olub. Təəssüf ki, Yeni Kaledoniyada təklif edilən konstitusiya dəyişiklikləri ilə əlaqədar paytaxt Numea şəhərində və ətraf ərazilərdə keçirilən ümumi etirazlardan sonra Fransa təhlükəsizlik qüvvələri səfərbər edilib, komendant saatı tətbiq olunub.

Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb. Bəyanatda Fransanın Kanaki-Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub. Bəyanatda Kanakinin bu gün alov içində olmasının, o cümlədən son günlər 150-yə yaxın insanın həbs edilməsinin və 3 nəfərin qətlə yetirilməsinin məsuliyyətinin Fransa hökumətində olduğu bildirilir: "Kanak xalqının öz müqəddəratını təyinetmə hüququnu tapdalayan "insan hüquqları ölkəsi" adlanan Fransa dövlətinin Kanak xalqını öz torpağında azlıqda qoymaq üçün seçki elektoratını genişləndirmək məsələsindəki məqsədli istəyi mövcud vəziyyətin pisləşməsinə səbəb olur". Bəyanata qoşulanlar həyəcan təbili çalaraq, BMT Təhlükəsizlik Şurasının toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasının pislənməsini tələb ediblər.

Bakı Təşəbbüs Qrupunun bu bəyanatı Parisi qıcıqlandırıb. Fransanın daxili işlər naziri Jerald Darmanen mayın 16-da "France-2" telekanalına müsahibəsində Azərbaycana qarşı əsassız iddialar səsləndirib. Bununla əlaqədar Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə bildirib ki, Jerald Darmanenin ölkəmizə qarşı və Azərbaycanla Yeni Kaledoniyanın müstəqillik tərəfdarlarının liderləri arasında iddia olunan münasibətlərə dair səsləndirdiyi növbəti əsassız fikirlərini tamamilə rədd edirik. "Fransa daxili işlər nazirinin öz ölkəsinin uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməsini, milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsi tarixini xatırlaması daha münasib olardı. Bununla yanaşı, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarının etirazlarını dəstəkləməkdə ittiham etmək əvəzinə ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir. Biz bir daha Fransanı ölkəmizə qarşı əsassız iddiaları dayandırmağa çağırırıq".

Özünü dünyaya demokratiyanın carçısı kimi göstərməyə çalışan, insan azadlığından geninə-boluna dəm vuran Fransa Yeni Kaledoniyada yaşayan kanak xalqına qarşı misli görünməmiş qanunsuzluqlar və haqsızlıqlar törədir. Beynəlxalq qanunlarda əksini və təsdiqini tapmış demokratik prinsipləri kobud şəkildə pozur. Kanak xalqının rəyini nəzərə almadan Konstitusiyaya özünə sərf edən dəyişikliklər edir. Olunan qeyri-qanuni dəyişikliklərə qarşı çıxanlara isə zorakılıq tətbiq edir, kütləvi həbslər həyata keçirir. Bununla kanak xalqının haqq səsini boğmağa çalışır. Bütün bunlar isə Fransada insan hüquqlarının, ifadə azadlığının, xüsusən də Parisin üzərinə götürdüyü beynəlxalq öhdəliklərinin kobud şəkildə pozulması deməkdir. Azadlıq istəyən bir xalqı susdurmaq, ona qarşı zor tətbiq etmək Fransa siyasətinin gücsüzlüyünün göstəricisidir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Fransa Yeni Kaledoniyaya qoşun yeridib

**Yeni Kaledoniyada hakimiyyət arxipelaqın müstəqilliyi tərəfdarları ilə əleyhdarları arasında davam edən toqquşmalar fonunda komendant saatı tətbiq edib. Səbəb ölkədə minimum 10 il yaşayan şəxslərə səsvermə hüququ verməklə bağlı konstitusiya islahatının aparılmasıdır. Yerli əhali olan kanaklar hesab edirlər ki, Paris bu dəyişikliklə onların adalardakı rolunu daha da azaltmaq istəyir və təbii ki, bu narazılıqla qarşılanır.**



Yeni Kaledoniyada hakimiyyət arxipelaqın müstəqilliyi tərəfdarları ilə əleyhdarları arasında davam edən toqquşmalar fonunda komendant saatı tətbiq edib. Səbəb ölkədə minimum 10 il yaşayan şəxslərə səsvermə hüququ verməklə bağlı konstitusiya islahatının aparılmasıdır. Yerli əhali olan kanaklar hesab edirlər ki, Paris bu dəyişikliklə onların adalardakı rolunu daha da azaltmaq istəyir və təbii ki, bu da narazılıqla qarşılanır.

Fransa Yeni Kaledoniyada vəziyyətin mümkün qədər tez normallaşmasına can atır. Paris nikel istehsalına görə dünyada beşinci yeri tutan arxipelaqı əldən vermək istəmir. Yeni Kaledoniyanın müstəqillik uğrunda mübarizəsinin təlatümləri və onun Fransa üçün geosiyasi əhəmiyyəti haqqında yazan "İzvestiya" qeyd edir ki, bazar ertəsindən çərşənbə axşamına keçən gecə Yeni Kaledoniyanın paytaxtı Numea şəhərinin hüquq-mühafizə qüvvələri üçün çətin keçib. Sakit okeanın cənub-qərb hissəsindəki adalarda yerləşən Fransanın bu xüsusi inzibati-ərazi qurumu yenidən dövlət müstəqilliyi tərəfdarları ilə onların əleyhdarları arasında qarşıdurma meydanına çevrilib. Çərşənbə axşamı yerli hakimiyyət orqanları 50-yə yaxın polis əməkdaşının, 82 etirazçının yaralandığı, avtomobillərin yandırıldığı barədə məlumat yayıb. Nəticədə iğtişaşları dayandırmaq üçün şəhərdə yerli vaxtla çərşənbə axşamı saat 18:00-dan çərşənbə günü səhər saat 06:00-a qədər komendant saatı tətbiq edilib. Bildirilir ki, fransızlar fövqəladə rejimin müddətini uzada da bilər.

Kanak xalqının rəyi nəzərə alınmadan Konstitusiyaya təklif olunan son dəyişikliklər, dinc etiraz aksiyalarında iştirak edən mülki şəxslərə qarşı zorakılıq və həbslər bir çox qanun, o cümlədən insan hüquqlarının, ifadə azadlığının, xüsusən də Fransanın beynəlxalq öhdəliklərinin kobud şəkildə pozulması ilə müşayiət olunub.

Paytaxt Numea şəhərində, həmçinin ətraf ərazilərdə baş vermiş və insan həyatı üçün təhlükə yaradan hadisələr sağlam düşüncəli insanları dərindən narahat edir. Hüquq-mühafizə orqanlarının fundamental insan hüquqlarına hörmət etməsi məcburidir. Fransa polisinin etirazçılara qarşı həddən artıq güc tətbiq etməsi isə bütün vətəndaşların təhlükəsizliyini və ləyaqətini təhdid altına qoyur.

Qarşıdurmalara səbəb Senatda artıq təsdiq edilmiş və Fransa Milli Assambleyasında müzakirə edilən konstitusiya islahatı layihəsi olub. Onun məqsədi Yeni Kaledoniyada ən azı 10 il yaşayan vətəndaşlara yerli seçkilərdə səsvermə hüququ verməkdir.

Hazırda 5 may 1998-ci il tarixli razılaşmaya əsasən, yalnız 1988-ci ildən 1998-ci ilə qədər Yeni Kaledoniyada yaşayanlar, eləcə də onların uşaqları səsvermə hüququna malikdirlər. Yeni layihə nəticəsində 2024-cü ildə bu ərazidə demək olar ki, hər beş seçicidən biri səsvermə hüququnu itirəcək.

Arxipelaqda bir neçə dəfə olmuş Fransanın daxili işlər naziri Jerald Darmanen vurğulayıb ki, hökumət vəziyyətin dəyişdirilməsinə görə məsuliyyəti öz üzərinə götürür, çünki dondurulmuş elektorat artıq demokratiya prinsiplərinə uyğun gəlmir.

Yeni Kaledoniyanın müstəqilliyinin tərəfdarları konstitusiya islahatını dövlətin 2019-cu il siyahıyaalınmasına görə adanın əhalisinin 41,2 faizini təşkil edən "yerli kanak xalqının əhəmiyyətini daha da azaltmaq" cəhdi kimi görürlər.

Adanın yerli sakinlərinin nöqteyi-nəzərindən ərazilərin müstəqilliyi məsələsi hələ də açıq qalır. Fransa mətbuatında indiki etirazlar hələ 1984-cü ildə başlayan və 1988-ci ilə qədər davam edən və 20 nəfərin öldüyü iğtişaşlarla müqayisə edilir.

Fransız politoloqu Bertran Şoller qeyd edir ki, mədənçıxarma sektorunun inkişafı ilə xeyli sayda əcnəbi və metropol sakinləri Yeni Kaledoniyaya gəlib məskunlaşıblar. Buna görə də yerli insanlar, ilk növbədə kanaklar, adaların gələcəyinin onlardan alındığına inanırlar: "Sual budur ki, adanın taleyi ilə bağlı səsvermə hüququna kimlər malikdir - bu yaxınlarda gəlmiş insanlar, yoxsa həmişə Yeni Kaledoniyada yaşayan və kökləri olanlar? Siz başa düşməlisiniz ki, bu qərarı Yeni Kaledoniya ilə heç bir əlaqəsi olmayan fransız senatorları və parlament üzvləri verir".

Onun fikrincə, Emmanuel Makron qərar qəbul edərkən, sadəcə olaraq, opponentlərini fakt qarşısında qoyur və lazım gəldikdə güc tətbiq edir, halbuki yerli əhalinin problemləri yalnız müzakirələrlə həll olunmalıdır.

Fransalı ekspert deyir: "Bizim hökumət ancaq təzyiq və güc tətbiq etməyi bilir. Yəni başınıza silah dayayıb deyir: hər bir halda razılığa gəlməsəniz, o zaman sizə bir az vaxt verməyə hazırıq, amma bilməlisiniz ki, hər şey bizim dediyimiz kimi olacaq və biz polisi, ordunu göndərəcək və nə olursa-olsun, hər şeyi istədiyimiz kimi həll edəcəyik".

Qeyd edək ki, Fransa Yeni Kaledoniyanın ən böyük adası olan Qrand Terdə 1500 əsgərlə Sakit Okeandakı ən böyük kontingentini yerləşdirib.

Son məlumata görə, insanların ölməsi və yaralanması ilə nəticələnən kütləvi etirazlar fonunda Fransa Yeni Kaledoniyaya qoşun yeridib və Baş nazir Qabriel Attal fövqəladə vəziyyət elan edib.

Bu barədə Fransa mətbuatı Yelisey sarayına istinadən məlumat yayıb.

Bundan əvvəl daxili işlər naziri Jerald Darmanen bildirmişdi ki, iki gün əvvəl o, 4 jandarma eskadrilyasının, eləcə də əlavə GIGN və RAID (polis xüsusi təyinatlıları) bölmələrinin gücləndirici qüvvə kimi adaya göndərilməsi barədə göstəriş verib.

AFP agentliyinin Yelisey sarayına istinadən verdiyi xəbərə görə, Fransa Prezidenti Emmanuel Makron Yeni Kaledoniyada baş verən etirazlar fonunda təhlükəsizlik şurasının təcili iclasını keçirəcək. O, ölkənin şimal-qərbində yeni külək stansiyaları açacağı Dənizkənarı Sena departamentinə səfərini ləğv edib.

Bildirilir ki, iğtişaşlar zamanı 3 nəfər həlak olub, yaralıların sayı 300-ü ötüb.

Aksiyalar zamanı 200-dən çox etirazçı saxlanılıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan-Belarus münasibətləri strateji tərəfdaşlığa əsaslanır

## Aleksandr Lukaşenkonun ölkəmizə səfəri ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə müsbət impuls verəcək



**"Azərbaycan və Belarus arasında diplomatik əlaqələr 1993-cü ilin iyun ayından başlayıb. İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq xarakterlidir".**

Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, ölkələrimiz arasında münasibətlərin inkişafında, formalaşmasında dövlət başçılarının böyük rolu var. Bunda yüksəksəviyyəli dialoq ən mühüm istiqamət kimi qiymətləndirilir və qarşılıqlı anlaşma vacib rol oynayır. Azərbaycan və Belarus arasında parlamentlərarası əlaqələr də mövcuddur. Milli Məclisdə Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrup fəaliyyət göstərir və keçirilən tədbirlərdə, seçkilərdə parlamentlərin üzvləri qarşılıqlı şəkildə müşahidəçi qismində daim iştirak edirlər.

Azərbaycan və Belarus arasında ticarət fəaliyyəti də var, 270-dən çox müəssisənin iştirakı ilə 300-dən çox malın qarşılıqlı təchizatı həyata keçirilir. Əllidən çox Azərbaycan şirkəti Belarus müəssisələrində qanuni nümayəndəlik kimi təmsil olunurlar. Azərbaycanda Belarus kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən xüsusi təyinatlı mağazalar da var. Deputat qeyd edib ki, Azərbaycandan Belarusa neft məhsulları, polietilen, digər kimyəvi məhsullar, şokolad məmulatları, meyvə şirələri, bentonit, gil, pambıq, iplik, alüminium materialları ixrac olunur. "Belarusdan isə Azərbaycana traktor, ağac materialları, qazma maşınlarının ehtiyat hissələri, elektrik naqilləri, qida və kənd təsərrüfatı məhsulları, dərman preparatları və digərləri gətirilir. Belarus Prezidentinin Bakıda Prezident İlham Əliyevlə həm təkbətək danışıqları, həm də nümayəndə heyətlərinin üzvlərinin iştirakı ilə geniş tərkibdə görüşləri keçirildi. Prezidentlər ticari, iqtisadi əlaqələrin genişləndirilməsindən, sənaye və kənd təsərrüfatı sahəsində gələcək perspektivlərdən danışdılar. Ümumiyyətlə, bir sıra aktual məsələlər nəzərdən keçirildi. Danışıqların digər mövzusu, təbii ki, beynəlxalq platformada hər iki ölkənin bir-birinə dəstək verməsi və əməkdaşlıq məsələsi idi. Həmçinin qlobal və regional məsələlər ətrafında müzakirələr aparıldı", - deyə o əlavə edib.

A.Nağıyev vurğulayıb ki, bu gün baş verən hadisələr - Rusiya-Ukrayna müharibəsi, Cənubi Qafqazda olan gərginlik və bir sıra problemlərin həlli istiqamətində atılan addımlar həm Belarus, həm Azərbaycan üçün çox mühüm olduğundan bu proseslərin təhlili də böyük əhəmiyyət daşıyır. Aleksandr Lukaşenkonun da qeyd etdiyi kimi, bizim elə bir qapalı mövzumuz yoxdur, hər şey açıqdır. Həm Azərbaycan tərəfi, həm Belarus dünyada baş verən prosesləri yaxşı dərk edir və buna uyğun olaraq da qarşılıqlı ünsiyyət qurulur.

Deputat vurğulayıb ki, Lukaşenko həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərində iştirak etməyə hazır olduğunu bildirib. Yəqin ki, bu istiqamətdə də addımlar atılacaq.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri qarşılıqlı münasibətlərin daha da inkişaf etməsinə öz töhfəsini verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Sərhədlərin delimitasiyası Azərbaycanın qətiyyətinin nümayişidir

**"Mayın 15-də Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların doqquzuncu görüşü keçirilib. Bu görüş Qazax rayonunun qeyri-anklav dörd kəndinin Azərbaycana təhvil verilməsi ilə başlanan delimitasiya və demarkasiya prosesinin uğurlu davamıdır. Qısa müddət ərzində razılaşmanın əldə olunması və sərhəd dirəklərinin quraşdırılması da onu göstərir ki, Ermənistan Azərbaycanın çağırışlarına artıq reaksiya verir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyib. Deputat bildirib ki, sərhədlərin müəyyənləşdirilməsi ilə əlaqədar dövlət komissiyası ilk dəfə olaraq Azərbaycanın təşəbbüsü ilə bizim ölkədə yaradılıb: "Bu onu göstərir ki, Azərbaycan regionda sülhün etibarlı əsaslarını yaratmaq istəyir və bu istiqamətdə təkcə mövqe sərgiləməklə kifayətlənmir, eyni zamanda praktiki addımlar da atır. Bir müddət sonra Azərbaycanın ardınca Ermənistanın da eyni funksiyalı komissiya yaratmasını bu ölkənin bizim sülh çağırışlarımıza cavabı kimi qiymətləndirmək olar. Bu, yaxın gələcəkdə Azərbaycanın regionda sülhün və əməkdaşlığın bərqərar olması üçün etdiyi təşəbbüslərinin hər birinin nəticə verəcəyinə ümid yaradır".

Deputatın sözlərinə görə, sərhədlərin delimitasiyası istiqamətində müzakirələrin məhz SSRİ dövrünün müvafiq kartoqrafik xəritələrinə uyğun olaraq aparılması və ortaq məxrəcə gəlinməsi bütövlükdə Cənubi Qafqaz regionunda sülh üçün əsaslı zəmin yaradır. Eyni zamanda bu, Azərbaycanın haqlı mövqelərinin qələbə çaldığını göstərir. Ümumiyyətlə, bu gün sərhədlərin delimitasiyası və demarkasiyası üzrə əldə edilən nailiyyətlər Azərbaycan tərəfindən atılmış kompleks addımların uğurlu nəticəsidir.

"Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verən zaman bildirmişdi ki, Ermənistan tərəfi Azərbaycanın çağırışlarına düzgün reaksiya nümayiş etdirməlidir. Heç bir müzakirə aparılmadan qeyri-anklav kəndlərimiz Azərbaycana təhvil verilməlidir. Paşinyan da Tavuşa səfəri zamanı yerli əhaliyə müraciətində həmin kəndlər qaytarılmayacağı təqdirdə müharibənin qaçılmaz olacağını demişdi. Hələ o vaxtdan Ermənistan rəhbərliyində və cəmiyyətində Azərbaycanın çağırışlarına düzgün reaksiya nümayiş etdirməməyin nəticəsinin necə olacağı haqqında artıq aydın təsəvvür formalaşmışdı", - deyə müsahibimiz əlavə eidb.

Elşad Mirbəşiroğlu vurğulayıb ki, Ermənistanın sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı bu gün sərgilədiyi müsbət mövqe Azərbaycanın həyata keçirdiyi müvafiq uğurlu strategiyanın məntiqi nəticəsidir: "Rəsmi İrəvan məhz kompleks addımlarımız sayəsində müəyyən mövqe sərgiləməyə məcbur oldu. Ona görə də Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası məsələsi intensiv görüşlərdə müzakirə olunur. Gedişat göstərir ki, Ermənistan regionda dayanıqlı sülh üçün təsirli amil rolunda çıxış edən Azərbaycanın təklif və təşəbbüslərini qiymətləndirmək məcburiyyətindədir".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

# Ağdam şəhərinin 189,7 kilometrlik daxili yolları baş plana uyğun tikilir



## 6 tip en kəsiyi, yaşıllıq, piyada və velosiped zolaqları

**Qarabağ və Şərqi Zəngəzuru "dəmir yumruq"la işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev zəfərimizdən ötən üç il beş ay müddətində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir. Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir.**







Bu ərazilərdə həyata keçirilən mühüm layihələrdən biri də yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yol layihəsinin icrası nəzərdə tutulur. Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək.

Dünən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Ağdam şəhərinin daxili yollarının tikintisi barədə yeni məlumat yayıb. Qeyd edilir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş Ağdam şəhərinin baş planına əsasən şəhərin daxili yollarının ümumi uzunluğu 189,7 kilometr təşkil edəcək.

Şəhərin daxili yol və kommunikasiya şəbəkəsinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Ağdam şəhərinin daxili yollarının 6 tip en kəsiyinə uyğun tikilməsi nəzərdə tutulub. Hər bir tip en kəsiyinin əhəmiyyətinə uyğun olaraq, hərəkət zolaqlarının sayı 2-8 ədəd, yaşıllıq zolağının eni 1,5-3 metr, velosiped zolağının eni 1,5 metr, piyada zolağının eni isə 4-6 metr təşkil edir.

Layihə üzrə magistral şəhər yollarının uzunluğu 17,5 kilometrdir. Eni 55-60 metr təşkil edəcək bu yollar 6-8 hərəkət zolağından ibarət olacaq. Ümumşəhər əhəmiyyətli yolların uzunluğu 50, yerli əhəmiyyətli yolların ümumi uzunluğu isə 122,2 kilometr təşkil edəcək.

Qeyd edək ki, hazırda tikinti işləri birinci mərhələdə uzunluğu 58,7 kilometr təşkil edən hissə üzrə aparılır. Bu çərçivədə hazırda sözügedən hissədə tikinti sahəsinin təmizlənməsi, bitki qatının çıxarılması, qazma, torpaq yatağı və kommunikasiya xətlərinin tikintisi işləri həyata keçirilir.

Qeyd edilən hissə üzrə fiziki tərəqqi ümumilikdə 20 faiz təşkil edir. Tikinti-bərpa işləri "İnşaat Norma və Qaydaları"na uyğun, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin şəxsi nəzarəti altında həyata keçirilir.

"Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Ağdam şəhərinin daxili yollarının tikintisinin 2026-cı ildə başa çatdırılması nəzərdə tutulur.

Ümumiyyətlə, azadlığa qovuşmuş ərazilərimizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası planlaşdırılır.

Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min keçmiş məcburi köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman və xidmət obyektləri, yollar, 130-dan çox tunel və körpü (40 tunel, 90 körpü) inşa edilir. Tezliklə bu tikililər, möhtəşəm yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.



*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*





# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Fransanın son müstəmləkələri Bakı Təşəbbüs Qrupunun çağırışı ilə videokonfrans təşkil ediblər

**Fransanın son müstəmləkələri olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinika, Qvadelupa və Korsikada müstəqillik uğrunda mübarizə aparan siyasi hərəkatların nümayəndələri Bakı Təşəbbüs Qrupunun çağırışı ilə "Kanak xalqı ilə həmrəyik" adlı videokonfrans təşkil ediblər.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Yeni Kaledoniyadan olan nümayəndələr Fransa polisi və jandarma qüvvələri tərəfindən son günlər paytaxt Numeada və ətraf ərazilərdə törədilən vəhşiliklər barədə ətraflı məlumat veriblər.

Çıxışçılar kanak xalqına qarşı törədilən vəhşilikləri kəskin qınayıblar. Görüş iştirakçıları beynəlxalq ictimaiyyəti Fransanın ədalətsiz müstəmləkəçilik siyasətinə göz yummamağa, haqq səsini ucaltmağa, BMT-yə üzv dövlətləri Təhlükəsizlik Şurası vasitəsilə həyəcan təbili çalmağa, Fransa tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulmasının qarşısını almağa çağırış ediblər.

Bakı Təşəbbüs Qrupu öz növbəsində beynəlxalq ictimaiyyəti müstəmləkəçilikdən əziyyət çəkən regionların xalqları üçün "Birlik, Azadlıq və Müstəqillik" ideyası ətrafında birləşməyə, Fransa kolonializminə "yox", müstəqillik uğrunda ədalətli mübarizəyə "hə" deməyə çağırıb.

Videokonfrans çərçivəsində Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən regionların müstəqillik çağırışlarını ehtiva edən fləşmob keçirilib.

Qeyd edək ki, mayın 16-da Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinika, Qvadelupa və Korsikada müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb.

Bakı Təşəbbüs Qrupu Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların ədalətli mübarizəsini daim dəstəkləyəcəyini bir daha bəyan edir.

## Yeni Kaledoniyadakı etirazlar Fransa əsarətindəki digər ərazilərə də yayıla bilər

**"Fransa müstəmləkəçilik siyasəti ilə elə ilk növbədə öz başına bəla açır, dünyada nüfuzu hər keçən gün sıfıra yaxınlaşır. Makron hakimiyyəti Yeni Kaledoniyada pik həddə çatan gərginliyi yumşaltmaq üçün hücum strategiyasını seçib. Lakin unudur ki, müasir dövrdə bu cür metodlarla hansısa xalqı susdurmaq mümkün deyil. Keçmiş müstəmləkə ərazilərinə nəzarəti saxlamaq istəyən Paris beynəlxalq hüququn norma və prinsiplərini pozur".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Fazil Mustafa deyib. Deputat qeyd edib ki, uzun illərdir hüquqları tapdalanan yeni kaledoniyalılar etirazlara başlayıblar: "Vəziyyət gərgindir, polislə etirazçılar arasında toqquşmalar yaşanır. Zorakılıq halları baş alıb gedir. 1873-cü ildən bəri yerli kanak xalqını əsarəti altında saxlayan Fransa bütün demokratik və insani dəyərləri heçə sayır. Yelisey sarayı etirazlara, düçar olduğu uğursuzluqlara rəğmən müstəmləkəçilik siyasətindən əl çəkmir".

Deputatın sözlərinə görə, kolonializm siyasətini ənənəvi hala çevirən Fransa son dövrlər Azərbaycan tərəfindən ifşa olunub. Bu ölkənin iç üzü hər keçən gün dünyaya daha yaxşı bəlli olur. Bunun nəticəsidir ki, özünü demokratiyanın beşiyi hesab edən Fransa digər regionlarda olduğu kimi, Cənubi Qafqazda da problemlər yaşayır. Daim demokratiyadan və insan hüquqlarından dəm vuran Paris Cənubi Qafqazda hərbi mövcudluğuna nail olmaq üçün işğalçı Ermənistanı dəstəkləyir. Əslində, hər ikisinin xislətində cinayətkarlıq olduğuna görə, Ermənistanın "böyük bacı"sı Fransanın belə riyakar davranışları təəccüblü deyil.

"Yelisey sarayı öz maraqlarını təmin etmək üçün ağlasığmaz cinayətlər törədir. Təkcə Yeni Kaledoniya üzərində deyil, Ermənistan üzərində də eyni rolu oynayır. Ötən ay Bakıda səfərdə olan Yeni Kaledoniyanın rəsmi nümayəndəsi Omayra Naisselinin də dediyi kimi, Yeni Kaledoniya xalqının öz müqəddəratını özünün təyin etməsi və müstəqil olması ilə razılaşa bilməyən Fransa Ermənistanı da kaledoniyalaşdırmağa çalışır. Bu bir daha sübut edir ki, Makron hakimiyyəti Fransanın tarixi boyunca yürütdüyü kolonializm siyasətini Cənubi Qafqaza da daşımaq niyyətindədir", - deyə müsahibimiz əlavə edib.

Fazil Mustafa bildirib ki, bütün bu addımlar faydasızdır: "Fransa zor gücünə müstəmləkəsində saxladığı xalqların hüquqlarını da qorumalıdır. Baş verənlərdən də aydın görünür ki, Fransanın müstəmləkəçilik siyasəti onsuz da iflasa uğrayıb. Yəni hazırkı strategiya, atılan addımlar fransızların hansısa problemini həll etməyəcək. Əksinə, bu, Yeni Koledoniyada daha böyük müqavimətin formalaşmasına səbəb ola, etiraz dalğasını digər keçmiş müstəmləkələrə də yaya bilər".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

## Fransa kanak xalqının azadlıq istəyini qanla boğur

**Fransanın kolonial siyasətinin ağır nəticələri, müstəmləkəsi altında saxladığı xalqların fundamental hüquqlarını kobud şəkildə pozması, azadlıq istəyənləri həbs etməsi, öldürməsi hazırda Yeni Kaledoniyada baş verənlərin fonunda aydın şəkildə görünür. Azadlıq mücadiləsinə qalxan Yeni Kaledoniyada təkcə son günlər ərzində 150-yə yaxın insan həbs edilib, 3 nəfər qətlə yetirilib. Kanak xalqının hüquqlarını tapdalayan Makron hakimiyyətinin Yeni Kaledoniyada fövqəladə vəziyyət elan etməsi, "TikTok" sosial şəbəkəsinin fəaliyyətini dayandırması və artıq ora qoşun yerləşdirməsi ilə bağlı xəbərlər də var.**



Bütün bunlar özünü dünyaya "insan haqları"nın keşikçisi kimi sırıyan Fransanın digər əsarəti altında saxladığı xalqlar kimi, kanak xalqının da azadlıq səsini boğmaq üçün qan tökməkdən belə çəkinmədiyini gün kimi ortaya qoyur.

### Kanakların qərarı nəzərə alınmalıdır

Tarixi soyqırımları üzərində qurulan, əli bir milyondan çox əlcəzairlinin qanına batan Fransanın "demokratiya" adı altında ölkələrə soxularaq onları əsarətdə saxlaması, insanlardan kölə kimi istifadə etməsi, müstəqillik istəklərini boğması, bir sözlə, əsrlər ötsə də, kolonializmini yeni üsullarla davam etdirməsi Bakı tərəfindən ifşa edilir.

Azərbaycan 2019-cu ildə Qoşulmama Hərəkatı (HQ) ölkələrinin yekdil dəstəyi ilə hərəkata sədrliyi qəbul etdiyi dövrdən etibarən Bandunq prinsiplərinə uyğun olaraq aktiv formada neokolonializmə qarşı mübarizə aparır. QH Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 2023-cü il iyulun 6-da Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən Bakı Təşəbbüs Qrupunun (BTQ) yaradılması isə bu işə xüsusi təkan verib. Qrup XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir. Yeni Kaledoniyadakı Fransa istibdadının dünyaya çatdırılmasına da Bakı Təşəbbüs Qrupu öndərlik edir.

"Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada baş verən hadisələrlə bağlı Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqi ilə əlaqədar ciddi narahatlığını bildirir. Fransa təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlar bizdə dərin narahatçılıq doğurur", - deyə Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair bu il 14 may tarixli bəyanatında BTQ bildirib. Bəyanatda Fransa hökumətindən kanak xalqının qərarının nəzərə alınması tələb edilib.

Eyni zamanda mayın 16-da Bakı Təşəbbüs Qrupu və Fransanın son koloniyaları olan Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Martinik, Qvadelupa və Korsikadakı müstəqillik uğrunda mübarizə aparan 14 siyasi hərəkat birgə bəyanat yayıb.

Bəyanatda Fransa tərəfindən Kanaki - Yeni Kaledoniyada seçki kütləsinin genişləndirilməsi lehinə qanunsuz dəyişikliyin zorla tətbiq edilməsi pislənilib, müstəqillik uğrunda ədalətli mübarizəsində kanak xalqına tam dəstək ifadə olunub.

Qeyd olunub ki, administrativ gücünə, himayəsində olan xalqların öz müqəddəratını təyinetmə hüququnu inkar edən Fransa müstəmləkəçi doktrinasına uyğun olaraq, amansızlığın nəticəsi kanakların bu gün alov içində olmasıdır.

Kanaki - Yeni Kaledoniyanın müstəqilliyə qovuşması beynəlxalq sənədlərə, xüsusən BMT-nin xalqların öz müqəddəratını təyinetmə hüququ ilə bağlı 1514 saylı qətnaməsinə uyğun bir öhdəlikdir. Buna görə kanak xalqının və onun tərəfdarlarının bütün mövcud etirazları legitimdir.

Bəyanatda Fransaya müstəmləkə siyasətini dayandırmağa və kanak xalqına öz taleyini sərbəst həll etməyə, beynəlxalq ictimaiyyətə isə kanak xalqının azlığa çevrilməsinə aparan bu iyrənc müstəmləkəçilik təcrübəsinə göz yummamağa çağırış edilib: "BMT üzv dövlətlərini BMT Təhlükəsizlik Şurası vasitəsilə həyəcan təbili çalmağa, habelə bu ali qurumun toplaşaraq Fransa tərəfindən beynəlxalq hüququn pozulmasını pisləməsinə çağırış edirik!"

### Müstəmləkə zülmünə göz yumulmamalıdır

Fransa Yeni Kaledoniyada baş verənlərə görə Azərbaycanın ünvanına absurd iddialar səsləndirir, ölkəmizi iğtişaşlara "müdaxilə etməkdə" ittiham edir.

Bütün bunlar isə sözün əsl mənasında Fransanın həyasızlığını göstərir. Əsarətində saxladığı ölkələri çapıb talayan, insanları ilə qul kimi davranan, onların hüquqlarını ayaqlar altına atan, azadlıq səsini ucaldanları gözünü qırpmadan öldürən bu əliqanlı ölkə öz eybəcər simasını görməzdən gələrək Azərbaycana şər və böhtanlar atır, diqqətləri hadisələrin əsl mahiyyətindən yayındırmaq, dünya ictimaiyyətini çaşdırmaq üçün manipulyasiyalar edir. Yəni Paris utancverici, insanlığa yaraşmayan hərəkətlərinə çəki-düzən vermək əvəzinə Azərbaycanın timsalında onun çirkin simasını açıb göstərən güzgüyə daş atır.

Onu da vurğulamaq yerinə düşər ki, ölkəmizi könüllü şəkildə tərk edən təxminən 20 min erməniyə görə özünü həlak edən, Azərbaycana qarşı təzyiq, qarayaxma kampaniyasına başlayan Fransanın indi kanak xalqının müstəqillik istəyini top-tüfənglə qarşılaması da elə Yelisey sarayının ikiüzlülüyünü, hadisələrə öz işinə yarayan formada yanaşdığını təsdiqləyir.

Göründüyü kimi, Makron hakimiyyəti kolonializm siyasətini davam etdirməkdə israrlıdır və buna görə də Yeni Kaledoniyada xalqın öz müqəddəratını, taleyini sərbəst həll etmək hüququnu heçə sayır və kanakları azlığa çevirmək üçün iyrənc siyasət yürüdür, dinc etirazların yatırılmasında gücdən istifadə edir, nümayişçilərə zor tətbiq edir, onları əzir və öldürür.

Beynəlxalq cəzasızlıq mühitindən yararlanan Fransanın müstəmləkə zülmünə göz yumulmamalı və buna "Dur!" deyilməlidir. Kanak xalqının haqlı mübarizəsinə Azərbaycanla, Bakı Təşəbbüs Qrupu ilə yanaşı, digər ölkələr və beynəlxalq təşkilatlar da dəstək verməlidirlər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Qərbin Cənubi Qafqaz marağı bölgəni fəlakətə sürükləməyə xidmət edir

**Dünyada sürətlə hərbi-siyasi qütbləşmə gedir. Müstəqil siyasət yürütmək iqtidarında olmayan, yaxud indiyə kimi movqeyini konkretləşdirə bilməyən, "sürüşkən siyasət" yürüdən dövlətlər dünyanı yenidən bölmək istəyən güclərin məkrli niyyətlərinin poliqonuna çevriliblər.**



Qərb-Rusiya qarşıdurması Ukraynanı hansı vəziyyətə gətirdiyini təsvir etməyə ehtiyac yoxdur. Hər gün sürətlə xarabalıqlara dönən Ukrayna şəhər və kəndləri, yaşamaq üçün başını götürüb dünyanın müxtəlif ölkələrinə səpələnən insanların vəziyyəti münaqişə edən tərəflərin siyasi portretini yaradır. Ukrayna cəbhəsində istədiyinə nail ola bilməyən Qərb Rusiyanı "sıxışdırmaq" üçün cəbhəni daha da genişləndirmək məqsədi ilə yeni qurbanlıqlar "axtarır". İrəvanda din adı altında keşiş Baqratın antihökumət aksiyası, Tbilisidə müxalifətin "Xarici təsirlərin şəffaflığı haqqında" qanuna etirazlarının başlanması bunu bir daha təsdiq edir.

Gürcüstanda gərginliyin artmasına səbəb olan qanun layihəsi hələ ötən il gündəmə gətirilmişdi. Müxalifətin və gürcü xalqının sərt dirənişi nəticəsində ölkə iqtidarı bu təklifi geri çəkmək məcburiyyətində qalmışdı.

Bu il isə mayın 14-də Gürcüstan parlamenti 84 səs lehinə, 30 səs əleyhinə olmaqla "Xarici təsirlərin şəffaflığı haqqında" qanun layihəsini üçüncü oxunuşda qəbul edib. Ölkə qanunlarına əsasən, sözügedən qanunu Prezident Salome Zurabişvili imzaladıqdan sonra qüvvəyə minəcək. Qərbyönlü sayılan Prezident ona veto qoyacağını əvvəlcədən bildirib. Zurabişvilinin səlahiyyət müddəti isə bu ilin noyabrında başa çatır.

Muxalifətin bu qanunun qəbuluna verdiyi sərt təpki maraq doğurur. Etirazçılar hesab edirlər ki, Moskvadan asılı olan hazırkı hakimiyyət qərbyönlü qüvvələrin, habelə demokratik dəyərlərin sıxışdırılması məqsədi ilə Kremlin tapşırığına əsasən mübahisə yaradan qanunu qəbul edib. Hakimiyyətin isə arqumenti belədir: ABŞ, İsrail, Avstraliya xarici ölkələrdən maliyyələşmədə şəffaflıq haqqında qanun qəbul edib. Avropa İttifaqı və Fransada belə bir qanun artıq müzakirə mərhələsindədir. Buna rəğmən, Birləşmiş Ştatlar, BMT, NATO, Avropa İttifaqı və Avropa Şurası rəsmi Tbilisini bu qanun layihəsini qəbul etməkdən çəkinməyə çağırıb.

İstər-istəməz belə bir sual yaranır ki, ABŞ-də, İsraildə, Avstraliyada qəbul edilən qanunları "demokratik" dəyərlərə verilən töhfə kimi qiymətləndirən beynəlxalq təşkilatlar, özlərini dünyanın ağası hesab edən böyük dövlətlər nədən Gürcüstan hakimiyyətini belə bir addım atmamağa çağırır?

Hətta ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayn bildirib ki, uyğun qanun qəbul ediləcəyi halda Gürcüstan üçün 390 milyon dollar məbləğində maliyyə yardımının verilməsinə yenidən baxılacaq. Ceyms O'Brayn xəbərdarlıq edib ki, "Qanun indiki halda qalarsa, Avropa İttifaqı standartlarına uyğun olmasa, biz demokratiyanın zəifləməsinin, aşınmasının və dinc nümayişçilərə qarşı zorakılığın şahidi olacağıq. Təbii ki, bu vəziyyətdə ABŞ müəyyən məhdudiyyətlər tətbiq edəcək". Şübhəsiz ki, Qərb, ABŞ istədiyinə nail ola bilmədikdə Gürcüstanda hakimiyyətdə olan bəzi siyasi fiqurlara sanksiya da tətbiq edəcək.

Bu bir faktdır ki, hazırda Gürcüstanda etirazçıların təşkilatçıları Qərbdən və ABŞ-dən güclü maliyyə dəstəyi alan donorlardır. Bəzi fondların, beynəlxalq təşkilatların "demokratiyaya dəstək" adı ilə siyasi partiyaları, vətəndaş cəmiyyəti üzvlərini maliyyə "yardımları" ilə ələ almaları və onların vasitəsi ilə hakimiyyət çevrilişi planlarını gerçəkləşdirməyə çalışmaları haqqında xəbərlər artıq heç kimdə təəccüb doğurmur. Dünyada baş verən rəngli inqilabların haradan və necə maliyyələşdiyini artıq bilməyən yoxdur. Xaricdən maliyyə dəstəyi alıb hakimiyyətə gələn "demokratların" mənsub olduqları dövlətə və xalqlara gətirdikləri bəlaları isə şərh etməyə heç ehtiyac da yoxdur. Necə deyərlər, "görünən kəndə bələdçi lazım deyil". Hər şey göz qabağındadır.

Ölkəmizin kənar dağıdıcı təsirlərdən etibarlı qorunmasının əsas səbəbi vaxtında düzgün qərarlar qəbul etməsi, müstəqil siyasət yürütməsidir. Şübhəsiz ki, ölkəmizdə 2014-cü ildə qanunlara dəyişikliklər edilib, xaricdən maliyyələşmə nəzarətə götürülməsəydi, bu gün xaricdən pul alan "Abzas media", "Toplum TV", Anar Məmmədli kimilərin sayı Gürcüstanda vətəndaşları qarşıdurmaya səsləyənlərdən geri qalmayacaqdı. İnsanlara sadəcə olaraq pul verilmir. Bu gün xaricdən maliyyə vəsaiti alanlar sabah haqlarını ödəmək üçün onların sifarişini yerinə yetirməyə məcburdurlar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

**2016-cı il mayın 17-də "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) təməli qoyulub. TAP Avropaya yeni mənbədən və yeni marşrutla qaz axınını təmin edir. Kəmərin çəkilişi bir neçə il davam edib və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşüb.**




## Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını

### TAP-ın təməlinin qoyulmasından 8 il keçir

3500 kilometrlik bu dəhliz Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

TAP-ın təməli Yunanıstanın Saloniki şəhərində qoyulub. Təməlqoyma mərasimində Azərbaycanın, Yunanıstanın, ABŞ-nin, Albaniyanın, İtaliyanın, Türkiyənin, Gürcüstanın, Bolqarıstanın yüksəkvəzifəli şəxsləri, Avropa Komissiyasının və konsorsiuma daxil olan şirkətlərin səlahiyyətli nümayəndələri iştirak ediblər.

TAP uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Kəmərin 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

Prezident İlham Əliyevin dediyi kimi: "XXI əsrin boru kəməri - "Cənub qaz dəhlizi"nin 2020-ci ilin sonuncu günündə uğurla tamamlanması ümumi iradəmizi, komanda daxilində işləmək və böyük uğurları qazanmaq bacarığımızı nümayiş etdirir. Bir çox ölkələri keçən, dənizin dibindən tutmuş uca dağ zirvələrinə qədər gedən 3500 kilometrlik vahid boru kəmərləri sistemi qüdrətimizin və dostluğumuzun təzahürüdür. Buna görə Azərbaycanın ilkin mərhələdə başlatdığı enerji layihələri regional əməkdaşlıq üçün çərçivə yaratdı və onlar hazırda qlobal enerji layihələrinə çevrilib".

2020-ci ilin son günündən başlayaraq TAP ahəngdar və təhlükəsiz şəkildə işləyir. Kəmərin daşıdığı Azərbaycan qazının ixrac coğrafiyası genişlənir. Bu gün ölkəmizdən Gürcüstan və Türkiyədən başqa, Yunanıstan, Bolqarıstan, İtaliya, Rumıniya, Serbiya və Macarıstan mavi yanacaq idxal edir. Gürcüstana qaz CQBK ilə 2006-cı ildən çatdırılır. Türkiyə Azərbaycan qazını BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə 2007-ci və TANAP-la 2018-ci ildən alır. Avropaya isə ölkəmizdən qaz nəqli qeyd edildiyi kimi, 2020-ci il dekabrın 31-də TAP-ın işə düşməsi ilə başlayıb.

Yeri gəlmişkən, qeyd edək ki, bu ilin ilk üç ayı ərzində xaricə qaz satışı 6,4 milyard kubmetr təşkil edib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən eynidir. Avropaya 3,2 milyard kubmetr, Türkiyəyə 2,3 milyard kubmetr, Gürcüstana isə 0,9 milyard kubmetr qaz satılıb. Bu müddətdə Türkiyəyə TANAP-la 1,3 milyard kubmetr qaz nəql olunub.

Yeni çağırışlar qarşısında Azərbaycan qazına tələbat artır. 2022-ci il oktyabın 1-də Bolqarıstanın paytaxtı Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) istifadəyə verilməsi də bu tələbatdan irəli gəlir. Ümumi uzunluğu 182 kilometr olan IGB Bolqarıstanın və Yunanıstanın qaz nəqli şəbəkələrini birləşdirir. Kəmər Azərbaycan təbii qazını Bolqarıstana çatdırır. Bu məqsədlə Bolqarıstanın "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Boru xəttinin illik ötürmə gücü 3 milyard kubmetr təşkil edir. Gələcəkdə həmin göstərici ildə 5 milyard kubmetrədək artırıla bilər. Beləliklə, Azərbaycan təbii qazı Bolqarıstanın mavi yanacağa tələbatının xeyli hissəsini ödəyəcək.

Keçən il dekabrın 10-da isə Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektoru fəaliyyətə başladı. Bu layihələrin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla diversifikasiyasının göstəricisi kimi dəyərləndirilir. Bunların ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyət daşıdığı şəksizdir.

Keçən ilin aprel ayında Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı anlaşma memorandumunun imzalanmasını xatırlatmaq da yerinə düşər. Bu sənəd Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükünün "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcəyi nəzərdə tutulur.

Qeyd edək ki, TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

8 il əvvəl təməli qoyulan TAP-ın işə düşməsi və artıq ahəngdar fəaliyyət göstərməsi ölkəmiz üçün mühüm tarixi hadisədir. Regionun və Avropanın enerji təhlükəsizliyində önəmli əhəmiyyətə malik "Cənub qaz dəhlizi"nin sonuncu hssəsinin yekunlaşması həm də Azərbaycan qazını gözləyən bütün ölkələr, layihədə tərəfdaşlıq edən şirkətlər üçün böyük hadisə kimi dəyərləndirilir.

Dəhlizin genişləndirilməsi, ixracın şaxələndirilməsi isə zamanın çağırışıdır. Prezident İlham Əliyev bu barədə belə demişdir: "Enerji keçidində "Cənub qaz dəhlizi" layihəsinin strateji önəminin daha da artmasını nəzərə alaraq, TANAP və TAP layihələrinin genişləndirilməsi Azərbaycan üçün artıq aktual mövzuya çevrilmişdir. "Cənub qaz dəhlizi"nin 2027-ci ilədək genişləndirilməsi və enerji resurslarının nəqli ilə bağlı digər perspektivlər şaxələndirilmiş enerji təchizatında və tərəfdaşlarımızın enerji təhlükəsizliyində ölkəmizin strateji rolunun daha da güclənməsinə xidmət edəcəkdir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Son 4 ayda pensiya ödənişlərinə 2,1 milyard manatdan çox vəsait yönəldilib

**Cari ilin yanvar-aprel aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 14 faiz (263 milyon manat) çox olmaqla 2 milyard 152 milyon manat vəsait yönəldilib.**

Pensiya artımı istiqamətində növbəti addım kimi 2024-cü il yanvarın 1-dən bütün pensiyalar ötən il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq 11,2 faiz indeksləşdirilməklə artırılıb.

Son 4 ayda 15 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 117 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada aparılıb.

## Dövlət Vergi Xidmətinə edilən şikayətlərin sayı azalıb

**Cari ilin aprel ayı ərzində ümumilikdə vergi orqanlarına 42 min 441 müraciət daxil olub ki, bunun da 97,1 faizi ərizə, 2,8 faizi şikayət, 0,1 faizi təklif olub.**

Dövlət Vergi Xidmətinin məlumatına görə, daxil olmuş müraciətlərdən 46,9 faizinə baxılması həmin hesabat ayı ərzində başa çatdırılıb, 53,1 faizi isə hazırda icradadır. Baxılmış müraciətlərdən 79,2 faizi həll olunub, 19-u barədə müvafiq izahat verilib, digərləri barədə qanuna müvafiq qərarlar qəbul edilib.

Ay ərzində daxil olmuş şikayətlərin faktiki sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 31,1 faiz azalaraq 807 olub. Həll edilmiş 134 faktiki şikayətin böyük əksəriyyəti (62 faiz) kameral vergi yoxlaması, 12 faizi şəxsi hesab vərəqələri, 9,7 faizi sosial sığorta ödənişləri, digərləri vergi borcu, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının qaytarılması və əvəzləndirilməsi, vergi mükəlləfiyyətləri (növləri), vergiödəyicisinin qeydiyyatı və digər məsələlərlə bağlı olub.

Hesabat dövründə Dövlət Vergi Xidmətinin aparatında müvafiq vəzifəli şəxslər tərəfindən ümumilikdə 66, o cümlədən şəhid ailəsi və müharibə iştirakçısı olan 5 vətəndaşın qəbulu təşkil edilib.

Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həll olunması üçün lazımi tədbirlər görülüb, həlli imkan xaricində olan məsələlərlə bağlı qanuna müvafiq izahatlar verilib.

## Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan məhsullarının dequstasiyası keçiriləcək

**Moskvada Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində (XTNS) yerləşən "Azərbaycan" pavilyonu ölkəmizin məhsullarının dequstasiyasını keçirəcək.**

Mayın 18-də "Rusiya" beynəlxalq sərgi-forumu çərçivəsində XTNS-dəki "Azərbaycan" pavilyonu Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə birgə Azərbaycanda istehsal olunan məhsulların dequstasiyasını növbəti dəfə təşkil edir.

Pavilyonun ticarət evində ən yaxşı quru meyvə və şirniyyat istehsalçılarının məhsullarının nümunələri təqdim olunacaq. Qonaqlar ənənəvi Azərbaycan çayının, mövsümi meyvələrdən hazırlanan kompotların dadına baxacaq, eləcə də Azərbaycanın Şamaxı rayonunun qərb hissəsində yerləşən məşhur üzümlüklərdən orqanik şərabı dequstasiya edəcəklər.

Belə aksiyalar pavilyonda dəfələrlə keçirilib. Onlar moskvalılarda və Rusiya paytaxtının qonaqlarında böyük marağa səbəb olub.

## Sosial Xidmətlər Agentliyi yarandığı vaxtdan müəssisələrində 10 min şəxsə xidmət göstərib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi yarandığı vaxtdan qurumun müəssisələrində 10 min şəxsə reabilitasiyayönümlü sosial xidmətlər göstərib.**



4 il əvvəl fəaliyyətə başlayan agentliyin bütün ölkəni əhatə edən 13 müəssisəsi fəaliyyət göstərir. Onların sırasına 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün 2 sosial xidmət müəssisəsi, 4 psixonevroloji sosial xidmət müəssisəsi, Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi, Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiyası Mərkəzi, Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsi və s. daxildir.

Həmin müəssisələrə qəbul edilən şəxslərə fərdi plan əsasında sosial-psixoloji, tibbi-sosial, sosial-məsləhət yardımı, sosial-məişət və digər sosial reabilitasiya xidmətləri göstərilir.

## "GreenAgroHack" hakaton yarışmasının açması...

### Beynəlxalq Kənd Təsərrüfatı sərgisində texnoloji məsələnin həlli üçün verilən 29 saat 29 dəqiqə 29 saniyəlik vaxt

**Regionun ən çox ziyarət olunan məkanlarından biri "Bakı Ekspo Mərkəzi"ndə təşkil olunan beynəlxalq kənd təsərrüfatı sərgisidir. Hər il keçirilən bu tədbirin məqsədi regionda kənd təsərrüfatının davamlı inkişafına, aqrosənaye kompleksində mütərəqqi texnologiyaların texniki tətbiqinə, qabaqcıl təcrübə mübadiləsinə, eləcə də yerli və xarici fermerlər arasında qarşılıqlı və faydalı işgüzar əlaqələrin möhkəmləndirilməsinə kömək etməkdir.**

Sərgi iştirakçıları aralarında idxalçılar, ixracatçılar, distribyutorlar, fermerlər, habelə topdan və pərakəndə satış müəssisələrinin nümayəndələri olan təşkilatçılar və ziyarətçilərlə görüşmək üçün imkan qazanırlar. Aqrar sektorun və sənaye liderlərinin başlıca görüş yeri statusunu daşıyan bu sərgilər "Bakı Ekspo Mərkəzi"nin bütün mümkün və açıq pavilyonlarını əhatə edir. Xəbər verildiyi kimi, bu qəbildən olan növbəti sərgi - 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" Sərgisi mayın 15-də "Bakı Ekspo Mərkəzi"ndə öz işinə başlayıb. Ötən illərdə olduğu kimi, bu il də sərgidə rekord sayda milli və regional stendlər nümayiş olunur. Qeyd edək ki, "Caspian Agro" ilə paralel olaraq "Bakı Ekspo Mərkəzi"ndə 29-cu Azərbaycan Beynəlxalq Qida Sənayesi "InterFood Azerbaijan" Sərgisinin də açılışı olub.

Sərgilərin təntənəli açılış mərasimində kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenko, Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Özbəkistan Respublikası kənd təsərrüfatı nazirinin müavini Əlişir Şükürov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı nümayəndəsi Məhəmməd Nasar Hayyat, "ICA Group"un baş icraçı direktoru Edvard Stroon, "Caspian Event Organisers" şirkətinin baş direktoru Fərid Məmmədov iştirak ediblər. Qeyd edək ki, xarici iştirakçılar arasında Belarus, Belçika, Almaniya, Gürcüstan, İsrail, İtaliya, Çin, Latviya, Hollandiya, Rusiya Federasiyası, Serbiya, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Çexiya, Estoniya və Cənubi Koreya şirkətləri var. Türkmənistan və Venesuela nümayəndələri tədbirə ilk dəfə qatılıblar.

Son illər regionlarda müasir kənd təsərrüfatı subyektlərinin yaradılması aqrar sektorun yeni yanaşmalar əsasında inkişafına təkan verir ki, bu da iri fermer təsərrüfatlarının dayanıqlı olmasını həyata keçirir. Bu uğurun arxasında dövlətin aqrar sektorun inkişafına böyük diqqət ayırması dayanır. Müasir texnika və texnologiyalar, innovativ yanaşmalar kənd təsərrüfatının prioritetlərtindən olsa da, ekoloji komponent, iqlim dəyişikliyi məsələləri, ekologiyanın aqrar sahəyə təsiri problem olaraq diqqət çəkir. Sərginin açılışında çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov bu məsələyə toxunaraq deyib ki, sərgiyə gələn fermerlərə geniş çeşiddə məhsul və xidmətlər - müasir texnika, suvarma sistemləri, texnoloji həllər, fermerlərə göstərilən xidmətin effektiv forması təqdim olunub.

"Caspian Agro"nun əsas bölmələrinə kənd təsərrüfatı texnikası, kənd təsərrüfatı obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, istixana, yemlər, baytarlıq, bitkiçilik, gübrə, meyvə və tərəvəzlərin yetişdirilməsi daxildir. Təşkilatçılar hər il ən son sənaye yenilikləri və beynəlxalq təcrübə ilə tanış olan fermerlər üçün sərgiyə ekskursiyalar təşkil edirlər. Öyrəndik ki, bu il "Caspian Agro"ya Azərbaycanın 42 rayonundan 500-dən çox fermer səfər edib. Sərginin miqyasına gəlincə deyə bilərik ki, bu, dövlətin aqrar və ərzaq sektorunun inkişafına göstərdiyi diqqətin təzahürüdür. Kənd təsərrüfatı və qida məhsullarının təhlükəsizliyi, bitki və heyvanların sağlamlığı iqtisadiyyatın bu sahələrinin inkişafında mühüm amillərdən biridir. Həm ziyarətçilər, həm də sahibkarlar üçün faydalı olan bu sərgidə Azərbaycan öz uğurlarını



əyani şəkildə nümayiş etdirir. 10-dan çox sahibkar böyük stendlərdə müxtəlif məhsul təqdim edir və sərgi marketinqi həmin malların, eləcə də xidmətlərin təbliğinə kömək edir.

Sərginin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirildiyi və "Yaşıl dünya naminə həmrəylik ili"ndə araya-ərsəyə gəlməsi tələb edir ki, tədbirdə iqlim dəyişikliyi ilə bağlı təklif və təşəbbüslər irəli sürülsün. Bu amil nəzərə alınaraq ətraf mühitə zərərli təsirlərin ixtisar olunması istiqamətində səmərəli yolların axtarışı baxımından kənd təsərrüfatının dayanıqlı intensivləşdirilməsi və iqlim dəyişikliyi (Sustainable Agriculture and Climate Change) konsepsiyası özəlliklə vurğulanıb. Adıçəkilən konsepsiya aqrar sahədə məhsul istehsalının artırılması və eyni vaxtda ekologiyanın qorunması arasında tarazlığın yaradılmasına yönəldilib. Kənd təsərrüfatının dayanıqlı intensivləşdirilməsi və iqlim dəyişikliyi konsepsiyası sərginin loqosunda da öz əksini tapıb.

Builki sərgidə ilk dəfə Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində "GreenAgroHack" hakaton yarışması keçirilib. Məlumat üçün bildirək ki, "GreenAgroHack" hakaton 29 saat 29 dəqiqə 29 saniyə müddətində verilmiş texniki tapşırığa uyğun olaraq, müəyyən texnoloji həllərin tapılması və hazırlanması müsabiqəsidir. Hakatonun məqsədi "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkənin qabaqcıl ali məktəblərində təhsil alan tələbələrin iştirakı ilə kənd təsərrüfatı sahəsi istiqamətində xüsusi proqram təminatlarının, "ağıllı tapşırıq"ların hazırlanması, aqrar sahədə innovasiyanın rolu və əhəmiyyətini gənclər arasında təşviq etməkdir. Müsabiqədə proqram tərtibatçıları, interfeys dizaynerləri və kompüter proqramçılarından təşkil olunan komandalar bir araya gələrək kənd təsərrüfatına aid olan innovativ nümunələrini nümayiş etdiriblər. Qalib komandalar pul mükafatı və digər qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Ənənəvi olaraq sərgi çərçivəsində ikitərəfli işgüzar görüşlər (B2B) keçirilib. Burada yerli və xarici şirkətlərin nümayəndələri üzbəüz formatda əməkdaşlıq və gələcək tərəfdaşlıq yollarını müzakirə ediblər. Üstəlik, ikitərəfli işgüzar görüşlər çərçivəsində özəl şirkətlərin nümayəndələri ilə dövlət qurumlarının təmsilçiləri arasında görüş imkanı yaranıb.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*






# Gənclik






● Qarabağ Azərbaycandır!



## Sağlam nəsil sağlam gələcək deməkdir

**Dövlət müstəqilliyi qazandığı ilk illərdə Azərbaycanın başqa sahələrlə yanaşı, idman və gənclər siyasəti də diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra idmana və gəncliyə olan münasibət kökündən dəyişdi. Ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bununla da idman sahəsində yüksəlişin, zəfərlərin bünövrəsi qoyuldu.**

Gəncliyə və idmana olan qayğı qısa müddət ərzində müsbət nəticələr verdi. Azərbaycan bir idman ölkəsi kimi beynəlxalq aləmdə böyük nüfuz qazandı. İdmançılarımız iştirak etdikləri müxtəlif yarışlarda qalib gələrək Azərbaycanın adını zirvələrə qaldırdılar, dünyanın idman arenalarında üçrəngli bayrağımızı dalğalandırdılar.

Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasını və mötəbər arenalarda bayrağımızın zirvələrdə dalğalanmasını qürur hissi ilə seyr etdikcə qazanılan bütün zəfərlərin bünövrəsində dövlətin uğurlu idman siyasətinin dayandığını hər kəs yaxşı bilir. İdmana olan belə münasibət cəmiyyətin uğurlu sabahlarına təminat yaradır. İdman həm də sülh və sabitlik deməkdir. Müxtəlif idman oyunları, olimpiadalar, yarışlar dünya dövlətləri arasında əlaqələrin, dostluğun, sülhün əsasını təşkil edən amillərdəndir.

İdman sahəsində qazandığı zəfərləri ilə dünyada şöhrət qazanmış Azərbaycanın bu istiqamətdəki uğurlu fəaliyyəti beynəlxalq idman ictimaiyyəti tərəfindən də yüksək qiymətləndirilir. Bu həm də Azərbaycanda idman sahəsindəki inkişaf proseslərinə beynəlxalq miqyasda göstərilən marağın və diqqətin təzahürüdür.

Artıq Azərbaycanda keçirilən dünya çempionatları, Avropa oyunları silsilə xarakter daşıyır. Dünyanın idman arenalarında layiqli yerini tutmuş Azərbaycanın bir çox beynəlxalq yarışa evsahibliyi etməsi ölkəmizin təkcə idman sahəsində deyil, digər sahələrdə də uğurla inkişaf etməsindən xəbər verir. Turizmin və mədəniyyətin inkişafı ilə yanaşı, iqtisadi əlaqələrin də genişlənməsinə təkan verən müxtəlif idman yarışlarının təməlində məhz Azərbaycanın iqtisadi cəhətdən hərtərəfli inkişafı dayanır.

Azərbaycan dövləti tərəfindən idmanın inkişafına göstərilən diqqət və qayğı ölkədə sağlam nəslin formalaşmasına da geniş zəmin yaradır. Daim formalaşmaqda və inkişafda olan gənc nəsil vətənimizin sağlam gələcəyi deməkdir. Gənclik və idman bir-birini tamamlayır. İdmana olan qayğı gəncliyə olan qaygıdır. Gəncliyə olan qayğı isə sabahımıza, dövlətimizin inkişafına olan qayğıdır. Çünki idman həm də sağlamlıq deməkdir. Gənclərimiz sağlamdırsa, ölkəmizin gələcəyi də parlaqdır. Bu gün gənclərimizin hərtərəfli formalaşması, ölkə həyatının müxtəlif sahələrində uğurlar qazanması, vətənpərvər ruhda böyüməsi Azərbaycan dövlətinin uğurlu gənclər siyasətinin nəticəsidir. Gənclərimiz tək idmanda, yarış meydanlarında deyil, başqa sahələrdə də fəallıqları ilə seçilirlər. Onlar idmanla bərabər, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə də mühüm nailiyyətlər qazanırlar. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir.

Ölkəmizdə idmanın inkişafı daim dövlət başçısının diqqət mərkəzindədir. Bütün regionlarda gedən uğurlu inkişaf prosesləri göz qabağındadır. Elə bir rayon və şəhərimiz yoxdur ki, orada idman kompleksi, olimpiya mərkəzi olmasın. İstər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə idmançılarımızın qələbələri, qazandıqları saysız-hesabsız medallar həm də mədəniyyətimizin təbliğinə və vətənpərvərlik ruhunun yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyev gənclərin idmana olan marağını və qazandıqları qələbələrlə ölkəmizi dünyada tanıtdıqlarını xüsusi olaraq diqqətə çatdıraraq demişdir: "İdman qələbələri cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıdır, ölkəmizi təbliğ edir". Dövlət başçısının müntəzəm olaraq qalib idmançılarla, komandalarla görüşməsi, məşqçilərə diqqət və qayğı göstərməsi onları növbəti qələbələrə ruhlandırır.

Bu gün gənclərimiz idmana böyük maraq göstərirlər. İdman təkcə yüksək nəticələrin əldə edilməsi vasitəsi deyil. İdman rəqabət funksiyası ilə yanaşı, gənclərin həyatına rəngarəng təsir göstərən sosial-mədəni hadisə kimi funksiyalarını da özündə ehtiva edir. Deməli, o, fiziki məqamlarla yanaşı, mənəvi cəhətdən də gənclərə ciddi təsir göstərir. Əsas məqsəd də gənclərin və yeniyetmələrin idmanla məşğul olmasına hərtərəfli şərait yaratmaqdır. Çünki idman cəmiyyətimizin gələcəyi olan gənclərimizin fiziki və mənəvi cəhətdən inkişaf etməsinə təkan verən olduqca önəmli bir vasitədir. İdmançı gənclərimiz daim yeni zirvələrə can atırlar, həyatda özlərini təsdiq etməyə çalışırlar. Müxtəli idman yarışlarında uğurlar qazanaraq xalqımızın başını uca edirlər. Azərbaycanın idman şöhrətini dünyaya yayırlar.

Azərbaycanın müstəqillik qazandığı illərdən bu günə kimi idmançılarımız müxtəlif yarışlarda ölkəmizin şərəfini layiqincə qoruyublar. Gənc idmançılarımızın arxada qalmış illər ərzində qazandıqları çoxsaylı medallar Azərbaycanın dünyada tanınmasını və nüfuz qazanmasını təmin edib. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu idman siyasətinin uğurlu nəticələridir. Prezident İlham Əliyevin idmana, idmançılara və bu sahədə çalışan mütəxəssislərə göstərdiyi böyük diqqət və qayğının nəticəsində Azərbaycan idmanı bundan sonra da sürətlə inkişaf edəcək və mötəbər arenalarda bayrağımız həmişə dalğalanacaq. Azərbaycan gəncləri idmanda qazandıqları qələbələri ilə daim xalqımızı sevindirəcəklər.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● İstedadlar

## Arzusu qalib ölkənin zabiti obrazını yaratmaqdır




**2020-ci ildə 26 İyun - Silahlı Qüvvələr Günü münasibətilə "Polkovnikin əmanəti" filmi çəkiləndə Muradın vur-tut 12 yaşı vardı. Burada ona balaca bir rol - polkovnikin uşaqlığını oynamaq tapşırılmışdı.**

Amma fitri istedadı, az-çox səhnə mizanına bələdliyi, kamera qarşısındakı hər cür həyəcandan uzaq sərbəstliyi, hərəkətlərindəki təbiilik bu kiçik epizodla da çəkiliş qrupunun diqqətini, tamaşaçıların sevgisini qazanması üçün bəs elədi. Necə deyərlər, kinosevərlər onun simasında gələcəyin aktyorunu gördülər.

Amma bir danılmaz həqiqət var ki, - bunu biz də, təcrübəli sənət adamları da, Murad da öz həyatımızda xırda təfərrüatına qədər yaşamışıq, - həmin film seyrçilərin ixtiyarına veriləndə torpaqlarımız hələ işğal altında idi. Doğrudur, qələbəyə gedən yolun təməli atılmışdı, Cocuq Mərcanlı, Lələtəpə uğurları xalqın, Vətənin igid övladlarının döyüş ruhunu xeyli coşdurmuşdu, amma ərazi bütövlüyümüzün və suverenliyimizin təmini ilə nəticələnən möhtəşəm Zəfərə hələ bir az qalırdı. Ona görə də əsl qalibiyyətin sevinci ədəbiyyata, incəsənətə bütöv şəkildə gəlib çıxmamışdı. Elə "Polkovnikin əmanəti" (ssenari müəllifləri Afaq Əhmədova, Aynurə Bədəlova, rejissor Elnur Məmmədov, baş rollarda Elnar Qarayev, Kamran Yunis) də müharibələrin insanların taleyinə təsirindən söhbət açır, işğalla barışmazlıq, düşməni "dəmir yumruq"la əzmək, tarixi torpaqlarımıza qayıdış ideyalarını təbliğ edirdi. Ekran əsərində Azərbaycan hərbçilərinin vətənpərvərliyi, döyüş əzmi, qələbə arzusu obrazlı şəkildə əks olunurdu.

Bu filmin çəkilişindən 3-4 ay sonra Müzəffər Ali Baş Komandanın müdrik və qətiyyətli siyasəti, Azərbaycan Ordusunun igidliyi, rəhbər-xalq birliyi sayəsində müqəddəs Vətənimizin işğalda olan əraziləri tam azadlığına qovuşdu. Bu tarixi nailiyyətlərdə Məmmədlilər ailəsinin də öz real payı var. Ailənin böyük oğlu, balaca aktyorun qardaşı Özkan ilk gündən haqq savaşımıza qatılaraq Ağdam, Füzuli, Cəbrayıl, Xocavənd cəbhələrində şücaət göstərdi, medallarla təltif olundu.

Artıq Muradın 16 yaşı var, müxtəlif süjetlərə çəkilir, dövlət tədbirlərində, festivallarda, intellektual yarışlarda çıxış edir. Ən başlıcası, Xətai rayon Mübariz Nəcəfov adına 86 saylı məktəbin $10^b$ sinif şagirdi, dərs əlaçısıdır.

O həm də gələcək peşə yönümünü, hansı ixtisas üzrə ali təhsil alacağını müəyyənləşdirdiyindən orta məktəblə yanaşı, 2 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzində - rejissor Şahanə Abbaslının "Aktyor sənəti" dərnəyində yaradıcılıq kursu keçir. Müxtəlif yaradıcılıq müsabiqələrinin iştirakçısı və qalibidir. "Məclisi-üns", "Könlüm keçir Qarabağdan", "Ulu Öndər-100", "Salam, Şuşa!", "Qış nağılı" və digər tədbirlərə qatılaraq, peşəkar sənətçilərlə səhnəni bölüşür. İnşallah, gələn il sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə verərək Kino aktyorluğu fakültəsinin tələbəsi olmaq niyyətindədir.

Məmmədli Murad Ağarəzi oğlunun ən böyük arzularından biri də səhnədə, ekranda artıq qalib bir ölkənin, xalqın övladı - zabiti, əsgəri obrazını yaratmaq, Azərbaycan kinematoqrafiyasını yeni zəfər ruhlu rollarla zənginləşdirməkdir.

***Qurban MƏMMƏDOV***

## Gənc bəstəkarların yaradıcılığı diqqət mərkəzindədir



**"Azərbaycan Bəstəkarlar İttifaqı - 90" silsiləsindən Bəstəkarlar İttifaqının Ü.Haclbəyli adına konsert salonunda Gənc bəstəkarların yaradıcılığına həsr olunmuş plenumun açılış mərasimi keçirilib.**

Bəstəkarlar İttifaqından bildirilib ki, plenumun ilk günü gənc bəstəkarların kamera musiqisindən ibarət əsərlərinə həsr olunub.

Açılış mərasimində çıxış edən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor Firəngiz Əlizadə 2007-ci ildən etibarən gənc bəstəkarların yaradıcılığına həsr olunmuş doqquz plenumun keçirildiyini qeyd edib. Bununla yanaşı, Bəstəkarlar İttifaqında gənc bəstəkarların yaradıcılığına dair tədbirlərin, onların əsərlərindən ibarət konsertlərin təşkili, ittifaqın digər tədbirlərində fəal iştirakı, görkəmli sənətkarların yubileylərinin keçirilməsi və bu kimi məsələlərdən söhbət açıb. Firəngiz Əlizadə onu da vurğulayıb ki, gənc bəstəkarların təqaüdlərlə təmin olunması, Gənclər Günü ilə əlaqədar olaraq mükafatların verilməsi və bu işdə Bəstəkarlar İttifaqının gənclərə göstərdiyi qayğı və diqqət onların yaradıcılığının inkişafı üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri plenumun iştirakçılarının fəal olmasını tövsiyə edib. Sonra plenumun proqramına uyğun olaraq gənc bəstəkarların əsərləri ifa olunub.

## Dünya Gənc Türk Yazarlar Birliyinin yubileyi qeyd olunub

**Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) 25 illik yubileyi Ankarada TÜRKSOY-un baş ofisində qeyd olunub.**

Birlikdən verilən məlumata görə, TÜRKSOY-un Baş katibi Sultan Rayev DGTYB-nin fəaliyyətini yüksək qiymətləndirib. O, Dünya Gənc Türk Yazarlar Birliyinin mərkəzi ofisinin qardaş ölkə Azərbaycanda yerləşməsinə baxmayaraq, mənəvi mərkəzinin Ankara olduğunu bildirib. Sultan Raev birliyin qurulduğu gündən bu yana 50-dən çox əsərin işıq üzü görməsinə vəsilə olmasını, ədəbi-mədəni layihələrdə və önəmli tədbirlərdə aktiv iştirakını təqdirəlayiq hal kimi dəyərləndirib.

DGTYB-nin qurucu-başqanı, Azərbaycan Respublikasının Milli Məclisinin Mədəniyyət komitəsinin eksperti Əkbər Qoşalı göstərmiş olduğu qonaqpərvərlik üçün TÜRKSOY-a və Sultan Rayevə təşəkkür edərək, türk dünyasına 25 il müddətində xidmət etmiş DGTYB-nin bundan sonra da geniş fəaliyyətinə davam edəcəyinə əminliyini ifadə edib.

● Milli dəyərlərimiz

## Vətənpərvərlik tərbiyəsi ailədən başlayıb məktəbdə formalaşır

**Gənclərin vətənpərvərlik ruhunda böyüməsinin mühüm istiqamətlərindən birini təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Təhsilin bütün pillələrində, xüsusən də ümumtəhsil məktəblərində bu tərbiyə işinin həyata keçirilməsi üçün imkanlar olduqca genişdir.**

Təhsil ocaqlarında tədris olunan humanitar fənlər, xüsusən də ədəbiyyat, tarix, o cümlədən hərbi hazırlıq fənlərinin tədrisi şagirdləri müvafiq biliklərlə təmin etməklə yanaşı, onların milli mənlik şüurunun formalaşmasına, vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük təsir göstərir.

Vətən torpağı müqəddəsdir. Çünki o, dəyişmir, satılmır, köhnəlmir, əbədi və əzəlidir. Babalarımızın bizə yadigar qoyduqları Vətənimizin səmasında əcdadlarımızın ruhu dolaşır. Azərbaycan bizə ulu babalarımızın əmanətidir. Əmanət olan Vətəni qorumaq isə hər bir vətəndaşın borcudur. Vətəni qorumaq üçün onu ürəkdən sevmək lazımdır. Vətənpərvərliyin dərin kökləri var. Vətənpərvərlik insan qəlbində özünə yer etmiş ən müqəddəs və ən ülvi hissdir. Hər bir insanın qiyməti onun vətənə, millətə xidməti ilə, ləyaqəti və vətənpərvərlik hissi ilə ölçülür. Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından gəlir. Vətənpərvərlik tərbiyəsi ailədən başlayıb, bağçada, məktəbdə formalaşır. Bu həm də vətəndaş tərbiyəsinin əsasını təşkil edir.



Ömrünü xalqının xoşbəxt gələcəyinə həsr etmiş, azərbaycançılıq ideologiyasını formalaşdırmış dahi şəxsiyyət Heydər Əliyev şərəfli tariximizin ən böyük vətənpərvəridir. Onun Vətənə, yurda olan sevgisi bütün gənc nəsillərə nümunədir. Ulu Öndərin "Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" kəlamı dillər əzbəridir. Bəli, biz də fəxr edirik ki, azərbaycanlıyıq. Azərbaycanlı olan hər kəs, bu vətənin hər bir övladı ölkəmizin gələcəyi üçün əlindən gələni etməlidir.

Gənclərin vətənpərvərlik ruhunda böyüməsinə və tərbiyə olunmasına böyük önəm verən Ümummilli Lider Heydər Əliyev demişdir: "Milli dəyərlərimizi, ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə, orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik!"

Azərbaycan Prezidenti İlham Əliyev ölkə gənclərinin vətənpərvərlik ruhunda böyümələrinin vacibliyini vurğulayaraq demişdir: "Mən istəyirəm ki, gənclərimiz vətənpərvər, peşəkar, bilikli, savadlı olsunlar, Vətən sevgisi ilə böyüsünlər". Dövlətimizin başçısının andiçmə mərasimində gənclərə, onların fəaliyyətinə verdiyi önəm biz müəllimlər üçün də çox böyük mənəvi stimul oldu. Prezident İlham Əliyev tərəfindən yürüdülən gənclər siyasəti və bu siyasətin tələb etdiyi mövcud reallıqlar onu deməyə əsas verir ki, dövlətimizin tərbiyə edib böyütdüyü vətənpərvər gənclik sabahkı zəfərlərimizin təminatçısıdır. Biz yaxın gələcəkdə gənclərimizin qazanacağı yeni zəfərlərin şahidi olacağıq.

Sabahın əsgərləri olacaq məktəblilər şəhidlərimiz haqqında məlumatlı olmalı, milli qəhrəmanlarımızı tanımalıdırlar. Buna görə də biz müntəzəm olaraq müharibə veteranları ilə şagirdlərin görüşlərini təşkil edirik. Onları hərbi hissə və birləşmələrə, muzeylərə, Bayraq meydanına aparır, tariximiz haqqında məlumat veririk. Məktəblilərimiz bunları dərindən öyrənməsələr, gələcəkdə tariximizi yaxşı bilməyəcəklər. Onların vətənpərvər ruhda böyümələri üçün savadlı, bilikli olmaları da çox vacibdir. Bu işdə müəllimlərin üzərinə böyük vəzifələr düşür.

Müntəzəm olaraq məktəblilərə ölkəmizin müdafiə qüdrəti, onun qanunları, respublikanın Silahlı Qüvvələri barədə geniş məlumat veririk. Şagirdlərimiz hərbi vətənpərvərlik mövzusunda keçirilən dərslərdə çox fəal iştirak edirlər. Silahları, texnikaları böyük həvəslə öyrənirlər. Onlara vaxtaşırı düşmən işğalından azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərindən, şanlı ordumuzun qüdrətindən, qaçqın və məcburi köçkünlərimizin geri dönüşündən ətraflı danışırıq. Gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə edib ölkənin müdafiəsinə hazırlamağı özümüzə ən müqəddəs borc bilirik.

Sabahımızın əsgərləri olacaq məktəblilər Birinci və İkinci Qarabağ müharibəsinin, həmçinin Aprel döyüşlərinin qəhrəmanları ilə maraqlanırlar. Onları özlərinə örnək və iftixar mənbəyi bilirlər. Xalqımızın keçdiyi qəhrəmanlıq tarixini öyrənmək üçün daim axtarışlar aparırlar. Bütün bunlar şagirdlərimizin doğma yurdumuza olan məhəbbətini daha da artırır, onları vətənin müdafiəsinə səsləyir. Vətənpərvərlik hissləri güclü olan gənclərimiz elə indidən özlərini vətənin əsgəri hesab edirlər.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi və milli mənlik şüurunun formalaşmasında məktəbin rolu əvəzsizdir. Şagirdlər təhsil ocağında ilk dəfə qələm tutub yazı yazmağa, oxumağa başlayırlar. Yazıb oxuduqları ilk kəlmələr "Ana" və "Vətən" olur. Hər bir cəmiyyətin gələcəyi, sabahı onun böyüməkdə olan gənc nəslindən çox asılıdır. Gənc nəslə qayğı isə hər bir dövlətin siyasətinin aparıcı istiqamətlərindən biridir. Gənclərimizin layiqli vətəndaş kimi formalaşmasında müəllimlərin rolu böyükdür. Şagird müəllimə inanmalıdır. Müəllim də fərdi davranışı və intellekt səviyyəsi ilə məktəblinin etimadını qazanmalıdır. Müəllim şagirdə vətənpərvərlik sözünün yalnız çiynində silah, əynində hərbi forma cəbhədə vuruşmaq olmadığını dərindən anlatmalıdır. Əgər müəllim tədris etdiyi fənni şagirdlərə yetərincə aşılayırsa, onun milli ruhunu oyadırsa, vətənpərvərlik hissini coşdurursa, deməli, vəzifəsinin öhdəsindən kifayət qədər gəlmiş olur.

Vətən, torpaq dedikdə ağlımıza ilk olaraq ərazi bütövlüyümüz uğrunda canından keçmiş igid oğullarımız, şəhidlərimiz gəlir. Əbəs yerə deyilməyib ki, "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir". Bu oğulların cəsarəti və hünəri sayəsində uzun illərdir həsrətini çəkdiyimiz torpaqlarımıza qovuşduq. Sinəsini düşmən gülləsinə sipər edən neçə-neçə Vətənə sədaqətli, öz peşəsini layiqincə yerinə yetirən qeyrətli Vətən oğulları vətənpərvərliyi, cəsurluğu, mərdliyi, şücaəti ilə gələcək nəsillərə örnək oldular, necə deyərlər, tarix yazdılar. Ulularımızın yadigarı olan Vətən torpaqlarını erməni işğalından azad edərək bizlərə əmanət qoydular. Biz də gərək bu əmanəti göz bəbəyimiz kimi qoruyaq.

Vətən hər birimiz üçün müqəddəs və əzizdir. Məktəblilər kiçik yaşlarından "Vətən nə deməkdir?", "Vətənimiz haradır?", "Dilimiz, dinimiz nədir?" kimi suallara düzgün cavab axtarmağa çalışırlar. Təbiidir ki, bu suala cavab tapmaqda onlara ən yaxın köməkçi müəllimləri və oxuduqları kitablar olur. Müəllimlər də, kitablar da sabahımızın gənclərinə ilk növbədə Vətənə məhəbbət və sevgi aşılayır, onlara düzgün yol göstərir. Vətən sevgisi gənclərimizi igidliyə, qəhrəmanlığa ruhlandırır. Məktəb sabahımızın qəhrəmanlarını və layiqli vətəndaşlarını hazırlayır.

***Qasım QASIMOV,***
***Milli Qəhrəman Cavanşir Rəhimov adına 146 saylı tam orta məktəbin direktoru***

# Qlobal çağırışa "yaşıl cavab"

**Azərbaycan neft-qaz istehsalçısı olan ölkə kimi dünya birliyində layiqli yerini tutaraq regionda istər iqtisadi, istər siyasi, istərsə də hərbi cəhətdən lider kimi bir çox siyasi prosesə təsir göstərmək imkanına malikdir. Prezident İlham Əliyev enerji ehtiyatlarının siyasi proseslərə təsir imkanlarını vaxtında dəyərləndirərək ölkənin bu sahədə mövqeyini qoruyub saxlamasına xüsusi diqqət yetirmişdir. Bu diqqət ölkə daxilində alternativ, bərpaolunan enerji ehtiyatlarının yaradılmasına yönəlmiş səmərəli tədbirlərin həyata keçirilməsində öz ifadəsini tapmışdır.**



Hazırda bəşəriyyətin iqlim dəyişikliyinə qarşı mübarizəsi gündən-günə güclənir və qloballaşır. Atmosferə atılan zərərli tullantıların həcminin azaldılması və "yaşıl enerji" ilə əvəz edilməsi dünya gündəliyinin ən vacib məsələlərindən birinə çevrilib. Atom-elektrik stansiyalarının fəaliyyətinin azaldılması, eləcə də kömür və qazla işləyən elektrik stansiyalarının "yaşıl enerji" mənbələri ilə əvəz edilməsi üçün dünya ölkələri bir sıra planlar qurur. Azərbaycan da öz növbəsində bu cür qlobal çağırışlara cavab verən layihələr reallaşdırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihələrin məqsədi ölkəmizdə bərpaolunan enerji mənbələrindən istifadənin gücləndirilməsidir. Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti isə ölkəmizdə ekoloji cəhətdən təmiz enerji istehsal etməyə geniş imkan verir. Bu, istilik-elektrik stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaətlə yanaşı, ətraf mühitə atılan zərərli tullantıların miqdarının da xeyli azalması deməkdir.

Bərpaolunan enerji potensialından səmərəli istifadə edilməsi məqsədi ilə atılmış əsas addımlardan biri 2004-cü ildə "Azərbaycan Respublikasında alternativ və bərpaolunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı"nın qəbul edilməsi olub. Dövlət proqramının qəbulu bərpaolunan enerji mənbələrinin istifadəsində əsaslı dəyişikliklərin həyata keçirilməsinə və ölkəmizin bu sahədəki potensialının dəyərləndirilməsinə geniş imkanlar yaradıb.

Ümumiyyətlə, ölkəmizin iqtisadi cəhətdən əlverişli və texniki cəhətdən istifadəsi mümkün olan bərpaedilən enerji mənbələrinin potensialı 27000, o cümlədən külək enerjisi üzrə 3000, günəş enerjisi üzrə 23000, bioenerji potensialı 380, dağ çaylarının potensialı 520 MVt həcmində qiymətləndirilir. Onu da qeyd edək ki, Azərbaycanda bərpaolunan enerji mənbələrinin yaradılması və inkişafını sabitləşdirmək üçün Prezidentin 2020-ci il 22 sentyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılmış və agentliyin Əsasnaməsi təsdiq edilmişdir. Prezidentin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") isə iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə "yaşıl enerji" məkanı prinsiplərinə əsaslanan bərpaolunan enerjinin iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır.

İndi isə Azərbaycanın bərpaolunan enerji potensialından istifadə barədə. Bu sahədə 2020-ci ildən "Masdar", "ACWA Power", BP, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", "Total Energies", "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə əməkdaşlığa başlanılıb. Artıq 2023-cü ilin oktyabrında BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib və ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kVt·st elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

"Qaradağ" Günəş-Elektrik Stansiyasının açılış mərasimi çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan hökuməti və BƏƏ-nin "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə 3 investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt, Neftçalanın Bankə qəsəbəsində 315 MVt gücündə günəş, Abşeron-Qaradağ rayonunda isə 240 MVt gücündə külək-elektrik stansiyaları layihələrinin icrasını nəzərdə tutur. Nəzərdə tutulan həm də Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti ilə əməkdaşlıq çərçivəsində, 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisidir. 2022-ci ilin yanvarında Prezident İlham Əliyevin iştirakı ilə stansiyanın təməlqoyma mərasimi keçirilib. 2022-ci ildə isə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası üzrə layihənin "Ətraf Mühitə Təsirlərinin Qiymətləndirilməsi" və "Maraqlı Tərəflərlə Qarşılıqlı Əlaqə Planı" hazırlanıb təqdim edilib. Layihə Abşeron-Xızı ərazisində Pirəkəşkül və Sitalçay yaxınlığında həyata keçirilir.

"Qaradağ" Günəş-Elektrik Stansiyası ilə bağlı razılaşma sənədinin imzalanma mərasiminə dair keçirilən plenar iclasda dövlətimizin başçısı demişdir: "Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq". Qeyd olunanlar ona dəlalət edir ki, istər Xəzər dənizi, istərsə də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində mövcud olan bərpaolunan enerji potensialı ölkəmizin daxili tələbatını ödəməklə yanaşı, ixracına da imkan verəcək.

2022-ci il iyul ayının 18-də Avropa Komissiyasının prezidenti xanım Ursula fon de Lyayen ölkəmizə səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" enerji təhlükəsizliyi sahəsində ikitərəfli əməkdaşlığın vacibliyini nümayiş etdirmiş və Azərbaycanın Avropanın enerji təchizatındakı rolunu yeni mərhələyə yüksəltmişdir.

Prezident İlham Əliyev Avropa Komissiyasının prezidenti ilə birgə mətbuata bəyanatla çıxışı zamanı demişdir: "Biz külək və günəş enerjisinə artıq sərmayə qoyuluşu prosesinə başlamışıq. Potensialımızla bağlı artıq ilkin qiymətləndirməni aparmışıq. Deyə bilərəm ki, Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 qiqavata bərabərdir. Bir sözlə, bizim nəhəng resurs ehtiyatlarımız var. Bundan əlavə, əlbəttə ki, gələn illər ərzində istifadə edəcəyimiz yeni qaz yataqlarımız var. Bununla qazın hasilatını artıracağıq. Biz bərpaolunan enerjidən istifadə edərək ixrac üçün daha çox qazı təmin edəcəyik. Bu, səylərimiz sayəsində yaradılmış və Avropa İttifaqının dəstəklədiyi çox üstün vəziyyətdir".

2022-ci il dekabr ayının 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"-nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması isə ölkəmizin bərpaolunan mənbələrdən əldə etdiyi enerjinin Avropaya çatdırılmasının əsasını qoydu.

Məlum olduğu kimi, 2021-ci il mayın 3-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Sərəncamdan irəli gələn tapşırıqların icrası, həmçinin işğaldan azad olunmuş ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılması ilə əlaqədar Konsepsiyanın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi istiqamətində Energetika Nazirliyi ilə Yaponiyanın "TEPSCO" şirkəti arasında müqavilə imzalanmışdır. Müvafiq dövr ərzində müqavilə çərçivəsində nəzərdə tutulan tədbirlər həyata keçirilmiş və bunun nəticəsi olaraq "Yaşıl Enerji Zonası"nın yaradılması üzrə Konsepsiya sənədi hazırlanmışdır.

Enerji potensialı ilə bağlı araşdırmalar göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun günəş və külək enerjisinin minimal potensialı 9200 meqavat təşkil edir. Hidroenerji potensialı isə minimal olaraq 600 meqavatdır. Yeri gəlmişkən, bildirək ki, azad edilmiş ərazilərdə 30-dan artıq orta və kiçikhəcmli su-elektrik stansiyasının tikilməsi planlaşdırılır. Onlardan 5-i artıq istismara verilib.

Dünyanın ayrı-ayrı bölgələrində müxtəlif səbəblərdən zaman-zaman enerji böhranı baş verir. Belə vəziyyətlərdə uzaqgörənliklə planlaşdırılaraq həyata keçirilmiş layihələrin səmərəliliyi özünü göstərir. Məsələn, Rusiya-Ukrayna müharibəsinin başlanması Avropanın qaza olan ehtiyaclarının alternativ mənbələrdən ödənilməsi ehtiyacını doğurdu. Avropa İttifaqına üzv ölkələrdə "Şimal axını 1" vasitəsi ilə tədarükün və "Şimal axını 2" layihəsinin dayandırılması səbəbindən enerji böhranı baş verdi. Böhran fonunda uzunmüddətli enerji təhlükəsizliyini təmin etməyə imkan verəcək alternativ mənbələrin tapılması zəruriliyi meydana çıxdı. Bu zaman diqqət sərfəli alternativ kimi Xəzər qazını Avropa bazarlarına çatdıran "Cənub qaz dəhlizi"nə yönəldi. Martın 1-də Bakıda "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu iclası və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında həmin məsələ müzakirə mövzusuna çevrildi. Prezident İlham Əliyev iclasdakı çıxışında Avropa İttifaqından Azərbaycan qazına böyük tələbatının ödənilməsi üçün "Cənub qaz dəhlizi"nin genişləndirilməsini, qaz təchizatının şaxələndirilməsi istiqamətində atılan addımların vacibliyini qeyd edərək "Cənub qaz dəhlizi"nin qaz tədarükünü ikiqat artırmaq potensialına malik olduğunu göstərdi.

Hazırda Azərbaycan qazının xarici tədarükünün təxminən 50 faizi Avropa ölkələrinin payına düşür. Azərbaycanın İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstana və Serbiyaya qaz tədarükü üzrə müqavilələri var. Eyni zamanda ölkəmizdən qaz almaq istəyən daha bir qrup ölkələr var. Bunlar Albaniya, Bosniya və Herseqovina, Monteneqro, Xorvatiya, Slovakiya və Şimali Makedoniyadır.

Ənənəvi enerji resurslarının istehsalçısı olan Azərbaycan bərpaedilən "yaşıl enerji"nin inkişafı istiqamətində də böyük işlər görür. Gələcəyə istiqamətlənmiş bu işlər ölkəmizin daim ümid yeri, söz sahibi olmasını şərtləndirir. Bu isə Prezident İlham Əliyevin vaxtında və düzgün həyata keçirdiyi enerji siyasətinin nəticəsidir.

***Vüsalə MURADXANLI,***
***Vəkillər Kollegiyasının üzvü***

# Ermənistanın qanunsuz dağ-mədən fəaliyyətini ifşa edən xəritə hazırlanıb

**Ermənistanın qanunsuz dağ-mədən sənayesi əleyhinə mübarizəyə qalxan QHT-ləri birləşdirən "Environmental Protection First" Koalisiyası mayın 16-da Bakı Biznes Mərkəzində "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritəni ictimaiyyətə təqdim edib.**

AZƏRTAC xəbər verir ki, xəritəni koalisiyaya daxil olan "Azərbaycan Kartoqrafları" İctimai Birliyi 3 dildə - Azərbaycan, ingilis və erməni dillərində hazırlayıb.

Xəritədə Ermənistanın dağ-mədən sənayesi fəaliyyətinin mənfi ekoloji təsirlərini ifşa etmək üçün mühüm məlumatlar əks olunub. Xəritədən aydın görünür ki, Ermənistan ətraf mühitə ən çox zərər vuran dağ-mədən sənayesi müəssisələrini bilərəkdən əsasən Qərbi Zəngəzur bölgəsinə - Azərbaycan Respublikası ilə həmsərhəd, transsərhəd çaylara yaxın ərazilərə cəmləşdirib.

Təqdimat mərasimində çıxış edən "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramov ilk növbədə Ermənistanın coğrafi baxımdan Azərbaycan ərazisindən keçən Kür və Araz çaylarının yuxarı hövzəsində yerləşməsinə diqqət çəkərək deyib: "Kür və Araz çaylarının yuxarı və orta axın hissələrindəki qolları olan Pəmbək (Debed), Abarançay, Zəngiçay, Vediçay, Arpaçay, Mığrıçay, Oxçuçay və Bazarçay hövzələrində Ermənistanın mədən sənayesi işləri Azərbaycanın ekologiyasına zərbə vurur. Ermənistanın Espoo Konvensiyasından irəli gələn öhdəliyidir ki, transsərhəd ərazilərdə həyata keçirilən mədən işlərinə görə Azərbaycan dövlətindən icazə alsın".

"Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisi, Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondunun sədri Sabit Bağırov bildirib ki, dəfələrlə edilmiş çağırışlara baxmayaraq, Ermənistan hökuməti və bu ölkədə dağ-mədən işləri görən xarici şirkətlər həyata keçirdikləri işlərə dair Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədlərini təqdim etmir, gizlədirlər. "Biz bu sənədlərin ictimaiyyətə açıqlanmasını tələb edirik. "Ermənistan Respublikasının mineral xammal resursları" adlı xəritədə müəssisələrin necə yerləşməsinə baxmaq kifayətdir ki, problemin qlobal miqyası aydın olsun", - deyə o əlavə edib.



Geologiya və Geofizika İnstitutunun Dinamik geologiya şöbəsinin rəhbəri, geologiya-mineralogiya üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü Tələt Kəngərli "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin ərsəyə gətirdiyi kartoqrafik əsəri yüksək qiymətləndirərək deyib ki, xəritə materialın zənginliyi ilə səciyyələnir və əhəmiyyətli məlumat bazasıdır.

"AzerGold" QSC-nin İdarə Heyəti sədrinin geoloji məsələlər üzrə müşaviri, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru Şahbəddin Musayev diqqətə çatdırıb ki, Ermənistan ərazisində fəaliyyət göstərən dağ-mədən müəssisələrindən atılan zərərli kimyəvi maddələr transsərhəd sularla axıdılaraq Araz və Kür çayları vasitəsilə Xəzər dənizinə tökülür. Bu isə ekoloji fəsadların miqyasını daha da artırır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında İctimai Şuranın sədri, "Environmental Protection First" (EPF) Koalisiyasının həmtəsisçisi, "Sudan İstifadə Sahəsində Mütəxəssislər" İctimai Birliyi sədrinin müavini Amin Məmmədov Ermənistan hökumətindən tələb edib ki, Cənubi Qafqazda ekologiya və səhiyyə böhranı yaradan dağ-mədən sənayesi müəssisələrinin qapılarını ekoloji monitorinqlər üçün açsın. "Biz Cənubi Qafqaz regionu üçün ekoloji ədalət tələb edirik. Ermənistan ətraf mühitə ziyan vuran fəaliyyəti dərhal dayandırmalı, beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklərini yerinə yetirməlidir", - deyə o vurğulayıb.

Tarix və Etnologiya İnstitutunun elmi işçisi Nazim Mustafa hər 3 dildəki xəritələrdə adların milli toponimlərlə göstərilməsini yüksək qiymətləndirib. O bildirib: "Xəritənin erməni dilində olması Ermənistan ictimaiyyətinin də gözünü açacaq. Onlar necə aldadıldıqlarının fərqinə varacaqlar".

Qeyd edək ki, Azərbaycan QHT-lərinin son vaxtlar nümunəvi işləri ilə daha çox seçilməsi diqqət çəkir.

"Azərbaycan Kartoqrafları" İctimai Birliyinin mühüm mövzuya həsr olunmuş kartoqrafik əsər layihəsinin donoru Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyidir.

Xatırladaq ki, ötən il iyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlətimizin başçısı bu barədə deyib: "Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub… İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan hökuməti də burada kənarda qalmamalıdır".

Dövlətimizin başçısı müşavirədə Azərbaycan vətəndaş cəmiyyətinin bu istiqamətdə fəaliyyətini təqdir etmiş, Ermənistanı bu təhlükəli praktikadan əl çəkməyə çağıraraq bildirmişdi: "Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçuçaya töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq" (https://president.az/az/articles/view/60429).

Bakı Biznes Mərkəzinə toplaşmış QHT-lər Ermənistanın dağ-mədən sənayesi müəssisələrində ekoloji monitorinqlərin aparılmasını vacib sayıblar.

"Environmental Protection First" Koalisiyası bəyan edib ki, Ermənistanın və digər xarici ölkələrin ekologiya və səhiyyə sahəsində fəaliyyət göstərən vətəndaş cəmiyyəti təşkilatları beynəlxalq qurumlarla birgə Ermənistanın dağ-mədən müəssisələrində ekoloji monitorinqlər aparmağa hazırdır.

Qeyd edək ki, xəritənin müəllifi kartoqrafiya sahəsində 43 illik iş təcrübəsinə malik mühəndis-kartoqraf, Bakı Kartoqrafiya Fabrikinin sabiq direktoru, "Azərbaycan Respublikasının Milli Atlası"nı, "Cənubi Qafqaz. 1903-cü il", "Qafqaz diyarının xəritəsi - Tiflis 1847-ci il" xəritələrini tərtib edən kartoqraf qruplarının rəhbəri, "Azərbaycan Kartoqrafları" İctimai Birliyinin sədri Müqabil Bayramovdur. O, 2020-ci ildə ətraf mühitin mühafizəsi sahəsində xidmətlərinə görə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunub.




# Bakıda İqlim və Su Sammiti keçirilib





**Mayın 16-da İnkişaf və Diplomatiya İnstitutu BMT-nin Azərbaycan nümayəndəliyi, Davamlı Gələcək Komissiyası, Boğaziçi Universiteti və TÜBİTAK ilə əməkdaşlıq çərçivəsində İqlim və Su Sammiti keçirib. Tədbirdə hökumət və akademik qurumların, beynəlxalq təşkilatların və özəl sektorun nümayəndələri bir araya gəliblər, dünyanın üzləşdiyi qlobal iqlim və su məsələlərini, onların həll yollarını müzakirə ediblər.**

AZƏRTAC xəbər verir ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, FAO və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin ofisinin ekspertləri su resursları ilə bağlı hazırkı vəziyyətdən və yaxın gələcək üçün nəzərdə tutulan proqnozlardan söhbət açıblar.

Davamlı Gələcək Komissiyasının Azərbaycandan olan sədri və "Aqualink"in baş direktoru Orxan Mikayıl və Türkiyədən olan sədri "Agro Tv" Türkiyə Azərbaycan CEO-su Doğan Başaranın iştirakı ilə keçirilən tədbirdə bildirilib ki, COP29-un ilk dəfə Türk dünyası ölkələrindən birində keçirilməsi əlamətdar hadisədir.

Tədbirdə çıxış edən İnkişaf və Diplomatiya İnstitutunun direktoru və ADA Universitetinin prorektoru Fariz İsmayılzadə iqlim və su problemlərinin həllində tədqiqatın vacibliyini, bunun iqlim risklərinin qiymətləndirilməsindəki önəmini vurğulayıb. Fariz İsmayılzadə əlavə edib ki, əvvəlki COP sammitləri ilə müqayisədə builkinə alimlərin fəal şəkildə cəlb edilməsi və onlar üçün xüsusi platformaların təşkil edilməsi nəzərdə tutulur.

"Yaşıl transformasiya"nın iqtisadiyyata təsirindən bəhs edən çıxışçılar iqlim dəyişikliyi ilə bağlı ölkədaxili qurumlar arasında əməkdaşlığın, transmilli tərəfdaşlığın və su diplomatiyasının önəmini vurğulayıblar.

FAO və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisinin ofisinin nümayəndələri çıxışlarında qlobal rəqabət mühitinin iqlim dəyişikliyinə təsir etdiyini və 2040-cı ilədək qlobal qaz emissiyasının 43 faizədək azaldılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıblar.

Kənd təsərrüfatı sahəsində su resurslarının intensiv şəkildə istifadə edildiyini bildirən ekspertlər iqlim dəyişikliyi ilə bağlı ölkəmizin su resurslarında 15 faiz azalmanın müşahidə edildiyini qeyd ediblər.

Tədbir mövzu ətrafında panel müzakirələrlə davam edib.

## *Doğan BAŞARAN:* "COP-un ilk dəfə bir türk dövlətində keçirilməsi qürurverici hissdir"



**"Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində COP ilk dəfə bir türk dövlətində keçiriləcək".**

AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetində keçirilən İqlim-Su Zirvəsində "Dayanıqlı gələcək komissiyası"nın Türkiyə tərəfdən sədri Doğan Başaran deyib.

COP29-un Azərbaycanda keçirilməsinin qürurverici hiss olduğunu bildirən D.Başaran qeyd edib ki, bütün türk dövlətləri bu istiqamətdə Azərbaycana dəstək göstərməlidir: "İqlim dəyişikliyi probleminin qarşısı alınmadığı təqdirdə bütün dünya üçün fəlakətlə nəticələnə bilər. COP29-da bu məsələnin həlli istiqamətində yeni yolların tapılacağına inanıram".

## *FAO nümayəndəsi:* "Su qıtlığı səbəbindən artan rəqabət ölkələr arasında problemlər yarada bilər"



**"Su qıtlığı səbəbindən artan rəqabət ölkələr arasında problemlər yarada bilər". AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetində keçirilən İqlim-Su Zirvəsində FAO-nun mütəxəssisi Aynur Seyidyusif deyib.**

O qeyd edib ki, məhz bu səbəbdən su resurslarının iqlimə dayanıqlı həllərinin tapılması istiqamətində dünya dövlətləri birlikdə mübarizə aparmalıdır: "Xüsusilə ölkədaxili və transsərhəd suların düzgün idarə olunması üçün ölkələrarası dialoqların inkişaf etdirilməsi lazımdır. Su qıtlığının ən çox təsir edəcəyi sahə kənd təsərrüfatıdır. Eyni zamanda sudan istifadə edən ən böyük sahə də kənd təsərrüfatıdır. Burada əsas məsələ suyun miqdarının düzgün idarə edilməsidir", - deyə FAO nümayəndəsi qeyd edib.

## *Nazirlik rəsmisi:* "Azərbaycanın su ehtiyatları 15 faizədək azalıb"



**"İqlim dəyişiklikləri dünya ictimaiyyətini ciddi narahat edir". AZƏRTAC xəbər verir ki, bu sözləri ADA Universitetində keçirilən İqlim-Su Zirvəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Əkbər Əsgərov deyib.**

O, iqlim dəyişmələrinin su ehtiyatlarına olduqca mənfi təsir etdiyinə diqqət çəkib: "Ölkədə su obyektləri üzərində müşahidələr aparılır. Biz qlobal istiləşmənin bu sahədə yaratdığı fəsadların şahidi oluruq. Məhz bu səbəbdən Azərbaycanın su ehtiyatlarında 15 faizə qədər azalma var".

Ə.Əsgərov bu il COP29-un Azərbaycanda keçirilməsini mühüm hadisə kimi dəyərləndirib: "COP29-da "yaşıl planet" və sağlam gələcək naminə üzləşə biləcəyimiz problemləri idarə etmək üçün geniş müzakirələr aparılacaq".

Jurnalist araşdırması

# Xəzərin "duz"u "şirin" olacaq

## Azərbaycan içməli su ehtiyatlarını müasir texnologiyalar vasitəsilə artırır



**İqlim dəyişiklikləri nəticəsində yaranan su qıtlığı dünyanın qlobal problemlərindən birinə çevrilib. Bu səbəbdən də su qıtlığının aradan qaldırılması, ümumilikdə bu məsələnin həlli istiqamətində dünya ölkələri tərəfindən tədbirlərin görülməsi hazırda ən ümdə vəzifələrdəndir. Çünki getdikcə dərinləşən problem yalnız texniki deyil, həm də içməli su ilə təchizatda özünü göstərir.**

Xüsusən su ehtiyatının əsas hissəsi respublikadan kənarda formalaşan ölkələr üçün bu istiqamətdə daha böyük problemlər yaranır. Azərbaycanın da yerüstü su ehtiyatlarının 70 faizi iri tranzit çaylar hesabına yaranır. Əsas su arteriyalarımız olan Kür və Araz çayları qonşu ölkələrin ərazisində yüksək dərəcədə çirklənməyə məruz qaldığı üçün ölkəmizdə də təmiz və içməli su problemi ortaya çıxır.

### İqlim dəyişikliyi böyük fəsadlar yarada bilər

Hazırda Azərbaycanın su ehtiyatları orta hesabla 30 milyard kubmetrdir. Tədqiqatlar göstərir ki, qlobal iqlim dəyişmələri ilə əlaqədar temperaturun və buxarlanmanın artması nəticəsində su ehtiyatlarımız 20-25 faiz azala bilər.

Bütün problemlər fonunda su ehtiyatlarından səmərəli istifadə və su təchizatı ilə bağlı yeni su mənbələrinin yaradılması vacib hesab olunur. Buna görə dəniz suyunun duzsuzlaşdırılması artıq bir çox ölkədə istifadə olunan üsullardan biridir. Azərbaycanda da Xəzər dənizinin suyunun duzsuzlaşdırılması ilə bağlı pilot layihənin həyata keçirilməsi planlaşdırılır.

Bu məqsədlə Prezident İlham Əliyev "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncam imzalayıb. Sərəncamın icrası ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədini daşıyır.

Su və Meliorasiya Elmi Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Mir Mövsüm Dadaşev qəzetimizə açıqlamasında bildirib ki, bu sahədə əsas istiqamətlərdən biri alternativ su mənbələrinin istifadəsidir. Dəniz suyunun duzsuzlaşdırılması bu alternativlər arasında ən önə çıxanlardan biridir və həm də Azərbaycan kimi dəniz kənarında yerləşən ölkələr üçün aktualdır. Belə ki, əhalimizin böyük bir hissəsi Xəzər dənizi sahili boyunca yerləşir.

O, xatırladıb ki, Prezident İlham Əliyevin 12 aprel 2023-cü il tarixli dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" sərəncamının icrasına əsasən, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və İqtisadiyyat Nazirliyi birgə müəyyən işlər görüb, texniki, maliyyə və hüquq sahələrində beynəlxalq təcrübəyə malik məsləhətçiləri bu işə cəlb edib. İlkin mərhələdə pilot layihə ilə bağlı hazırlıq işləri görülüb. Daha sonra tender prosesinə başlanılıb. Artıq çox böyük təcrübəsi olan bir çox beynəlxalq şirkət bu işə maraq göstərir. Bir neçə ay ərzində təkliflər nəzərdən keçirilərək qərar veriləcək. Bununla da suyun tam içməli səviyyədə, hətta bəzi mənbələrdən daha yaxşı səviyyədə əhaliyə çatdırılması proqnozlaşdırılır.

### Dəniz suyunu şirinləşdirən qurğu Salyanda fəaliyyət göstərir

Pilot layihənin uğurlu icrası ölkəmizdə gələcəkdə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində infrastruktur layihələrinin reallaşdırılmasına şərait yaradacaq.

Mir Mövsüm Dadaşev qeyd edib ki, Azərbaycanda əhalini şirin su ilə təmin etmək məqsədi ilə müəyyən tədbirlər həyata keçirilib. 2013-cü ildən Salyan rayonunun Xıdırlı kəndində suyun duzsuzlaşdırılması ilə məşğul olan bir zavod fəaliyyət göstərir. Həmin su yaşıllıqların suvarılmasında istifadə olunur. Təkcə Salyanda deyil, Şirvan kollektorunun suyunun da suvarılmaya yararlı olması üçün işlər görülüb və görülməkdədir.

Sədr bildirib ki, su qıtlığı probleminin həlli istiqamətində əsasən okean və ya dəniz sularının şirinləşdirilməsi nəzərdə tutulur. Dəniz suyunun duzsuzlaşdırılması üçün bir neçə texnologiya mövcuddur ki, bunlar arasında əks osmos, elektrodializ, distilyasiya, membran filtrasiya və UV təmizləmə kimi metodlar var. Bir sıra ölkələrdə bu layihələr dövlət-özəl tərəfdaşlığı modeli ilə həyata keçirilir. Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İsrail kimi Yaxın Şərq ölkələrində bu layihələr geniş yayılıb. Həmçinin ABŞ, Avstraliya və bir sıra başqa ölkələrdə də duzsuzlaşdırma zavodları fəaliyyət göstərir. Bu texnologiyalar suyu təmizləyib duz və digər maddələrdən ayıraraq içməli su halına gətirir. Ultrafiltrasiya və ya əks osmos hazırda geniş istifadə olunan ən müasir üsuldur.

### Pilot layihə gözləntilərə cavab verərsə, Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması genişləndirilə bilər

M.Dadaşev vurğulayıb ki, dəniz suyunun təmizlənməsi məqsədilə istifadə olunan texnologiyaların effektivliyi bir çox amilə bağlıdır. Duzsuzlaşdırma prosesləri kimi texnologiyalar su təminatı üçün alternativ mənbələri araşdıran bölgələrdə və ya içməli su mənbələrinin çatışmazlığı halında istifadə edilir. Bununla yanaşı, yeniliklər və texnologiya sahəsindəki inkişaf prosesin effektivliyini artırmağa kömək edir. Bu texnologiyaların tətbiqi zamanı ekoloji təsirləri də nəzərə alınmalıdır.

Müsahibimiz vurğulayıb ki, duzsuzlaşdırma dəniz suyunun duz və digər tərkib hissələrinin ayrılması üçün istifadə olunan bir neçə texnologiyanı özündə ehtiva edir. Dəniz suyunun təmizlənməsi və ya duzsuzlaşdırılması prosesi məqsədinə və istifadə olunan texnologiyalara görə dəyişir: "Suyun təmizlənməsi təkcə içməli və ya məişət suyu olaraq istifadə etmək məqsədi ilə aparılan bir proses deyil, həm də suyun kimyəvi tərkibini dəyişdirmək, təmiz vəziyyətə gətirmək və ya xüsusilə enerji mənbələri kimi istifadə edilməsi üçün duz və mineralların ayrılması ilə əlaqəlidir.

O, qeyd edib ki, təmizlənmiş dəniz suyundan eyni zamanda sənayedə və suvarmada da istifadə edilir. Bəzi sənaye prosesləri və texnologiyaların tətbiqi zamanı suya ehtiyac yaranır və təmizlənmiş dəniz suyu bu məqsədlər üçün alternativ ola bilər.

Təmizlənmiş dəniz suyunun qiymətinə gəlincə, təmizlənmə prosesi, istifadə edilən texnologiya, sərf olunan enerji və kimyəvi maddələrin dəyəri kimi qiymətə təsir edən faktorlar nəzərə alınaraq, istehlakçının ödəyəcəyi qiymətə təsir etməməsi əsas prioritetlərdən biridir.

Onun sözlərinə görə, hazırkı pilot layihə gözləntilərə cavab verərsə, texnologiya ümumi səmərəlilik baxımından özünü təsdiq edərsə, gələcəkdə Azərbaycanda suyun duzsuzlaşdırılma prosesi genişləndirilə bilər.

### Bakı və Sumqayıt ətrafında texniki su ehtiyacının 80-90 faizini ödəmək olar

Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun Xəzər dənizi sahilləri və dibinin geomorfologiyası şöbəsinin müdiri, coğrafiya üzrə elmlər doktoru Əmir Əliyev mövzu ilə bağlı qəzetimizə bildirib ki, Azərbaycanın su ehtiyatının 70 faizi respublikadan kənarda formalaşır. Su qıtlığı probleminin aradan qaldırılması üçün Xəzər dənizinin suyunun duzsuzlaşdırılmasından alternativ yol kimi istifadə oluna bilər. "Xəzər dənizində hazırda 78 min kub kilometrə qədər su var. Bu suyu duzsuzlaşdırmaq mümkündür və belə təcrübədən digər ölkələrdə istifadə olunur. Həm də Xəzərin suyunun şirinləşdirilməsinə sərf olunacaq enerji başqa dənizlərin suyuna nisbətən az olacaq. Çünki Xəzərin duzluluğu dünya okeanından təxminən 3 dəfə azdır", - deyə Ə.Əliyev əlavə edib.

Salyan rayonunun Xıdırlı kəndi ərazisində dəniz suyunu duzsuzlaşdıran zavodun fəaliyyətinə toxunan şöbə müdiri qeyd edib ki, bu müəssisədə dəniz suyundan gün ərzində 1000 kubmetr həcmində su istehsal olunur. Sudan Salyan zonasındakı yaşıllıqların suvarılmasında istifadə olunur.

Alim vurğulayıb ki, dəniz suyunun duzsuzlaşdırılması ilə bağlı pilot layihə həyata keçirilərsə, bu sudan Bakıda, Sumqayıtda texniki su məqsədilə istifadə etmək mümkün olacaq: "Xəzər dənizinin şərq sahilində - Aktauda 1960-cı illərdə belə qurğular quraşdırılmışdı. Sutkada təxminən 25 min ton su duzsuzlaşdırılaraq əhalinin içməli suya olan tələbatı ödənilirdi. Bakıda və Sumqayıt ətrafında bu həcmdə və ya daha böyük zavodlar tikilərsə, əhalinin texniki suya olan ehtiyacının 80-90 faizini ödəmək mümkündür".

Müasir texnologiyalarla şirinləşdirilən suyun təsirlərindən danışan Ə.Əliyev bildirib ki, bu sudan içməli su kimi istifadə etmək təhlükəli deyil. Eyni zamanda bu layihənin Xəzər dənizinə də ziyanı yoxdur. İstifadə olunan su onsuz da yenidən dənizə axıdılır.

Xəzərdə həmişə su var, sadəcə səviyyə tərəddüdləri olur. Hesablamalara görə, 2050-ci ilə qədər dənizin səviyyəsi daha 1-1.5 metr düşə bilər. Daha sonra yenidən qalxma dövrü başlayacaq. Həmçinin dəniz suyunun tərkibində Mendeleyev elementlərinin, demək olar ki, hamısı mövcuddur. Proses gedərkən həmin elementlərdən də yığmaq olar.

### Xəzərin hər kubmetr suyunun şirinləşdirilməsi 1 dollardan aşağı başa gələcək

Ətraf mühit məsələləri üzrə ekspert Rövşən Abbasov qəzetimizə açıqlamasında bildirib ki, dəniz suyunun duzsuzlaşdırılması son 50 ildə dünya praktikasında getdikcə genişlənən səmərəli bir təcrübədir. Onun sözlərinə görə, xüsusən Körfəz ölkələri - İsrail, İspaniya, İtaliya, ABŞ kimi dövlətlər okean suyunu uğurla duzsuzlaşdırıb müxtəlif məqsədlər üçün istifadə edirlər: "Əlbəttə, adi su ilə müqayisədə dəniz suyunun duzsuzlaşdırılması bir qədər bahalı texnologiya hesab olunur, çünki proses üçün kifayət qədər enerji lazımdır. Bu enerjinin haradan alınacağı hər zaman müzakirə obyektinə çevrilir. Amma Xəzər dənizində vəziyyət bir qədər fərqlidir, çünki okean suyu ilə müqayisədə duzluluğu 3 dəfə aşağıdır. Bu o deməkdir ki, Xəzər dənizində duzsuzlaşdırılan bir kubmetr su digər ölkələrdə duzsuzlaşdırılan su ilə müqayisədə təxminən üç dəfə ucuz başa gələcək".

Ekspert bildirib ki, Azərbaycanda əhali əsasən Abşeron yarımadasında yaşasa da, bu bölgədə, demək olar ki, su mənbələri yoxdur. Ona görə də Xaçmaz rayonundan Oğuz-Qəbələ, Kür kəmərləri vasitəsilə Bakıya su daşınır. Su kəmərləri vasitəsilə daşınmalar tarixən olub, amma nəzərə almaq lazımdır ki, su daşınması zamanı itkilər baş verir. Digər tərəfdən su daşınan rayonun problemləri ortaya çıxır. Məsələn, Quba-Xaçmaz zonasından çoxlu suyun Bakıya daşınması son illərdə Xaçmazın suyla təminatını pisləşdirib. Eyni hal digər bölgələrdə də müşahidə edilir.

R.Abbasov hesab edir ki, Xəzər dənizinin suyunun duzsuzlaşdırılması və buna xidmət edən zavodların Abşeron yarımadasında tikilməsi iqtisadi baxımdan çox əlverişli olacaq. "Bu zaman həm daşınma baxımından, həm də duzluluğun az olmasında uduruq. Beləliklə, iqtisadi cəhətdən effektiv olan su mənbəyi əldə edirik", - deyə o əlavə edib. Digər ölkələrdə hər kubmetr suyun duzsuzlaşdırılması orta hesabla 1.5-2.5 dollara başa gəlirsə, Xəzərdə bu prosesin 1 dollardan da aşağı olacağı gözlənilir. Bu isə hazırda istifadə etdiyimiz suyun qiymətindən bir qədər yüksəkdir. Amma əvəzində daha dayanıqlı, uzunmüddətli və stabil su mənbəyi yaranacaq.

Bütün bunlar göstərir ki, Azərbaycan qlobal problemə çevrilən su qıtlığı ilə mübarizədə əməli addımlar atır. Su ehtiyatlarının artırılması, alternativlərin tapılması məqsədilə dövlət səviyyəsində yeni layihələr həyata keçirilir. Bu baxımdan Prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlar, irəli sürdüyü təşəbbüslər iqlim dəyişmələri nəticəsində ortaya çıxan problemlərin həlli istiqamətində mühüm rol oynayır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - "COP29"un Bakıda keçiriləcəyi faktı da Azərbaycanın ekoloji problemlər, iqlim dəyişikliyinin yaratdığı fəsadların həlli məsələlərində fəal iştirakını bir daha təsdiqləyir. Bunun nəticəsidir ki, belə mötəbər tədbirin Bakıda keçirilməsinə yekdilliklə qərar verilib.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# REGİONLAR

## Kənd Təsərrüfatı Nazirliyi ilə "Azərkosmos" arasında əməkdaşlıq genişlənir

**Kənd Təsərrüfatı Nazirliyi və "Azərkosmos" arasında əməkdaşlığın genişləndirilməsi üzrə Anlaşma Memorandumu imzalanıb.**



Əməkdaşlıq sənədi hazırda Bakıda keçirilən 17-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində ("Caspian Agro") imzalanıb.

Əldə olunan razılaşmaya əsasən, peyk təsvirləri və kosmik həllərdən istifadə etməklə ölkənin aktiv kənd təsərrüfatı ərazilərində əkin növlərinin xəritəsi, o cümlədən pivot suvarma sistemlərinin coğrafi məlumat bazasının yenilənməsi üzrə rəqəmsal xəritə hazırlanacaq. Əsas məqsəd iqlim dəyişikliyi ilə mübarizə çərçivəsində peyk təsvirləri əsasında iqlimin kənd təsərrüfatına təsirlərinin qiymətləndirilməsi işlərinin aparılmasıdır.

Məlumdur ki, kənd təsərrüfatı hava və iqlimə çox həssas olan sahədir. İqlim dəyişiklikləri (temperatur, yağıntı və şaxta vaxtı kimi) bitkilərin vegetasiya dövrünü uzadır və ya bəzi bölgələrdə yetişdirilən kənd təsərrüfatı məhsullarının əkinçilik imkanlarını çətinləşdirir, aqroekosistemə mənfi təsir göstərir. Hazırda qlobal miqyasda kənd təsərrüfatı əməliyyatlarının təxminən 30-40 faizində məhsuldarlığı və əkin sahələrinin davamlılığını artırmaq üçün peyk məlumatlarından istifadə olunur. Bu peyklər vasitəsilə məhsulun sağlamlığının monitorinqi, məhsuldarlığın proqnozlaşdırılması, su ehtiyatlarının idarə edilməsi və zərərvericilərin aşkarlanması daxil olmaqla, dəqiq əkinçilik üçün mühüm məlumatlar əldə edilir.

Ölkənin iqlim dəyişmələri üzrə mötəbər tədbir - COP29-a ev sahibliyi etdiyi ərəfədə qurumlararası razılaşmanın nəticəsi olaraq əldə ediləcək təhlil məlumatları xüsusi əhəmiyyət kəsb edir.

## Dost gəlişi bayram olur

### Şirvanın nümayəndə heyəti qardaşlaşdığı Manisada keçirilən beynəlxalq festivalda iştirak etmişdir

**Türkiyənin Manisa Böyükşəhər Bələdiyyəsinin təşkilatçılığı ilə UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olan və bu il 484-cü dəfə keçirilən Beynəlxalq "Manisa Mesir Macunu Festivalı"nda Şirvan Şəhər İcra Hakimiyyətinin və Bələdiyyəsinin 6 nəfərdən ibarət nümayəndə heyəti də iştirak etmişdir.**

Xatırladaq ki, Şirvan və Manisa şəhərləri arasında 2023-cü il sentyabrın 8-də "Qardaşlıq, dostluq protokolu" imzalanmışdır. Bununla da hər iki şəhər arasında birgə layihələr, proqramlar, qarşılıqlı səfərlər, təcrübə mübadiləsi, mədəniyyət, incəsənət və digər sahələrdə əməkdaşlıq işlərinə başlanılmışdır.

Beynəlxalq festivalın proqramı çərçivəsində şirvanlı qonaqlar Manisa Böyükşəhər Bələdiyyəsi şəhər teatrı əməkdaşlarının səhnələşdirdiyi "Maqnesiyadan Manisaya lirik tarix şousu"na tamaşa etmişlər. Sonra festival iştirakçıları Cümhuriyyət meydanında səhnəyə çıxan KÖFN musiqi qrupunun konsert proqramını izləmişlər.

Manisa şəhər valisi Enver Ünlü ilə nümayəndə heyətimizin görüşü zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin dərin tarixi köklərə malik olduğu vurğulanmış, qarşılıqlı hədiyyələr təqdim olunmuş, xatirə şəkli çəkilmişdir. Həmin gün Manisa Böyükşəhər Bələdiyyəsinin başqanı Memar Ferdi Zeyrek, Şehzadeler Bələdiyyə başqanı Gülşah Durbay, Manisa, Mesir Tanıtma və Turizm Dərnəyi başqanı Ufuk Tanık qonaqlara, o cümlədən Şirvan nümayəndə heyətinə Manisanın simvollarından ibarət hədiyyələr təqdim etmişlər. Şirvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Aynur Fərzəliyeva və Şirvan Bələdiyyəsinin sədri Kürdoğlu Muradov ev sahiblərinə 44 günlük Vətən müharibəsində qazanılan qələbənin şərəfinə Şirvan şəhərində ucaldılmış "Zəfər abidəsi"nin xatirə hədiyyəsi və Qarabağ xalçası bağışlamışdır.

Şirvanın nümayəndə heyəti qonaqlar üçün təşkil olunmuş Manisa turunda iştirak etmişdir. Tur zamanı Manisa tarixinin izlərini bu günə qədər daşıyan Sultan məscidi və külliyəsi, Bimarhanə, Muradiyə məscidi ve külliyəsi, Manisa muzeyi, 7 Qız Türbəsi Eyvanı, Sultan türbəsi, Ağlayan Qaya, Mövləvi məscidi, Çanaqqala Şəhidlər abidəsi və muzeyi ziyarət olunmuşdur. Günün sonunda nümayəndə heyətləri müasir Anadolu rok musiqiçisi Kıraçın konsert proqramına baxmışlar.

Festivalın 3-cü - sonuncu günü ənənəvi Mesir kortej yürüşü başlamış və Şirvan nümayəndə heyəti qonaqlarla birlikdə bu yürüşdə iştirak etmişdir. Manisa Valiliyi önündən başlayan kortej yürüşü Sultan məscidində şəfalı mesir macunlarının paylanması ilə başa çatmışdır.

Keçirilən bütün görüşlərdə Şirvanın nümayəndə heyəti Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərindən, 44 günlük Vətən müharibəsində qardaş ölkənin yanımızda olması, haqq səsimizi dəstəkləməsi, qardaşlığımızın sarsılmazlığı və əbədiliyindən danışmışdır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



## Ağdamda vətəndaşların təklif və müraciətlərinə diqqətlə yanaşılır





**Əhalinin problemlərinin yerində öyrənilməsi və həll edilməsi üçün Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənovun rayonun "İkinci Dördyol" qəsəbəsində səyyar qəbul-görüşü keçirilib.**

Səyyar görüşdə əhalini narahat edən problemlərin həlli üçün həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışılıb. V.Həsənov Prezident İlham Əliyevin verdiyi tapşırıqların həyata keçirilməsi, əhalinin problemlərinin öyrənilməsi və operativ həlli üçün keçirilən bu cür görüşlərin önəmli olduğunu qeyd edərək davamlı olacağını bildirib. Rayon icra hakimiyyətinin başçısı Prezident İlham Əliyev tərəfindən qəbul edilən, əhalinin sosial müdafiəsinə və rifah halının yüksəldilməsinə yönəldilmiş son qərarlardan danışaraq bütün bunların vətəndaşlara olan dövlət qayğısının olduğunu vurğulayıb.

Vaqif Həsənov qəbula gələn vətəndaşların qaldırdıqları məsələlərin bir hissəsini yerində həll edib, digər vacib məsələlərin həlli üçün isə müəyyən tapşırıqlar verərək onların həlli prosesini nəzarətə götürüb.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## "Dəyirmi masa"da ekoloji problemlər və onların həlli yollarından danışılıb

**Gəncə Şəhər İcra Hakimiyyətinin, Elm və Təhsil Nazirliyinin dəstəyi, Azərbaycan Milli Elmlər Akademiyasi Gəncə Bölməsinin təşkilatçılığı ilə "Gəncənin ekoloji problemləri. Torpaq və su ehtiyatlarının qorunması" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

Adından da göründüyü kimi, bölgənin ekoloji problemlərinə həsr edilmiş "dəyirmi masa"nı giriş sözü ilə açan AMEA Gəncə Bölməsinin rəhbəri, akademik Fuad Əliyev müasir dövrdə ekoloji problemlərin daim diqqətdə saxlanılmasının aktuallığından, eləcə də Gəncə və ətraf bölgədə çalışan alim və tədqiqatçıların bu coğrafiyanın təbiətinə və insan resurslarına birbaşa və dolayısı ilə təhlükə yarada bilən məsələlərin həlli yönündə fəaliyyətlərini gücləndirməsinin vacibliyindən danışıb.

Sonra alimlərin elmi məruzələri dinlənilib, ekoloji problemlərə dair digər məsələlər ətrafında müzakirələr aparılıb.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

## Naxçıvan MR-də daha bir qrup şəxsə aktivlər verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində Naxçıvan Muxtar Respublikasında daha bir qrup şəxs seçdikləri biznes istiqamətləri üzrə aktivlərlə təmin edilib.**



Onlara "un məmulatlarının istehsalı", "qadın gözəllik salonu", "kişi bərbərxanası", "dərzi", "avtomobil şinlərinin bərpası və təmiri", "kiçik fotoatelye" və digər istiqamətlər üzrə öz işlərini qurmaları üçün lazım olan avadanlıqlar verilib.

Özünüməşğulluq proqramının genişləndirilməsinə mühüm dəstək olan "Məşğulluğa Dəstək Layihəsi"nə cəlb olunanlar üçün ilkin mərhələdə təlimlər təşkil edilir. Təlimlərin sonunda keçirilən qiymətləndirmə prosesində biznes planlarını müdafiə edən şəxslər seçdikləri sahələr üzrə avadanlıqlarla təmin olunurlar.

Ümumilikdə ötən dövrdə Naxçıvan MR-də 477 işsiz şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər verilib. Onlardan 103 nəfəri "Məşğulluğa Dəstək Layihəsi" üzrə aktivlərlə təmin olunaraq öz kiçik bizneslərini qurublar.

Həssas qruplara (əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, aztəminatlı ailələrin üzvləri və b.) aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə kiçik biznesə çıxışına imkan yaradan bu layihənin 22 min şəxsi əhatə etməsi nəzərdə tutulub.

## Göygöldə su ehtiyatlarından səmərəli istifadə edilməsi üçün tədbirlər görülür

**Göygöl Rayon İcra Hakimiyyətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə "Su ehtiyatlarından səmərəli istifadənin təmin olunması, alternativ su mənbələrinin yaradılması və həmin mənbələrdən istifadənin genişləndirilməsi" mövzusunda maarifləndirici görüş keçirilmişdir.**

Görüşü giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Arzu Qocayev açaraq diqqətə çatdırmışdır ki, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə su təsərrüfatı sisteminin inkişafı sürətlənmiş, məhdud şirin su ehtiyatlarına malik regionlarda əhalinin fasiləsiz içməli su ilə təminatı və irriqasiya sistemi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır: "Bunu Göygöl rayonunun timsalında daha aydın görmək olar. Təsdiq edilmiş tədbirlər planına uyğun olaraq, aidiyyəti qurumlarla birlikdə rayon ərazisində müvafiq tədbirlər həyata keçirilir, sakinlər arasında su ehtiyatlarından səmərəli istifadə edilməsi ilə əlaqədar maarifləndirmə işləri aparılır və bunlar nəticəsiz qalmır".

Sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Bəxtiyar Seyidov və Rəsul Rəhmanov çıxış edərək dünyanın bir çox ölkəsində iqlim dəyişikliyi ilə əlaqədar su ehtiyatlarının azalmasından, insanların su çatışmazlığından əziyyət çəkməsindən, ölkəmizdə əhalinin içməli su və suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlərdən danışmışlar.

Görüşdə çıxış edən digər natiqlər ölkənin şirin su ehtiyatlarının azlığından bəhs edərək demişlər ki, son illər qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, bunun da nəticəsində çaylarda sululuğun azalması indi hər bir vətəndaşdan sudan qənaətlə istifadə etməsini tələb edir.



## Goranboyda sel sularının törətdiyi fəsadlar aradan qaldırılır



**Son günlər yağan leysan nəticəsində Gorançayın Qaraçay qolunda və İncəçay çayında suyun səviyyəsinin artması Goranboyun Tatarlı, Səfikürd, Xan Qərvənd və Əlirzalı kəndləri ərazisində əkin sahələrinə, fərdi təsərrüfatlara ziyan vurmuşdur.**

Rayon icra hakimiyyətinin rəhbərliyi, aidiyyəti məsul şəxslər və xidmət sahələrinin nümayəndələri selin fəsad törətdiyi ərazilərdə olmuşlar. Rayon icra hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyası tərəfindən müvafiq texnikalar əraziyə cəlb edilməklə sel sularının əhalinin yaşadığı ərazilərə keçməsinin qarşısı alınmışdır. Hazırda fəsadların aradan qaldırılması istiqamətində işlər davam edir.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Tovuzlu kümçülər qazanclarından razıdırlar

**Barama istehsalında fərqlənən bölgələrdən biri də Tovuzdur. Son illər rayonda baramaçılığa böyük maraq yaranmışdır. Təkcə keçən il 61 kümçü ümumilikdə 153 qutu ipəkqurdu bəsləyərək 4633 kiloqramdan çox barama təhvil vermişdir.**



Bir qutu yaş barama üçün təhvil verilməli norma 40 kiloqram olduğu halda, bu göstərici, eləcə də qazanc gözlənildiyindən xeyli yüksək olmuşdur. Bu, tovuzlulara cari ildə daha çox barama yetişdirməyə stimul vermişdir.

Qeyd edək ki, bəslənən ipəkqurdularının yemlənməsində problem yaşanmır. Bunun üçün rayonun müxtəlif ərazilərində 32 min ədədə yaxın tut ağacı əkilmişdir ki, onun da 20,5 mini Çin Xalq Respublikasından gətirilmişdir. 11,3 mini isə yerli tut ağaclarıdır.

Məlum olduğu kimi, barama istehsalı gəlirli olduğu qədər də gərgin zəhmət tələb edir. Amma tovuzlular bu çətinlikdən qorxmur, öz təcrübələrinə arxalanaraq hər işi vaxtında görürlər. Nəticədə həm qarşılarına qoyduqları məqsədə çatır, həm də ailə büdcələrini artırırlar. Onlardan biri Xılxına kəndinin sakini Bakir Seyidovdur. O, rayonda ən çox ipəkqurdu bəsləyən kümçülərdəndir. Keçən il 3 qutu ipəkqurdu bəsləyərək 120 kiloqram barama təhvil verən Bakir ənənəsinə sadiq qalaraq bu il də həmin həcmdə ipəkqurdu götürmüşdür. Kümçü keçənilki göstəricini təzələmək fikrindədir.

Rayonun Muğanlı kənd sakini Novruz Musayev də 3 qutu ipəkqurdu bəsləyir. Bu işdə ona ailə üzvləri yaxından kömək göstərirlər. Havaların soyuq keçməsi bir sıra çətinlik yaratsa da, kümçü hər işin öhdəsindən vaxtında gəlir.

Aşağı Göycəli kəndinin sakini Şəfayət Bağırov isə ipəkqurdunu bəsləmək üçün qabaqcadan hazırlıq işləri görmüşdür. İpəkqurdu saxlanacaq yeri dezinfeksiya etdirmiş, havalandırma sistemini qaydaya salmışdır. Odur ki, indi kümçü heç bir problemlə üzləşmir. Yem sarıdan da çətinliyi yoxdur. Kümçü bu il 80 kiloqramdan çox barama təhvil verməyi hədəfləyib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Xaçmazda 360 yerlik məktəb binası inşa olunub

**Xaçmaz rayonunun Palçıqoba kəndində inşa olunan 360 şagirdlik ikimərtəbəli məktəb binasında son tamamlama işləri görülür.**

Palçıqoba kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə 2023-cü ilin mart ayından başlanılıb. AZƏRTAC xəbər verir ki, Palçıqoba kəndindəki köhnə məktəbin binasında 2020-ci ilin iyul ayında yanğın baş verdiyi üçün yeni müasir məktəb binası inşa olunub.

Üç korpusdan ibarət yeni məktəb binasında son tamamlama və tərtibat işləri aparılır, məktəbin həyəti abadlaşdırılır. Müasir məktəb binasında sinif otaqları, laboratoriya, gənclərin çağırışaqədər hazırlığı, əmək təlimi və kompüter otaqları, idman və akt zalı, kitabxana və yeməkxana olacaq.

Palçıqoba kənd tam orta məktəbinin yeni binasının növbəti tədris ilində istifadəyə verilməsi nəzərdə tutulub.

# "Reklamların dili monitorinq aynasında"

**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Elmi Kitabxanasının Akademik zalında Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin təşkilatçılığı ilə "Reklamların dili monitorinq aynasında" adlı tədbir keçirildi.**



Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin Müşahidə Şurasının sədri, akademik Möhsün Nağısoylu, professor Mahirə Hüseynova, Azərbaycan Milli Elmlər Akademiyasının İmadəddin Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli, dövlət qurumlarının rəsmiləri, sahibkarlar, müxtəlif reklam şirkətlərinin nümayəndələri və digər qonaqların iştirak etdiyi tədbir açıq məkan reklamlarının mətnləri üzərində aparılan monitoringin nəticələrinə həsr olunmuşdu.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva giriş sözü ilə çıxış etdi. Diqqətə çatdırdı ki, bu tədbirin keçirilməsində başlıca məqsəd monitorinq zamanı aşkarlanan dil qüsurlarının təqdim edilməsi və mövcud nöqsanların aradan qaldırılması istiqamətində müzakirələrin aparılmasıdır.

Monitorinq Mərkəzinin direktoru çıxışında nəzərə çatdırdı ki, ana dilinin saflığının qorunması və inkişafı dövlət siyasətinin tərkib hissəsidir. Ölkəmizdə dil siyasətinin formalaşması və Azərbaycan dilinin dövlət dili kimi tətbiqi işinin təkmilləşdirilməsində Ümummilli Lider Heydər Əliyevin, eləcə də onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin müstəsna xidmətləri var.

Sevinc Əliyeva reklamlarda ədəbi dil normalarına riayət olunması və onların təcrübədə düzgün tətbiqinin vacibliyini diqqətə çatdırdı. O, reklam sahəsində çalışan bəzi mütəxəssislərin dilimizin normalarını ya yetərincə bilmədiklərini, ya da bu işə laqeyd yanaşdıqlarını təəssüflə qeyd etdi. Bildirdi ki, mövcud qüsurların bir qisminin səbəbi əcnəbi dillərə meyillilik və xarici brendlərin reklam mətnlərinin hərfi tərcümədə təqdim edilməsidir. Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru dövlət dilinin qorunmasına və inkişafına mənfi təsir göstərə biləcək mübahisəli məsələlərdə hər kəsi, o cümlədən reklam sahəsində çalışanları diqqətli və məsuliyyətli olmağa çağırdı.

Tədbirdə deyildi ki, Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzi Bakı şəhərindəki açıq məkanlarda reklamlarla bağlı monitorinq həyata keçirib. Monitorinqin nəticələrinin əksini tapdığı "Reklamların dili monitorinq aynasında" adlı kitab da toplantı iştirakçılarına təqdim olundu.

Tədbirdə "Açıq məkan reklamları və dilimiz" adlı məruzə ilə çıxış edən Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktor müavini, dosent Gülarə Əmirova açıq məkan reklamlarının (Bakı şəhərində yerləşən) monitorinqinə həsr olunmuş kitabda mağaza, dükan, ictimai-iaşə obyektləri, idman, sağlamlıq, tədris, estetik və gözəllik mərkəzləri, istirahət və əyləncə məkanları, klinika və tibb məntəqələrinin adlarında, onlara məxsus lövhələrdə (reklam, məlumat, menyu və s.), eləcə də sosial xarakterli mətnlərdə müşahidə edilmiş fonetik, leksik, qrammatik norma pozuntuları, üslub və ifadə səhvlərinin əhatə olunduğunu bildirdi. Ümumilikdə 510 reklam mətnində 2300 norma pozuntusu aşkar edildiyini tədbir iştirakçılarının nəzərinə çatdırdı. Onlardan 2028-nin (918 orfoqrafik, 707 leksik, 157 qrammatik norma pozuntusu, 246 üslub və ifadə səhvi) hesabata daxil edildiyi bildirildi.

Gülarə Əmirova günümüzdə geniş auditoriyası və kütləviliyi ilə fərqlənən, hər kəs üçün əlçatan olan açıq məkan reklamlarının qısa və yığcam olmasına baxmayaraq, dilin ən aktiv təbliğat vasitələrindən olduğunu vurğuladı. Təəssüflə qeyd etdi ki, mövcud mətnlərdə Azərbaycan ədəbi dil normalarının kobud şəkildə pozulması hallarına çox rast gəlinir.

Müzakirələr zamanı qonaqlar açıq məkan reklamlarının mətnlərinin monitorinqə cəlb edilməsinin dilimizin saflığının qorunmasına, həmçinin məlumatın doğru təqdim edilməsi işinə mühüm töhfə verəcəyinə ümid etdiklərini bildirdilər.

Tədbirin sonunda mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsinin zəruriliyi vurğulandı.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Artıq tərcüməçiyə ehtiyac duymayacağıq

## Hər kəs xarici dili anlayacaq

**Texnoloji inkişaf və onun gətirdiyi yeniliklər dünyanı təəccübləndirməkdə davam edir. Bu sırada insanları heyrətləndirməyi özünə deviz seçən "OpenAI" tarixindəki ən mühüm yeniləməni edərək "GPT-4o" adlı güclü generativ süni zəka modelini təqdim edib.**




"GPT-4o"nun ən mühüm özəlliyi sürətli "tərcüməçi" olmasıdır. Əslində, indiyədək bir çox süni zəka modeli bu funksiyaya sahib olsa da, onların heç biri hər hansı bir nitqi real zaman dilimində, digər sözlə sinxron tərcümə edə bilmirdi. Yeni süni zəka modeli isə üstəlik 50 dil "bilir". Bundan sonra insanlar artıq hər hansı bir dili öyrənmək üçün uzun illər vaxt sərf etməyəcək. Bunu smartfonumuza əlavə etdiyimiz funksiya edəcək.

Bir anlıq təsəvvür edək ki, tamamilə fərqli dillərdə danışan 5-6 insan eyni masa arxasında oturub bir-birinin dilini bilməsələr də, ünsiyyət qurmağı bacarırlar. İyirmi il bundan öncə kimsə bunun nə zamansa real olacağını desəydi, bəlkə də qeyri-real, hətta cəfəngiyyat kimi qarşılanardı. İndi isə bu, realdır.

Yeni funksiya istifadəçilər tərəfindən "tərcümə peşəsi başa çatdı" və "dil bilməyə ehtiyac yoxdur" kimi reaksiyalara səbəb olub. Bu fikirlərə mütəxəssislər də münasibət bildiriblər. Türkiyənin Qazi Universitetinin professoru Kadriyə Bacanak deyib ki, belə texnologiyalar təyyarədəki avtopilota bənzəyir: "GPT-4o" kimi süni intellekt modelləri ilə tərcümə və xarici dil tədrisinin tamamilə bitəcəyini düşünmürəm. Lakin gələcəkdə tərcüməçilərə ehtiyac xeyli azala bilər". Tərcüməçilərin mövcud yeni texnologiyalarla işləməsi lazım olduğunu bildirən Ankara Sosial Elmlər Universitetinin professoru İsmayıl Çakırın sözlərinə görə, bu texnoloji inkişafla insanların işsiz qala biləcəyini söyləmək hələ tezdir. Çünki çatbotlar üçün mədəniyyətləri əks etdirən atalar sözlərini və deyimlərini tərcümə etmək çətin olacaq. Lakin bu tip yeni texnologiyaların həyatımıza daxil olması ilə tərcümə üzrə fakültələrin əvvəlki kimi populyar olmayacağı da faktdır.

İstifadəçiləri sevindirən digər bir məsələ isə "GPT-4o"nun yalnız "tərcüməçi" olmaqla kifayətlənməməsidir. O, özünü dost, yoldaş kimi apararaq smartfonun kamerası vasitəsilə insanları və ətraf mühiti görüb şərhlər yaza, emosiyaları anlaya, insan kimi söhbət və zarafat edə bilir. O, hətta insanlara məsləhətlər verməyi və oyunlar oynamağı da bacarır. Beləliklə, süni intellekt modeli bizimlə real vaxt rejimində sanki bir insan kimi söhbət edə, emosiyalarımızı anlaya və suallarımıza məntiqli cavab verə biləcək.

"OpenAI" şirkətinin texniki direktoru Mira Murati bildirib ki, "real vaxtda görüntü və səs" funksiyasına sahib "GPT-4o"nun vizual imkanları da təkmilləşdiriləcək. Bundan sonra çatbot istifadəçi tərəfindən təqdim edilən bu və ya digər foto əsasında olan suallara sürətli şəkildə cavab verəcək. "GPT-4o" hazırda hansısa bir menyunun fotosundakı mətni digər dilə tərcümə edə bilirsə, gələcəkdə o, canlı yayım çərçivəsində idman oyununun izləyərək onun qaydalarını da başa sala biləcək. Bununla yanaşı, "GPT-4o" fiziki məhdudiyyəti şəxslərə də çox faydalı olacaq.

İstifadəçilər bu innovativ funksiyadan istifadə etməyi səbirsizliklə gözləyirlər. Bir neçə həftə ərzində "ChatGPT"nin həm ödənişli, həm də pulsuz versiyasından istifadə mümkün olacaq. Lakin ödənişli versiyanın istifadəçiləri üçün mesajlaşma limiti 5 dəfə daha çoxdur. Qeydiyyatdan keçməyənlər də "GPT Store"dan pulsuz şəkildə faydalanmaq imkanı əldə edəcəklər. Bundan başqa, "OpenAI" şirkətindən bildirilib ki, "ChatGPT"nin yaxın zamanda "Mac" kompüterləri üçün nəzərdə tutulmuş tətbiqi də istifadəyə veriləcək. Tətbiqin "Windows" üçün nəzərdə tutulmuş versiyası da hazırlanır və o, bu il ərzində təqdim olunacaq.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə**

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**



RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 101 (9556) 16 may 2024-cü il CÜMƏ AXŞAMI
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Qüdrət rəmzi
Tolerantlıq Azərbaycan cəmiyyətinin demokratik birgəyaşayış normasıdır
"Transformativ dialoq: sürətlə dəyişən dünyada sülh naminə alyansların qurulması" mövzusunda Qlobal Dialoq Forumunun iştirakçılarına
Prezident İlham Əliyev Slovakiyanın Baş nazirinə qarşı törədilmiş sui-qəsdi sərt şəkildə pisləyib
Azərbaycanın Zəfəri Minsk qrupunu da tarixə qovuşdurdu
28 ildə missiyasını yerinə yetirməyən və məşğul ola biləcəyi hər hansı məsələ qalmayan ATƏT-in bu təsisatı hüquqi baxımdan da ləğv edilməlidir
Yenidən qurulan Xankəndi-Şuşa-Laçın yolu üzərində 4 tunel, 2 körpü inşa olunacaq
Belarus Prezidenti Aleksandr Lukaşenko Azərbaycana dövlət səfərinə gəlib
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti DND-nin inzibati binası üçün MDF qapıların və plintusların satın alınması məqsədilə ***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 25 may 2024-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

***Müsabiqə komissiyası***


# Revanşizmə çağırış edən kilsənin ümidləri puç olur

**İkinci Qarabağ müharibəsinin qalib və məğlub tərəfləri arasında aparılan sülh danışıqları, götürülmüş öhdəliklərin yerinə yetirilməsi istiqamətində delimitasiya və demarkasiya proseslərinə start verilməsi münasibətləri normallaşdırmaq üçün görülən işlərin başlanğıcı hesab edilə bilər. Hayastan tərəfi gec də olsa, anlayır ki, ölkələrinin xilas formulu Azərbaycanla münasibətləri normallaşdırmaqda, sülh müqaviləsini imzalamaqdadır.**



Məğlub ölkənin baş naziri Nikol Paşinyan da bunu etiraf etməyə başlayıb. Dünən hökumətin iclasında qeyd edib ki, Bakı ilə İrəvan arasında sərhədin bir hissəsinin delimitasiyası dair protokolun imzalanması böyük uğurdur: "İlk dəfədir ki, delimitasiya olunmuş sərhədimiz var. Bu, suverenliyimizin təməl daşıdır. Bu, həm də o deməkdir ki, təhlükəsizlik səviyyəsi artacaq". Paşinyan qeyd edib ki, bu, eskalasiya və hərbi münaqişələrin ehtimalını əhəmiyyətli dərəcədə azaldır. Onun sözlərinə görə, müstəqillik tarixində ilk dəfə olaraq Ermənistan rəsmi delimitasiya edilmiş sərhədə malikdir və təkcə bu hissədə deyil, həm də Ermənistan-Azərbaycan sərhədinin bütün perimetri boyunca təhlükəsizlik və sabitliyin səviyyəsini əhəmiyyətli dərəcədə artıracaq.

Revanşist qüvvələr isə sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini nümayiş etdirirlər. Buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Xalq arasında nüfuzunu itirən keçmiş hərbi xunta təmsilçilərinin din xadimlərindən vasitə kimi istifadə etməsi açıq aydın ortadadır. Erməni Apostol Kilsəsinin Tavuş Yeparxiyasının primatı, arxiyepiskop Baqrat Srbazanın (Qalstanyan) etirazları isə gün keçdikcə səngiməkdə davam edir.

"Joğovurd" nəşrinin hakim "Vətəndaş Müqaviləsi" Partiyasına yaxın mənbələri bildirir ki, hakimiyyət Baqrat Srbazanın hər sözünü, hər hərəkətini və planlarını diqqətlə izləyir. Nəşrin məlumatına görə, Hayastanın baş naziri Nikol Paşinyan komanda yoldaşlarını Srbazanın bəyanatları ilə bağlı müttəfiq əks arqumentlər təqdim etməyə, təkzib etməyə və müxtəlif iddialarla Baqrat Srbazanın "keçmişlər"dən birini olduğunu və məqsədinin onları hakimiyyətə gətirmək olduğunu göstərməyə çağırıb: "Eyni mənbələr bildirirlər ki, uzun müddətdir komanda yoldaşları Paşinyanla üz-üzə görüşmürlər, müzakirələr aparmırlar, lakin naməlum istifadəçilər vasitəsilə Baqrat Srbazanı gözdən salmaq üçün müxtəlif yollarla mesajlar alırlar. Paşinyanın ailə saytı da aktivdir".

Son günlərdə İrəvanda Paşinyana qarşı xalqı qaldıran, səsləndirdiyi fikirlərlə, açıqlamaları ilə yerli medianın diqqət mərkəzində yer alanlardan biri də sabiq baş nazir Qrant Baqratyandır. O da Hayastanı növbəti vətəndaş qarşıdurmasına sürükləməyə çalışır. Məqsəd isə hakimiyyətlə xalq arasında uçurumu daha da dərinləşdirməkdir. Baqratyan erməni diasporunun siyasətdəki ən ciddi fiqurlarından biridir. Baqratyan sülh prosesinin və Ermənistan - Türkiyə əlaqələrinin bərpasına qarşı sərt müxalif mövqe ortaya qoyur.

Həqiqət isə budur ki, Hayastan gələcəyini işıqlı görmək istəyirsə, sülh müqaviləsinin imzalanmasını yubatmamalıdır. Əks təqdirdə bu ölkə sonu görünməyən uçuruma yuvarlanacaq.

*Elçin CƏFƏROV, "Azərbaycan"*


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Səbail rayonundan Vuqar Zeynalov Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Ayaz İmaməliyevə əzizi

**NEYMAN HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4356
Sifariş 1064
Qiymətİ 60 qəpik